RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 32 (9487) 13 FEVRAL 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# HALAL QƏLƏBƏ

## Zəfər seçkiləri İlham Əliyevin xalq tərəfindən Xilaskar Lider kimi qəbul edildiyini bir daha təsdiqlədi

* 72 beynəlxalq təşkilat;
* 89 ölkədən gəlmiş 790 beynəlxalq müşahidəçi;
* 190 xarici media qurumunun 200-dən artıq aparıcı media nümayəndəsi;
* 14 siyasi partiyanın 50 mindən artıq müşahidəçisi;
* 109 beynəlxalq media təşkilatlarından 216 jurnalist;

Zəfər seçkilərində xalqın mütləq əksəriyyətindən, yəni 92,12 faiz səslə və ya 4 milyon 567 min 458 nəfər vətəndaşdan etimad mandatı almaqla yenidən İlham Əliyevin prezident seçilməsi dünyaya göstərdi ki, Azərbaycanda Zəfər Komandanının alternativi yoxdur. İlham Əliyevin digər namizədlər arasında səs fərqinin 40 dəfədən çox olması bunu təsdiqləyən reallıqdır.

Bu səçkilər dünyaya göstərdi ki, xalq İlham Əliyevi Xilaskar Lider kimi qəbul edir və Ulu Öndər Heydər Əliyev məktəbinin ən layiqli məzununun Azərbaycana hələ çox zəfərlər, qələbələr qazandıracağına bu gün də inanır, güvənir. Elə 7 fevral günü bir sıra seçki məntəqələrində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurdakı seçki məntəqələrində seçicilərin 100 faizinin öz səslərini İlham Əliyevə verməsi də buna bir misaldır. İlham Əliyevin ətrafında səfərbər olan xalq Azərbaycanın yüksəlişinin davamına səs verdi.

Xalqın inandığı, etimad etdiyi İlham Əliyev bu güvəni 20 ildə həyata keçirdiyi tam müstəqil, qətiyyətli, prinsipial siyasətlə qazanıb. 2003-cü ildə Azərbaycan Prezidenti seçilərkən əlini Konstitusiyaya və "Qurani-Kərimə" basaraq and içən İlham Əliyev 20 ildə verdiyi bütün vədləri gerçəkləşdirməyi bacardı. Əlbəttə ki, yeni əsrin yeni liderinin qazandığı uğurlar təkcə gerçəkləşdirilən vədlərdən ibarət deyildir. Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan bu dövrdə Azərbaycan misilsiz inkişaf yolu keçdi. İlham Əliyev tam müstəqil siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanı dinamik inkişaf yoluna çıxararaq ölkəmizi beynəlxalq miqyasda etibarlı tərəfdaşa çevirdi.

İlham Əliyev cəmi 20 ildə adını dünyada ən islahatçı Prezident, etibarlı tərəfdaş, sözünə və vədinə sadiq lider, ən arzuolunan dövlət başçısı, qlobalmiqyaslı layihələrin müəllifi və əsl komandan kimi tanıtmağa müvəffəq oldu. Bu, ilk növbədə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun təntənəsi idi.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən 4 dövlət proqramı (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023) Azərbaycanın, xüsusən də onun bölgələrinin simasını büsbütün dəyişdi. Bir vaxtlar özünün təbii sərvətləri olduğu halda enerjiyə olan tələbatını idxal hesabına ödəyən dövlətimiz az keçmədi ki, dünyaya enerji ixrac etməyə başladı.

→ 5

# Birliyin və həmrəyliyin təntənəsi

## Seçkilərdəki fəallıq insanların qalib ruhunun aynası idi

44 günlük Vətən müharibəsində "dəmir yumruq" kimi milli vəhdətimizin gücünü, Ali Baş Komandan cənab İlham Əliyevə, ordumuza dəstəyini göstərən, Müzəffər Sərkərdənin hər qələbə müjdəsini bayram edən xalqımız eyni coşqunu prezident seçkisində də nümayiş etdirdi.

Bu seçki Azərbaycan vətəndaşlarının növbəti illərdə ölkəmizə rəhbərlik edəcək lideri seçməsindən də çox, qədirbilən xalqımızın cənab İlham Əliyevə minnətdarlıq duyğularının ifadəsi idi. Vətəndaşlarımız bu minnətdarlığı Vətən müharibəsindəki hər qələbəmizdə, azad edilmiş yurdlarımızda dalğalanan üçrəngli bayrağımızın, o bayrağın kölgəsindən mətin addımlarla keçən əsgər və zabitlərimizin yaratdığı hər qürur anında könül dolusu dilə gətirirdilər. 7 fevral prezident seçkisi bunu səsvermə bülleteni ilə ifadə etməkdən ötrü böyük bir fürsət oldu. Bununla insanlarımız Prezident İlham Əliyevin yürütdüyü Zəfər kursunu dəstəklədiklərini göstərdilər.

İşğaldan azad olunmuş ərazilər üzrə seçici fəallığının xüsusilə yüksək olması da buna dəlalət edir.

→ 6

# Xalq yenə də seçimində yanılmadı

## "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi və o, uğurla başa çatdı" deyən İlham Əliyevi özünə Lider seçdi

Xalq yenə də müasir dünya liderləri arasında yüksək intellekti, diplomatik məharəti, xüsusi natiqlik bacarığı ilə seçilən, adı Azərbaycan tarixinə islahatçı dövlət başçısı kimi yazılan, inkişaf etmiş Azərbaycanın qurucusu, Qarabağı azad edən Ali Baş Komandan, qalib sərkərdə İlham Əliyevə səs verdi. Ulu Öndərin layiqli davamçısını - dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəyən, xalqa xidmət etməyi şərəf sayan, həyat amalına çevirən, "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi və o, uğurla başa çatdı" deyən İlham Əliyevi seçdi.

→ 6

# Beynəlxalq müşahidəçilər Azərbaycanda milli birliyə şahidlik etdilər

Prezident seçkilərinə hazırlıq, seçki prosesi, səslərin hesablanması, səsvermənin yekunlarının müəyyən edilməsinin açıq və aşkar həyata keçirilməsi prosedurlarında heç bir əngəl, yaxud narahatlıq doğuran məqamlar müşahidə olunmayıb. Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq, prezident seçkilərinin təşkili və keçirilməsi tam, bərabər və qərəzsiz, tətbiq olunan qanunlara əsaslanaraq realizə olundu, qanun çərçivəsində hər bir siyasi partiyaya, namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət təmin edildi. Həmçinin qanun əsasında seçicilərə, seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslərə sənədlərlə və məlumatlarla tanış olmaq üçün hər bir şəraitin yaradılması, birmənalı və aydın anlaşılmaqla müntəzəm xarakterli kommunikasiya imkanı təmin olundu. Eyni zamanda seçicilərin seçkilərdə iştirakı üçün Seçki Məcəlləsinə müvafiq olaraq bütün tədbirlər öncədən görüldü, o cümlədən inklüzivliyin təmini üçün xüsusi şəraitin yaradılması, həssas təbəqədən olan şəxslərin, habelə uzaq və ya yolu çətin olan yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanlar yaradıldı. Seçicilər, qeydə alınmış namizədlər, siyasi partiyalar və müşahidəçilər üçün istənilən pozuntu ilə bağlı işlək, aşkar, səmərəli və çatımlı şikayət mexanizmləri təmin olundu.

→ 5

# Qarşıda Azərbaycanı daha güclü inkişaf gözləyir

Prezident İlham Əliyev xalqdan yüksək etimad qazanmaqla yeni siyasi güc əldə etdi. Dövlət başçısı məhz bu dəstəklə beynəlxalq arenalarda mövqelərimizi daha da möhkəmləndirəcək. Biz bundan sonra düşmənlərimizə qarşı siyasi meydanlarda daha inamla mübarizə aparacaq, qələbəmizi həzm edə bilməyən dairələrə ədalətli mövqeyimizi daha inamla qəbul etdirə biləcəyik. Nəzərə almaq lazımdır ki, daxildən möhkəm və sarsılmaz olan dövlətə qarşı heç bir xarici qüvvə qalib gələ bilməz.

Ölkəmizin inkişafı üçün ilk növbədə iqtisadiyyatımız müasir çağırışlar üzərində inkişaf etdirilərək daha da gücləndirilməlidir. O cümlədən ordumuzun gücü mütəmadi artırılmalıdır ki, dünyada sözümüzü qətiyyətlə ifadə edə bilək.

→ 5

# Dünya Fransanın "ədaləti"nə artıq inanmır

## Paris itirdiyi nüfuzunu Ermənistan vasitəsilə Cənubi Qafqazda bərpa etmək istəyir

Paris Ermənistan xalqının taleyinə, bu ölkənin gələcəyinə deyil, özünün marağına uyğun siyasət yürütməyə çalışır. Cənubi Qafqazda münaqişənin yenidən qızışdırılması, ölkələrin qarşı-qarşıya qoyulması Fransanın istəyidir. Bu ölkə münaqişədən qazanmağa, faydalanmağa çalışır. Ancaq Ermənistanın silahlandırılması və bu prosesdə Fransanın aqressivliyi ermənilər üçün yaxşı heç nə vəd etmir. Çünki 44 günlük Vətən müharibəsi, eləcə də 23 saatlıq antiterror tədbirləri göstərdi ki, Azərbaycan Ordusu güclüdür, xalq birdir, Prezident öz sözünü deməyi və ədaləti bərpa etməyi bacarır.

Ermənistanı yenidən silahlandırmaq, onu yeni müharibəyə həvəsləndirmək bu ölkənin yer üzündən silinməsi olar. Çünki erməni ordusu tamamilə məhv edilib, Ermənistan iqtisadiyyatı çöküb. Erməni xalqı müharibədən cana gəlib. Artıq övladlarının gələcəyini düşünən ermənilər müharibənin əleyhinədirlər.

→ 7

# Fransanın Cənubi Qafqazda sabitliyi pozmaq cəhdi boşa çıxacaq

Azərbaycanın sülhə nail olmaq, Qarabağ və Şərqi Zəngəzur ərazilərini döyüşsüz, müharibəsiz azad etmək cəhdlərinə baxmayaraq, qəsbkar Ermənistan, ona havadarlıq edərək, əslində, işğalı və işğalçını açıq-aşkar dəstəkləyən dövlətlər və beynəlxalq təşkilatlar Cənubi Qafqazın illər boyu münaqişə ocağı olaraq qalmasına şərait yaratdılar.

Ölkəmiz uzun müddət Fransa kimi ermənipərəst dövlətlərin ikili siyasəti ilə üz-üzə qaldı. Həmin illər ərzində münaqişənin həlli ilə bağlı ATƏT-dən mandat almış Minsk qrupu münaqişənin dinc yolla tənzimlənməsinə heç bir töhfə vermədi. Fransa Minsk qrupunun həmsədri kimi bitərəf mövqe nümayiş etdirə, öz üzərinə düşən missiyanı yerinə yetirə bilmədi.

Hakim siyasi dairələri erməni lobbisinin güclü təsiri altında olan Fransa Vətən müharibəsi dövründə və Azərbaycanın Zəfər illərində də məkrli oyunları, böhtan, yalan dolu iddiaları, qərəzli qətnamələri ilə pis niyyətlərini davam etdirdi. Görünən budur ki, uzun illər ərzində öz məqsədini Minsk qrupunun fəaliyyəti çərçivəsində ört-basdır etməyə çalışan Fransa Azərbaycanın bu qrupdan imtina etdikdən dərhal sonra əsl mahiyyətini aşkar şəkildə ortaya qoydu.

→ 7

# AŞPA qərəzli qərarları ilə məqsədinə çata bilməyəcək




AŞPA-nın Azərbaycana qarşı qərəzi mövqeyinin Fransadan və erməni lobbisindən qidalandığını bütün dünya bilir. Ölkəmizə qarşı bu ədalətsiz münasibət Azərbaycanofobiya və islamofobiya təfəkkürlü avropalı deputatların korrupsiya və rüşvətxor əməllərinin təzahüründən başqa bir şey deyil.

→ 8

# AŞPA demokratik dəyərləri tapdalayır

Ümumiyyətlə, AŞPA-da Azərbaycana qarşı gedən proses təsadüfi deyil. Təşkilatın bu davranışı Fransanın ölkəmizə qarşı kampaniyasının davamıdır. Aydındır ki, Fransa və Almaniya tandem şəklində çıxış edirlər. AŞPA-da Azərbaycana qarşı qəbul edilən qərəzli qərar Fransanın təhriki ilə baş tutub. Ümumiyyətlə, Cənubi Qafqazda sülhün yaranmasına ən böyük əngəl törədən Fransadır. Azərbaycanın erməni işğalına son qoyaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Parisə rahatlıq vermir. Beynəlxalq müstəvidə ölkəmizə qarşı qərəzli kampaniya aparan Fransa öz casuslarını da regiona göndərməkdən çəkinməyib.

→ 8

# Ermənistanın növbəti saxtakarlığı

Ümumilikdə mina sahələrinə dair Ermənistan tərəfindən təqdim edilən formulyarlar keçmiş təmas xətti boyu ərazilərin bir qismini əhatə edir. Lakin keçmiş təmas xəttinin Xocavənd, Tərtər və Goranboy rayonları ərazisindən keçən hissəsi, habelə 2020-ci ilin noyabr ayında geri çəkilən zaman Ermənistan hərbi birləşmələri tərəfindən minalanmış ərazilər barədə məlumatlar hələ də təqdim edilməyib.



→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi və ali mandatınızın icrasında xoş arzularımı çatdırmaq istəyirəm.

Roma və Bakı dərin dostluq və qarşılıqlı əməkdaşlıq sahələrinin getdikcə daha da genişləndirilməsinə yönəlmiş, ümumi öhdəliklə möhkəmləndirilmiş həqiqətən də strateji və çoxşaxəli tərəfdaşlığa malikdir.

İnanıram ki, kəskin şəkildə şiddətli münaqişələr və narahatedici gərginliklə səciyyələnən bir mərhələdə prinsipial əhəmiyyətə malik kəsişmə nöqtəsi olan bütün Qafqaz regionu üçün sülh, sabitlik və firavanlıq perspektivlərinin təşviqi üzrə birgə işi davam etdirə biləcəyik.

Azərbaycan ilə Avropa İttifaqı arasında konstruktiv etimadın və əməkdaşlıq əlaqələrinin inkişafı bu yolun tərkib hissəsidir və İtaliya bunun üçün hərtərəfli dəstəyini əsirgəməyəcək.

Bu məramla, mən Zati-alinizə rifah, dost Azərbaycan xalqına firavan gələcək üçün ən xoş arzularımı yenidən çatdırıram.

*Hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, yeni mandatınızda Sizə davamlı uğurlar arzulayıram.

Rumıniya ilə Azərbaycan arasında həm ikitərəfli, həm də regional miqyasda davam edən çoxsaylı layihələr qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda strateji, yaxın və etibarlı tərəfdaşdır.

Mən bu vəsilə ilə Rumıniyanın strateji tərəfdaşlığımızın möhkəmlənməsinə və dərinləşməsinə sadiqliyini bir daha təsdiqləyirəm. Rumıniya və Azərbaycanın davamlı səylərlə enerji, nəqliyyat, təhsil, ticarət və investisiyalar kimi xüsusi önəm daşıyan sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi imkanlarından tam yararlanacağına əminəm.

Eyni zamanda Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasındakı dialoqun davamlı və hərtərəfli inkişafı üçün fəaliyyətini davam etdirəcəkdir.

Bu fürsətdən istifadə edərək Zati-alinizi ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirmək məqsədilə bu il Rumıniyaya rəsmi səfərə dəvət edirəm.

Cənab Prezident, xahiş edirəm Sizə dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Ölkənizin və xalqınızın firavanlığı istiqamətində yorulmaz fəaliyyətinizdə Sizə səmimi-qəlbdən davamlı uğurlar və qələbələr arzulayıram.

Mən qəti şəkildə inanıram ki, birgə səylərimizlə biz qardaş ölkələrimiz arasındakı mehriban qonşuluq və dostluq münasibətlərini, strateji tərəfdaşlığı yeni zirvələrə yüksəldəcəyik. Bu, şübhəsiz ki, həm Gürcüstanın, həm də Azərbaycanın regionda sabitliyin və inkişafın möhkəmləndirilməsində rolunu daha da gücləndirəcəkdir.

Zati-aliləri, Sizə bir daha ən dərin ehtiramımı bildirir, fəaliyyətinizdə davamlı uğurlar arzulayır, dost Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

Zati-aliləri.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim.

Çex Respublikası ilə Azərbaycan Respublikası arasında sıx münasibətlər və dostluq əlaqələri uzun tarixə malikdir. İnanıram ki, biz təkcə ölkələrimizin mənafeyi naminə deyil, həm də qitəmizdə sülh və sabitlik üçün bu əlaqələri birlikdə dərinləşdirəcək və inkişaf etdirəcəyik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram.

*Hörmətlə,*

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Əminəm ki, birgə səylərimizlə Latviya və Azərbaycan arasında yaxşı və konstruktiv münasibətlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda inkişaf etməkdə davam edəcəkdir. İnanıram ki, bizim sağlam dialoqumuzun davamlı inkişafı ölkələrimiz və xalqlarımızın uzunmüddətli maraqlarına xidmət edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, enerji və ali dövləti vəzifənizin icrasında uğurlar, həmçinin ölkənizə və onun xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Edgars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Bu, Sizin liderliyinizə olan böyük inamın təsdiqidir.

İordaniya Krallığı xalqlarımızın maraqları naminə ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələrini və dostluğu daha da inkişaf etdirmək üçün Zati-alinizlə işləməkdə davam etməyə ümidvardır.

Sizə davamlı uğurlar və möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***



Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Rusiya Federasiyası Hökuməti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Xalqın yüksək etimadı yeni Azərbaycanın qurulmasına, davamlı sosial-iqtisadi inkişafa və vətəndaşların rifahının yüksəlməsinə, beynəlxalq aləmdə respublikanın nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş kursunuza geniş ictimai dəstəyin sübutudur.

Sizin dostluq, mehriban qonşuluq və müttəfiqlik prinsiplərinə əsaslanan Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinə böyük şəxsi töhfənizi xüsusi qeyd etmək istərdim. Yüksək səviyyədə qəbul edilmiş strateji qərarlara uyğun olaraq iqtisadi-ticari, elmi-texniki və mədəni-humanitar əməkdaşlıq genişləndirilir, müxtəlif sahələrdə birgə layihələr uğurla həyata keçirilir. Bu, Rusiya və Azərbaycanın uzunmüddətli maraqlarına tam cavab verir.

Sizinlə hər zaman açıq və konstruktiv şəraitdə keçən görüşləri məmnunluqla xatırlayıram. Etibarlı ünsiyyətimizi davam etdirmək imkanına şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

*Dərin hörmətlə,*

***Mixail MİŞUSTİN,***
***Rusiya Federasiyası Hökumətinin sədri***

Cənab Prezident,

İtaliya Hökuməti adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik etmək və yeni mandatınız üçün Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm.

İtaliya ilə Azərbaycan arasında əlaqələr əladır və həqiqətən strateji və çoxölçülü tərəfdaşlığın yaradılması ilə yüksək əməkdaşlıq səviyyəsinə çatmışdır. Bizim niyyətimiz bu yolu davam etdirməkdir və əminəm ki, biz birlikdə enerji sektorundan başlayaraq bütün sahələrdə əməkdaşlığımızı daha da dərinləşdirə biləcəyik.

İnanıram ki, biz bütün Qafqaz regionu üçün sülh, sabitlik və firavanlıq perspektivlərini təşviq etmək üçün də səylərimizi birləşdirə biləcəyik.

Əminəm ki, xalqlarımızı bir-biri ilə bağlayan səmimi dostluq sayəsində də əlaqələrimiz hər sahədə inkişaf etməkdə davam edəcəkdir.

Sizə bir daha səmimi təbriklərimi çatdıraraq, ən xoş salamlarımı göndərirəm.

***Ciorcia MELONİ,***
***İtaliya Respublikası Nazirlər Şurasının Sədri***

Hörmətli cənab Prezident.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim. Seçkilərin nəticələri Azərbaycan xalqının Sizə etimadını əyani şəkildə nümayiş etdirdi.

Şadam ki, keçən il ərzində ikitərəfli münasibətlərimiz genişlənmiş strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmışdır. Azərbaycan Macarıstan üçün təkcə mühüm siyasi, iqtisadi və mədəni tərəfdaş deyil, həm də səmimi dostdur. Çoxşaxəli əməkdaşlığımız inkişaf etdirməkdə və bundan sonra da birgə investisiyalar yatırmaqda ümumi marağımız var.

Ölkələrimiz arasında davamlı olaraq möhkəmlənən əlaqələrə həm də tarixi yaxınlığımız, sosial ənənələrimiz, ailə dəyərlərinə hörmət və Türk xalqlarını birləşdirən təşkilatdakı əməkdaşlıq təkan verir. Sizi əmin edirəm ki, hökumətim əlaqələrimizin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşməsinə sadiq qalır.

Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

Hörmətli cənab Prezident.

Seçkilərdə inamlı qələbəniz və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ölkənizin və dost Azərbaycan xalqının rifahı, əmin-amanlığı və sabitliyi üçün yeni nailiyyətlər diləyirəm.

Əminəm ki, xalqın etimadı Azərbaycan Respublikasına daha yeni uğurlar gətirəcək və Sizin liderlik əzminiz gələcək məqsədlərə çatmaqda mühüm rol oynayacaq.

Əminəm ki, bu fürsətdən istifadə edib ölkələrimizi uzun müddətdir bir-birinə bağlayan qarşılıqlı etimada və hörmətə əsaslanaraq dövlətlərimiz arasındakı möhkəm dostluğu və strateji tərəfdaşlığı daha da gücləndirəcəyik. Həmçinin regionumuzun və xalqlarımızın əmin-amanlığı və rifahı naminə səylərimizi artıraraq Sizinlə sıx əməkdaşlıq etməyə ümidvar olduğumu bir daha bildirirəm.

Zati-aliləri, Sizə ali dövləti fəaliyyətinizdə bir daha səmimi-qəlbdən yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

Hörmətli Prezident.

Fürsətdən istifadə edərək bu günlərdə yenidən Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Mən Sizin səlahiyyət müddətiniz dövründə insan hüquqları, demokratiya və qanunun aliliyinin inkişafı ilə bağlı ümumi prinsiplərimiz üzrə birgə işləməyi davam etdirməyi səbirsizliklə gözləyirəm. Beynəlxalq ictimaiyyətlə yanaşı, Avropa Şurası regionda sülh, sabitlik və mehriban qonşuluq münasibətlərinə yönəlmiş bütün səyləri dəstəkləməkdə davam edəcəkdir.

*Hörmətlə,*

***Mariya Peyçinoviç BURİÇ,***
***Avropa Şurasının Baş katibi***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından səmimi təbriklərimi çatdırıram.

Sizin son seçkilərdəki inamlı qələbəniz Azərbaycan xalqının liderliyinizə olan inamının və etimadının sübutudur. Bu, həm də ölkənizin inkişafı və rifahı naminə fədakarlığınızın, baxışlarınızın və sarsılmaz sadiqliyinizin təzahürüdür.

Biz ICESCO olaraq müdrik rəhbərliyiniz altında Azərbaycanla əməkdaşlığımızı davam etdirməyə, İslam dünyasında təhsil, elm və mədəniyyət sahələrinin inkişafına ümid bəsləyirik.

Sizin davamlı dəstəyinizin regionda mədəniyyət mübadiləsi, elmi araşdırmalar və təhsil sahələrini inkişaf etdirmək təşəbbüslərinə müsbət təsiri olmuşdur. Biz əminik ki, Sizin yeni mandatınızla Azərbaycan gələcək illərdə daha da böyük nailiyyətlərə imza atacaqdır.

Sizin bütün İslam dünyasında əks-səda doğuran, gənclərin inkişafını dəstəkləyən, həmçinin sülh və tərəqqinin daha da irəliləməsinə xidmət edən müstəsna liderliyinizə şəxsi heyranlığımı bildirirəm.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm. Qoy, Sizin növbəti prezidentlik dövrünüz Azərbaycan Respublikası üçün daha yüksək firavanlıq və uğur gətirsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

*Dərin hörmətlə,*

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

Hörmətli cənab Prezident.

Ali dövləti vəzifəyə yenidən seçilməyiniz münasibətilə Zati-alinizə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının adından və şəxsən öz adımdan təbriklərimi çatdırmaqdan şərəf duyur, Sizə cansağlığı və ali dövləti vəzifənizin icrasında uğurlar arzulayıram.

Ümumi məqsədlərimizə çatmaq yolunda Azərbaycan Respublikasının xalqına xoşbəxtlik və firavanlıq arzularımı çatdırmaq istərdim.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru***

Hörmətli İlham Heydər oğlu.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində növbəti inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Seçkilər bütün dövlətlərin tarixində mühüm mərhələdir. Azərbaycan vətəndaşlarının öz iradəsini sərbəst şəkildə ifadə etmələri xalqın sıx birliyini göstərdi. Sizin müdrik rəhbərliyinizlə ölkənin irəlilədiyi kursa etimadın yüksək səviyyəsini nümayiş etdirdi. Əminəm ki, Sizin peşəkarlığınız və zəngin təcrübəniz sosial-iqtisadi sabitliyin təmin olunmasına, xalqın rifah halının yüksəldilməsinə və Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun gələcəkdə də artmasına kömək edəcəkdir.

Rusiya-Azərbaycan münasibətləri həmişə möhkəm dostluq bağlarına və mehriban qonşuluq prinsiplərinə əsaslanıb. Bu münasibətlər, o cümlədən parlament xətti ilə əlaqələr indi də konstruktiv istiqamətdə inkişaf edir, müttəfiqlik tərəfdaşlığını və qarşılıqlı faydalı əməkdaşlığın potensialını üzə çıxarmaqda davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, əmin-amanlıq və Azərbaycan xalqının rifahı naminə ali dövləti vəzifənizdə uğurlar arzu edirəm.

Ən səmimi ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri***

Möhtərəm cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Seçkilərdəki qələbəniz Azərbaycanın daxili və xarici siyasətində müstəsna dərəcədə uğurlu fəaliyyətinizin bariz göstəricisidir. Həyata keçirdiyiniz müstəqil və qətiyyətli siyasət sayəsində Azərbaycan dünya ölkələri arasında nüfuzunu daha da möhkəmləndirmiş, regionda aparıcı dövlətlərdən birinə çevrilmişdir.

Seçkilərdən sonra Sizinlə görüşümü məmnuniyyətlə xatırlayıram. Sizin Türk dünyasına verdiyiniz xüsusi önəm, Türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olması Türk birliyi və həmrəyliyinin, habelə Türk Dövlətləri Təşkilatının bundan sonra da inkişaf edərək möhkəmlənməsinə mühüm töhfədir.

Sizə möhkəm cansağlığı arzu edir, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Kubanıçbek ÖMÜRALİYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq və şərəf duyuram.

Sizə işlərinizdə uğurlar, Azərbaycan xalqına isə yüksək rifah, inkişaf və təhlükəsizlik arzulayıram.

Əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz Azərbaycan Respublikası ilə Körfəz Əməkdaşlıq Şurasının artıq güclü olan əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

***Casim Məhəmməd əl-BUDEYVİ,***
***Körfəz Əməkdaşlıq Şurasının Baş katibi***

Hörmətli cənab Prezidentim.

Yenidən Prezident seçilməyiniz münasibətilə Zati-alinizi təbrik edirəm.

Sizin liderliyinizlə Azərbaycanın bu günə qədər əldə etdiyi siyasi, iqtisadi, sosial, hərbi uğurların bundan sonra da artaraq davam edəcəyinə, ikinci Vətənimiz olan Azərbaycanın bölgədə və dünyada güclü mövqeyini daha da möhkəmləndirəcəyinə inanıram.

Ümummilli Lider Heydər Əliyevdən miras qalan "Bir millət, iki dövlət" düşüncəsi cənab Prezidentimizin və Zati-alinizin liderliyi ilə daha da güclənərək bölgənin təhlükəsizliyinin və sabitliyinin ən böyük təminatı olub.

Əzəli və əbədi qardaşlıq əlaqələrimizi gələcək nəsillərə ötürməyin ən mühüm ortaq məsuliyyətimiz olduğu düşüncəsi ilə Türkiyə həm sevincli, həm də kədərli günlərdə bütün imkanları ilə daim can qardaşımız Azərbaycanın yanında olmaqda davam edəcəkdir.

Fürsətdən istifadə edərək Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Zati-alinizi şəxsən öz adımdan və Milli Müdafiə Nazirliyi adından bir daha təbrik edir, başda şəxsiniz olmaqla dost və qardaş Azərbaycan xalqına rifah və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Yaşar GÜLƏR,***
***Türkiyə Respublikasının milli müdafiə naziri***

Möhtərəm cənab Prezident.

Sizi 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Türk Mədəniyyəti və İrsi Fondu adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisində keçirilən seçkilər ölkə vətəndaşlarının Sizə olan yüksək etimadını bir daha nümayiş etdirdi.

İnanıram ki, müdrik rəhbərliyinizlə qardaş Azərbaycan siyasi, iqtisadi və sosial-humanitar sahələrdə yeni-yeni nailiyyətlər əldə edəcəkdir.

Sizə Azərbaycan xalqının rifahı naminə, eləcə də Türk dünyasının birliyi və inkişafı yolunda qarşıya qoyduğunuz ali məqsədlərə nail olmağınızı diləyirəm.

Uca Tanrı Azərbaycanı və Sizi qorusun!

*Dərin hörmətlə,*

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

Möhtərəm İlham Heydər oğlu.

Seçkilərdə böyük uğurunuz və Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz iyirmi il bundan əvvəl öz xalqınıza Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyinizi söz vermişdiniz və bu vədi tam yerinə yetirdiniz.

Bu gün Azərbaycan dünya birliyində mühüm rol oynayır. Bu xüsusda ölkələrimizin strateji tərəfdaşlıq münasibətləri daha dəyərlidir.

Həqiqətən də Sizin üçün, Azərbaycan üçün çox sevinirəm. Atanız Sizinlə fəxr edərdi. Bundan yüksək nə ola bilər?!

Sizə ən xoş diləklərimi çatdırıram.

*Səmimiyyətlə Sizin,*

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi***

Əziz İlham Heydər oğlu.

Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz haqlı olaraq təkcə öz Vətəninizdə deyil, həm də bizim ölkədə və bütün dünyada öz xalqı və regionda sülh üçün çoxlu işlər görmüş təcrübəli, uzaqgörən siyasi xadim kimi böyük ehtiram, yüksək nüfuz qazanmısınız. Keçirilən seçkilərin nəticələri də bunu inamlı şəkildə göstərdi.

Dahi atanızın, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasətinin və həyatı boyu gördüyü işlərin layiqli varisi və davamçısı kimi, Siz onun ideyalarını uğurla davam etdirirsiniz.

Əminəm ki, Sizin yenidən Prezident seçilməyinizlə bu istiqamətdə aparılan işlər daha fəal davam etdiriləcək və bu işlərin soydaşlarınıza, ölkənin bütün vətəndaşlarına, bütünlükdə xalqlarımıza fayda gətirməsi üçün səylərinizi əsirgəməyəcəksiniz.

Bizim aramızda yaranmış şəxsi etimad və qarşılıqlı anlaşmanı yüksək qiymətləndirirəm, əziz tuturam.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, səadət, ali dövləti fəaliyyətinizdə və şəxsi həyatınızda əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri, Beynəlxalq məsələlər komitəsinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə İtaliya-Azərbaycan Dostluq Qrupunun sədri qismində Sizi ürəkdən təbrik etməyi vacib hesab edirəm.

Mən dövlətlərimiz arasında ticarət və mədəni əlaqələrin inkişafını, bunun nəticəsi olaraq Roma ilə Bakı arasında 30 ildən artıq davam edən əlaqələrin intensivləşməsini qətiyyətlə dəstəkləyirəm.

Tezliklə uyğun bir zamanda növbəti missiyalardan birində Sizinlə görüşə biləcəyimə ümid edirəm.

Fürsətdən istifadə edib Sizə ən səmimi salamlarımı çatdırıram.

*Hörmətlə,*

***Marko SKURRİA,***
***İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, İtaliya Senatının senatoru***

Möhtərəm cənab İlham Əliyev.

Azərbaycan Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçicilərin 92 faizindən çoxu Sizin ölkəyə rəhbərliyi davam etdirməyinizə, onu tərəqqi və rifah yolu ilə irəliyə aparmağınıza səs verdi.

Seçkilərin rekord nəticəsi həm də Sizin Azərbaycan Respublikası Prezidenti vəzifəsində iyirmiillik fəaliyyətinizin yekunu və yeni dövrün başlanğıcıdır. Çünki seçkilər ilk dəfə olaraq ölkənin bütün ərazisində, o cümlədən Qarabağda keçirildi.

Seçkilərin nəticələri təkcə Azərbaycan xalqının Zati-alinizə Prezident kimi münasibətini deyil, həm də Sizə sevdikləri, fəxr etdikləri və heyran olduqları şəxsiyyət kimi münasibətini əks etdirir.

Fürsətdən istifadə edərək "İsrail Bizim Evimizdir" partiyasının rəhbəri kimi, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına verdiyiniz mühüm töhfəyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Qarşıda bizim xeyli işlərimiz var və mən Sizə gözəl ölkəniz naminə səmimi-qəlbdən uğurlar arzulayıram.

Azərbaycan Respublikasına sülh və tərəqqi diləyirəm!

*Səmimiyyətlə Sizin,*

***Aviqdor LİBERMAN,***
***İsrail Knessetinin deputatı, "İsrail Bizim Evimizdir" partiyasının sədri***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizə dərin ehtiramı, sevgisi və etimadını bir daha nümayiş etdirdi, milli lider kimi nüfuzunuzu təsdiq etdi.

Parlaq, qeyri-adi və uzaqgörən siyasi xadim olaraq Siz Vətəninizin tərəqqisi və firavanlığı naminə çox işlər görmüsünüz. Sizin şəxsiyyətiniz, müdrikliyiniz, böyük təcrübəniz və rəhbərlik istedadınız sayəsində bu gün Azərbaycan dinamik inkişaf edən dövlətdir. Ölkənin möhtəşəm nailiyyətləri bütün dünyada səmimi heyrətlə qarşılanır.

Azərbaycanlı tərəfdaşlarla açıq və etibarlı dialoqun aparılması Sankt-Peterburqun beynəlxalq fəaliyyətinin başlıca prioritetlərindən biridir. Şəhər Hökuməti Sizin ikitərəfli münasibətlərin inkişafına şəxsən göstərdiyiniz diqqəti yüksək qiymətləndirir.

Əminəm ki, mənim rəhbərliyimlə bu ilin yazına nəzərdə tutulan Sankt-Peterburqun Azərbaycanda mədəni-işgüzar missiyası bizim dostluq və tərəfdaşlıq əlaqələrimizi daha da möhkəmləndirəcək, yeni perspektivli layihələrin başlanğıcı olacaqdır.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycanın daha da inkişafı və respublikanın sakinlərinin rifahı naminə yeni-yeni nailiyyətlər diləyirəm.

Sizi Neva sahillərindəki şəhərdə görməyə həmişə şadam.

*Hörmətlə,*

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

Zati-aliləri möhtərəm İlham Heydər oğlu.

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən ali dövləti vəzifəyə seçilməyiniz uzun illər ölkəyə rəhbərliyiniz dövründə qazandığınız ümumxalq etimadının göstəricisidir. Seçicilərin əksəriyyətinin Sizə səs verməsi onu göstərir ki, insanlar Sizin simanızda onların ehtiyaclarına və istəklərinə həmişə diqqətlə yanaşan, daxili və xarici siyasət üzrə aktual məsələləri səmərəli şəkildə həll edə bilən təcrübəli və nüfuzlu milli lider görürlər.

Sizə möhkəm cansağlığı və həmişə ruh yüksəkliyi, rəhmli Tanrıdan kömək və Azərbaycan Respublikasının Prezidenti ali vəzifəsində yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və bütün Rusiyanın patriarxı***

Möhtərəm İlham Heydər oğlu.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin bütün kollektivi adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz öz yorulmaz əməyiniz və tam fədakarlığınızla belə yüksək vəzifəyə ən layiqli namizəd olduğunuzu növbəti dəfə sübut etdiniz. Yüksək peşəkarlığınız, müstəsna şəxsi və işgüzar keyfiyyətləriniz Sizi hədəfi aydın şəkildə görən və nəzərəçarpacaq nəticələrə müvəffəq olan müdrik və qətiyyətli rəhbər kimi xarakterizə edir. Biz uzunəsrlik tarixə və möhkəm ənənələrə malik gözəl diyarın getdikcə gözümüz önündə çiçəklənən və sabit, hər bir insanın öz arzularına çata və öz xoşbəxtliyini tapa biləcəyi dövlətə necə çevrildiyini görürük.

Bu xoş fürsətdən istifadə edərək, Sizə bizim əməkdaşlığımıza diqqətli və səmimi münasibətinizə görə minnətdarlıq edirəm. Moskva Universitetinin Bakı şəhərindəki filialı uzun illər fəaliyyəti boyunca elm və təhsilin inkişafına uğurla xidmət edir və dövlətlərimizin səmərəli əməkdaşlığını möhkəmləndirir.

Möhtərəm İlham Heydər oğlu, bu gün mən Sizin ünvanınıza səsləndirilən bütün səmimi sözlərə böyük məmnuniyyətlə qoşulur, Sizə möhkəm cansağlığı, firavanlıq, yeni maraqlı layihələr və düşündüyünüz bütün planlarınızın həyata keçməsini arzulayıram.

*Dərin hörmətlə,*

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***



Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermənin nəticələri Sizin siyasi xadim kimi yüksək nüfuzunuzu və ölkənin liderinə ümumxalq dəstəyini təsdiq edir. Siz Azərbaycan xalqına sədaqətini əməldə sübut etmiş parlaq, qeyri-adi şəxsiyyət, çox gözəl idarəçisiniz. Ölkə Sizin rəhbərliyinizlə iqtisadi və sosial sahələrdə böyük uğurlar qazanıb və gələcəyə inamla baxır. Rusiya Səhiyyə Nazirliyinin Seçenov adına Universitetinin Bakı filialı Sizin dəstəyiniz və fəal iştirakınız sayəsində açılıb, bu gün ölkənizdə elm və təhsilin inkişafına, Rusiya və Azərbaycanın qardaş xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfə verir.

Sizə ali dövləti vəzifənizdə uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

Hörmətli cənab Prezident.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin, ruhanilərimizin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin ünvanınıza gələn təbriklərə dərin ehtiramla qoşuluruq, Sizə salamlarımızı və Rusiya müsəlmanlarının Azərbaycan Respublikasına sülh, uğurlar və tərəqqi dualarını çatdırırıq.

Sizin qələbəniz ölkə qarşısında şəksiz xidmətlərinizin təsdiqidir. Bu, müdrik siyasəti Azərbaycana müasir tarixə qalib dövlət kimi daxil olmağa imkan verən Liderin qeyd-şərtsiz nüfuzunun rəmzidir.

Bu, həmçinin Sizin rəhbərliyinizlə Azərbaycan xalqının gələcəyə olan inamıdır.

Çoxmillətli və çoxkonfessiyalı qardaş Azərbaycan xalqının sevincinə qoşuluruq, tarixi torpaqların azad edilməsi, qüdrətli vahid dövlətin yaradılması və iqtisadiyyatın, beynəlxalq siyasi nüfuzun hərtərəfli möhkəmləndirilməsi üzrə böyük nailiyyətləri qeyd edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan xalqının həmrəyliyinin möhkəmləndirilməsi, öz ölkəsinin şöhrəti naminə bütün sınaqları və çətinlikləri dəf etməyə hazır olan müasir cəmiyyətin misilsiz birlik və vətənpərvərliyi bizdə xüsusi sevinc hissi doğurur.

Uca Yaradandan xeyirxah işlərinizdə səmimi-qəlbdən uğurlar, Azərbaycan Respublikasının rifahı naminə Sizə İlahidən güc və yeni müdrik siyasi qərarlar diləyirəm.

Hörmətli İlham Heydər oğlu, Uca Allaha dua edərək Sizə və bütün Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzu edirəm. Amin!

*Xeyir-dualarımla və ən xoş arzularımla,*

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbriklərimi qəbul edin. Bu məsul və şərəfli vəzifəyə yenidən seçilməyiniz Sizin əməyinizin möhtəşəm nəticələrinin, Sizə Azərbaycan xalqının ən yüksək inamının və hörmətinin sübutudur.

Zəngin həyat təcrübəniz, Sizə xas olan enerji və görkəmli liderlik keyfiyyətləri Zati-alinizə respublikanın və onun sakinlərinin rifahı naminə məhsuldar çalışmağa kömək edir. Siz Azərbaycanın tərəqqisi uğrunda cəsur və məqsədyönlü mübariz kimi nəinki həmvətənləriniz arasında, həm də bütün dünyada hörmət və nüfuza sahibsiniz.

Sizi səmimi-qəlbdən təbrik edir, bütün planlarınızın soydaşlarınızın dəstəyi ilə həyata keçməsini arzulayır, Azərbaycanın rifahı naminə Sizə və komandanıza uğurlar diləyirəm.

*Hörmətlə,*

***İrina VİNER,***
***Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti***

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırırıq.

Biz Azərbaycan xalqının bu qələbə ilə bağlı sevincini və məmnunluq hissini bölüşürük. Bu, Azərbaycan xalqının Sizə və liderliyinizə olan inam və etibarının, hörmətinin göstəricisidir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan mühüm iqtisadi, sosial və siyasi məqsədlərə nail olmaqla bütün sahələrdə yüksək irəliləyişlər əldə edib.

Əminik ki, Siz ölkənizi bundan sonra da qətiyyətiniz və uzaqgörənliyinizlə idarə edərək sülh, firavanlıq və rifah şəraitində daha parlaq gələcəyə doğru aparacaqsınız. Sizə, Azərbaycan dövlətinə və xalqına uğurlar diləyir, ən xoş arzularımızı çatdırırıq.

*Dərin hörmət və səmimiyyətlə,*

***Cuzeppe KANİLİA,***
***İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri***

Hörmətli İlham Heydər oğlu.

Sizi növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Çox yüksək dövlət vəzifəsindəki fəaliyyətinizdə Sizə səmimi-qəlbdən yeni-yeni uğurlar, möhkəm cansağlığı, firavanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Sizin Azərbaycan Respublikası Prezidenti vəzifəsində fəaliyyətiniz bundan sonra da Rusiya və Azərbaycan xalqları arasında uzunəsrlik dostluğun möhkəmlənməsinə töhfələr verəcəkdir.

*Hörmətlə,*

***Yuri ŞAFRANİK,***
***Rusiyanın Ali Dağ-Mədən Şurasının sədri***

Möhtərəm cənab Prezident.

Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərin suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycanın hər yerində, o cümlədən Xankəndidə, Şuşada və digər azad edilmiş ərazilərdə keçirilməsi qardaş Azərbaycan, eləcə də Türkiyə üçün xüsusi tarixi əhəmiyyət daşıyır.

Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsidir. Azərbaycan xalqı Sizi Qarabağ Zəfərinin memarı olaraq növbəti dəfə Prezident seçməklə bütün dünyaya həmrəylik nümayiş etdirdi.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və Azərbaycanın daha da inkişafı naminə prezidentlik fəaliyyətinizdə uğurlar arzulayır, "Bir millət, iki dövlət" prinsipi əsasında birlikdə yeni və daha böyük layihələrə imza atmağınızı arzu edirəm.

*Hörmətlə,*

***Ərdal AKSOY,***
***Türkiyədə fəaliyyət göstərən "Aksoy Holding"in İdarə Heyətinin sədri***

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin Prezident vəzifəsinə seçilməyiniz sülh və əmin-amanlıq tərəfdarı olan Azərbaycan Respublikası vətəndaşlarının arzu və istəyinin nümayişidir. Bu istəyin həyata keçməsinin ilkin bəhrələri artıq hamıya məlumdur. Sizin regionda sülhün bərqərar olmasına və doğma ölkənizin ərazi bütövlüyünün bərpasına töhfəniz çox böyükdür. Bu, Azərbaycan vətəndaşlarını sevindirdiyi kimi, Gürcüstanı da sevindirir.

Gürcüstan və Azərbaycan xalqları tarixboyu dostluq və mehriban qonşuluq şəraitində yaşayıblar. Bu tendensiya xüsusən ölkələrimizin müstəqilliklərini bərpa etdikləri vaxtdan bəri daha da möhkəmlənib. Əminəm ki, Siz Prezident vəzifəsində əvvəllər olduğu kimi, bundan sonra da ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində yorulmadan səy göstərəcəksiniz.

Cənab Prezident, icazə verin, Sizə bir daha ehtiramımı ifadə edim və Azərbaycan Respublikasının Prezidenti vəzifəsində ali və məsuliyyətli fəaliyyətinizdə uğurlar diləyim.

*Dərin hörmətlə,*

***Roin METREVELİ,***
***Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

Hörmətli İlham Heydər oğlu.

Sizi seçkilərdə inamlı qələbəniz və müstəqil Azərbaycanın Prezidenti vəzifəsinə yeni müddətə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Qırğız xalqının üç oğul haqqında belə bir deyimi var: birinci oğul - adi, heç kimə ziyan vurmadan yaşayan oğuldur; ikinci oğul - ataya bərabər oğuldur, belə oğul haqqında xalq arasında deyirlər: "Əhsən, atasını pis vəziyyətdə qoymadı, heç kəsin qarşısında rüsvay etmədi"; nəhayət üçüncü oğul - atasını ötüb keçən oğuldur, belə insan haqqında "Öz xalqının oğlu" deyirlər. Mən Sizin simanızda öz xalqının oğlunu, öz xalqının istəklisini görürəm. Siz əzəli torpaqlarınızın geri qaytarılmasında cəsarət nümayiş etdirmisiniz və zəfər qazanmısınız.

Biz Sizin atanız, bütün Türk dünyasında, eləcə də bərəkətli Manas torpağında bu yaxınlarda 100 illiyi qeyd edilən, Azərbaycana öz xalqının oğlunu bəxş edən Heydər Əlirza oğlu Əliyevlə fəxr edirik.

Sizə möhkəm cansağlığı, ailə səadəti, çətin və şərəfli prezidentlik fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Temirbek TOKTOQAZİYEV,***
***Qırğızıstanın "Manasın səsi" teleradio şirkətinin direktoru, yazıçı, "Atatürk" mükafatı laureatı***

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan xalqı yenidən Sizə inam və etimad nümayiş etdirdi. İnanırıq ki, Sizin uzun illər dəstəklədiyiniz Azərbaycan və Gürcüstan xalqları arasında dostluq və əməkdaşlıq möhkəmlənməkdə davam edəcək və bu, xalqlarımızın rifahının daha da yaxşılaşmasına təkan verəcək, ölkələrimizə uğur gətirəcək.

Sizi bir daha təbrik edir və yeni-yeni nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***İrakli PETRİAŞVİLİ,***
***Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

Hörmətli cənab Prezident,

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Monreal Kanada-Azərbaycan Cəmiyyəti adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm. Bu qələbə ötən illər ərzində istər daxili, istər regional, istərsə də beynəlxalq müstəvidə həyata keçirdiyiniz uğurlu siyasətin bəhrəsidir. Azərbaycan Respublikasının öz torpaqlarını işğaldan azad etməsi və beynəlxalq arenada öz mövqeyini möhkəmləndirməsi bu uğurlu siyasətin ayrılmaz bir parçasıdır. Seçkilərdə əldə etdiyiniz qələbə Azərbaycan xalqının Sizə olan etimadının və inamının bariz nümunəsidir. Azərbaycan xalqı bir daha öz layiqli liderini yüksək səs çoxluğu ilə dəstəklədi.

Vətəndən uzaqda yaşasam da, bu seçkiləri qürur və həyəcanla izləyirdim. Sizin və ailə üzvlərinizin Xankəndi şəhərində vətəndaşlarla birgə seçki prosesində iştirakı hamımızda qürur və fərəh hissi yaşatdı.

Cənab Prezident, bir daha Sizi bu möhtəşəm qələbə münasibətilə ürəkdən təbrik edir və Prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar, yeni nailiyyətlər arzulayırıq. Biz əminik ki, ölkəmiz Sizin rəhbərliyinizlə mütərəqqi inkişaf yolu ilə irəliləyərək, dünyadakı nüfuz və etibarını möhkəmləndirəcək, yeni-yeni tarixi zəfərlər əldə edəcəkdir.

*Hörmətlə,*

***Rəna MÜSLÜMOVA,***
***Monreal Kanada-Azərbaycan Cəmiyyətinin təsisçisi və sədri***
*Kanada, Monreal şəhəri*

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan,

Kanadanın Ottava şəhərində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan dili məktəbinin həmtəsisçisi olaraq mən, Vüsalə Əhmədova cari ilin 7 fevral tarixində ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu qələbə bütün dünyada yaşayan azərbaycanlıları sevindirdiyi kimi, biz Kanada azərbaycanlılarını da ürəkdən sevindirir.

20 illik fəaliyyətiniz dövründə məhz Sizin qətiyyətli iradəniz, cəsarətli və məqsədyönlü siyasətiniz Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözükeçən dövlətə çevirmişdir. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində öz layiqli liderini dəstəklədi.

Kanadada yaşayan Azərbaycan diasporu olaraq Sizə uzun ömür, möhkəm cansağlığı və Azərbaycanımızın inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq

*Dərin hörmətlə,*

***Vüsalə ƏHMƏDOVA,***
***"Qarabağ" Azərbaycan dili məktəbinin həmtəsisçisi***
*Kanada, Ottava şəhəri*

Hörmətli cənab Prezident,

2024-cü ilin fevralın 7-si xalqımız, dövlətimiz, vətənimiz üçün çox vacib bir hadisə baş vermiş, Siz bir daha Azərbaycan Respublikasının Prezidenti seçilmişsiniz. Düşünürük ki, xalqımız vətənimiz üçün ən doğru seçimi etdi.

Xalqımızın xoşbəxtliyi bundadır ki, müstəqil olduqdan sonra güclü Lider - Ulu Öndər Heydər Əliyevin başçılığı altında inkişaf yoluna başlamış, müstəqillik həyatında çox böyük inkişafa nail olmuşdur. Ümummilli Liderin layiqli davamçısı olaraq Siz xalqımızın, dövlətimizin, Azərbaycanımızın tarixi nailiyyətlər qazanmasında misilsiz rol oynadınız. Məhz Sizin müdrik və uzaqgörən siyasətiniz, ordumuzun, igidlərimizin cəsurluğu, dönməzliyi, rəşadəti, liderlərinə olan inamı sayəsində Azərbaycan haqq mübarizəsini uğurla başa vurmuş, gücünü bütün dünyaya göstərmişdir. Bizə bu qələbəni, qüruru və xoşbəxtliyi yaşatdığı üçün bir daha şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayır və Qalib sərkərdəmizə - Sizə dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, bu gündən sonra da Siz bu uğurları, nailiyyətləri davam etdirəcəksiniz.

Cənab Prezident, növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi Münxen Azərbaycanlıları olaraq ürəkdən təbrik edir, bu çətin vəzifənizdə uğurlar arzulayırıq. Hər zaman Azərbaycan xalqı olaraq arxanızdayıq.

*Hörmətlə,*

***Səttar KƏRİMOV,***
***Almaniyada fəaliyyət göstərən Münxen Azərbaycanlıları Mədəniyyət Mərkəzinin və Azərbaycan Evinin rəhbəri***
*Münxen, Almaniya*

Hörmətli cənab Prezident,

Çox böyük qürur hissi ilə Alman-Azərbaycan Mədəniyyət Evinin çoxsaylı üzvləri və şəxsən öz adımdan Sizi fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibəti ilə təbrik edirəm. Ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra seçkilərin keçirilməsi çox önəmli idi.

Bu seçkilər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, o cümlədən Almaniyadakı həmvətənlərimizin birlik təntənəsi oldu. Azərbaycan xalqı seçkilərdə layiqli Lider olaraq Sizi Prezident seçdi. Ümumi olaraq dünya azərbaycanlıları Sizə etimadını göstərdi.

Cənab Prezident, Almaniyadakı azərbaycanlılar olaraq Sizinlə hər zaman fəxr edirik. Sizə ali dövlət fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Ağa AĞAYEV,***
***Alman-Azərbaycan Mədəniyyət Evinin sədri***
*Almaniya Federativ Respublikası, Köln şəhəri*

# İtaliya Prezidenti Sercio Mattarella seçkilərdə inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib



**İtaliya Respublikasının Prezidenti Sercio Mattarella seçkilərdə inamlı qələbəsi münasibətilə Prezident İlham Əliyevi təbrik edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına səmimi təbriklərini və ali mandatının icrasında xoş arzularını çatdıran Sercio Mattarella məktubunda bildirib: "Roma və Bakı dərin dostluq və qarşılıqlı əməkdaşlıq sahələrinin getdikcə daha da genişləndirilməsinə yönəlmiş, ümumi öhdəliklə möhkəmləndirilmiş həqiqətən də strateji və çoxşaxəli tərəfdaşlığa malikdir.

İnanıram ki, kəskin şəkildə şiddətli münaqişələr və narahatedici gərginliklə səciyyələnən bir mərhələdə prinsipial əhəmiyyətə malik kəsişmə nöqtəsi olan bütün Qafqaz regionu üçün sülh, sabitlik və firavanlıq perspektivlərinin təşviqi üzrə birgə işi davam etdirə biləcəyik".

Sercio Mattarella qeyd edib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında konstruktiv etimadın, əməkdaşlıq əlaqələrinin inkişafı bu yolun tərkib hissəsidir və İtaliya bunun üçün hərtərəfli dəstəyini əsirgəməyəcək.

# *Klaus Verner İOHANNİS:* "Azərbaycan Rumıniya üçün Cənubi Qafqazda strateji, yaxın və etibarlı tərəfdaşdır"



Rumıniya Prezidenti Klaus Verner İohannis növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

AZƏRTAC xəbər verir ki, Rumıniya Prezidenti təbrik məktubunda qeyd edib: "Rumıniya ilə Azərbaycan arasında həm ikitərəfli, həm də regional miqyasda davam edən çoxsaylı layihələr qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda strateji, yaxın və etibarlı tərəfdaşdır".

Rumıniyanın iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə və dərinləşməsinə sadiqliyini bir daha təsdiqlədiyini vurğulayan Klaus Verner İohannis bildirib: "Rumıniya və Azərbaycanın davamlı səylərlə enerji, nəqliyyat, təhsil, ticarət və investisiyalar kimi xüsusi önəm daşıyan sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi imkanlarından tam yararlanacağına əminəm.

Eyni zamanda Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasındakı dialoqun davamlı və hərtərəfli inkişafı üçün fəaliyyətini davam etdirəcəkdir".

Sonra Prezident İohannis ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirmək məqsədilə dövlətimizin başçısını bu il Rumıniyaya rəsmi səfərə dəvət edib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində qələbəniz münasibətilə təşkilatımız adından ən səmimi təbriklərimi çatdırıram. Sizin uğurunuz Azərbaycan xalqının Sizə olan inamını və etimadını əks etdirir.

Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da tərəqqi və uğur qazanacaqdır. Qoy idarəçiliyiniz sülh, firavanlıq və Azərbaycan xalqı üçün davamlı uğurlarla yadda qalsın!

Cənab Prezident, Azərbaycanda Paralimpiya hərəkatına göstərdiyiniz davamlı dəstəyə görə Sizə səmimi minnətdarlığımızı bildiririk. Beynəlxalq idman təşkilatı olaraq Paralimpiya ruhunun çiçəkləndiyi mühiti inkişaf etdirmək üçün göstərdiyiniz fədakarlığa görə Sizə təşəkkür edirik.

*Hörmətlə,*

***İlqar RƏHİMOV,***
***Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının prezidenti***

*Almaniya Federativ Respublikası, Bonn şəhəri*

Möhtərəm cənab Prezident,

İsveçdə fəaliyyət göstərən "Stokholm Azərbaycan Mədəniyyət Mərkəzi" və "Beynəlxalq Media Qrupu" təşkilatlarının nümayəndələri və eləcə də Skandinaviya Azərbaycan Koordinasiya Şurasının üzvləri və Azərbaycan diasporunun fəalları olaraq, ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində Sizin parlaq qələbənizi ürəkdən təbrik edirik.

Cənab Prezident, ölkəmizə rəhbərlik etdiyiniz dövrdə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində bütün sahələrdə tərəqqi, inkişaf hiss olunur. Bu gün xaricdə yaşayan biz azərbaycanlılar hər zaman ölkəmizin uğurlarını görəndə ürəyimiz fərəhlə dağa dönür.

Məhz Sizin Ali Baş Komandanı olduğunuz ordumuzun sayəsində ilk dəfə prezident seçkiləri ölkənin hər yerində keçirildi. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

Dünya azərbaycanlıları Sizi seçməklə xalqımızın, eləcə də region xalqlarının təhlükəsizliyinə, ölkəmizin bütövlüyü və suverenliyinə, eyni zamanda dövlətimizin qüdrətli gələcəyinə səs verdilər.

Sizə və ailənizə, doğmalarınıza uzun ömür və möhkəm cansağlığı və dövlətimizin daha da inkişafı yolunda gördüyünüz işlərdə böyük uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Rahim SADIQBƏYLİ,***
***"Stokholm Azərbaycan Media Mərkəzi" və "Beynəlxalq Media Qrupu"nun sədri, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının üzvü, kinorejissor***

*İsveç Krallığı, Stokholm şəhəri*

Hörmətli cənab Prezident,

Bu əlamətdar, tarixi önəm daşıyan, növbədənkənar prezident seçkilərində qazandığınız Qələbə münasibəti ilə, mən Sizi və bütöv Azərbaycan xalqını təbrik etməkdən çox xoşbəxtəm. "Fəzilətlərin ən üstünü ədalətdir" - Siseron ədalətin mahiyyətini bu qısa sitat ilə izah edə bildi. Otuz iztirablı il ərzində Azərbaycan xalqı bütün ümidlərini bu ali fəzilətlərə bağlamış, beynəlxalq təşkilatlardan Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasını gözləyirdi. Lakin təəssüf ki, biz bu ədaləti görmədik.

Cənab Prezident, 44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmizdən sonra, Azərbaycan torpaqlarının tamamilə işğaldan azad edilməsi, Azərbaycan vətəndaşlarının pozulmuş hüquqlarının bərpası ilə yaşanan ədalət təntənəsi hər kəsə birmənalı nümayiş etdirdi ki, ölkəni və xalqımızı ancaq Sizə əmanət etmək olar. Səmimi-qəlbdən, Sizə möhkəm cansağlığı və sabit, demokratik, xalq və prezident arasında mövcud birlik və sevgidə bənzərsiz olan Vətənimiz üçün davam etdiyiniz zəfər yolunda Sizə uğurlar arzulayıram.

Fürsətdən istifadə edib, öz hörmət və ehtiramımı bir daha izhar edirəm.

***Leyla BEGİM,***
***"Natəvan" Cəmiyyətinin sədri, şair, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

*Çex Respublikası, Praqa şəhəri*

Hörmətli cənab Prezident.

Mən İsveçrənin Cenevrə şəhərində yaşayan azərbaycanlı olaraq həm öz adımdan, həm də doğma Gəncəmdə yaşayan ailəmin adından seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Uzaqlarda yaşasam da, ürəyim Azərbaycanla birgə döyünür. Biz xoşbəxtik ki, Siz bizim Prezidentimizsiniz.

Mən, Gəncədə yaşayan ailə üzvlərim və dostlarım müharibə vaxtı bütün çətinliklərə sinə gərmişik. Bir Allaha, bir də Sizə inamımız sarsılmaz idi.

Uca Tanrı Sizə möhkəm cansağlığı versin və bu çətin işinizdə kömək olsun! Biz həmişə Sizi dəstəkləyirik.

*Hörmətlə,*

***Mariya Xan-Xoyskaya MARTİNYOLİ və həyat yoldaşı, İnga XAN-XOYSKAYA və Tamara XAN-XOYSKAYA, Gəncədə yaşayan anası və bacısı***

***İsveçrə, Cenevrə şəhəri***

Çox hörmətli cənab Prezident,

Dağıstan Respublikasının Dərbənd şəhərindəki Azərbaycan Dövlət Dram Teatrının rəhbərliyi və kollektivi Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərindəki layiqli qələbəniz münasibətilə ürəkdən təbrik edir.

Seçkilərdə inamlı qələbəniz münasibətilə ən xoş və səmimi diləklərimizi ifadə edirik. Bu şərəfli vəzifəyə yenidən seçilməniz xalqın Sizə olan böyük etimadının və dünyada yüksək nüfuzunuzun göstəricisidir.

Dağıstanda yaşayan azərbaycanlılar, o cümlədən yaradıcı insanlar, incəsənət nümayəndələri hər zaman Sizin böyük nüfuzunuzla qürur duyuruq. Sizin fəaliyyətiniz gələcəkdə də Azərbaycan, Rusiya və Dağıstan arasında münasibətlərin daha yüksək səviyyədə olacağına inam yaradır. Əminik ki, bütün bunlar qardaş xalqlarımızın mənafeyi naminədir.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizin yeni dönəmində böyük uğurlar, Azərbaycan xalqına isə sülh, rifah və davamlı firavanlıq arzulayırıq.

Hörmətlə,

***Firdovsi ƏSGƏROV,***
***Dağıstan Respublikasının Əməkdar mədəniyyət işçisi, Dərbənd şəhərindəki Azərbaycan Dövlət Dram Teatrının direktoru***

*Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri*

Hörmətli cənab Prezident.

Xantı-Mansiysk muxtar dairəsi Yuqrada yaşayan azərbaycanlıların adından Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi ürəkdən təbrik etdiyimə görə böyük sevinc hissi keçirirəm.

Azərbaycanın suverenliyinin bərpasından sonra ilk dəfə Qarabağ iqtisadi rayonu da daxil olmaqla ölkənin bütün bölgələrində keçirilən seçkilərdə inamlı qələbəniz, şübhəsiz ki, xalqın Sizin müdrik rəhbərliyinizlə əldə edilmiş uğurları davam etdirmək niyyətinin əyani təsdiqidir.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, bütün sahələrdə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin, Azərbaycan və Rusiya Federasiyası xalqları üçün rifah və firavanlığın yeni üfüqlərinin açılmasının vacibliyini vurğulamaq istərdim.

Siz Azərbaycanın inkişafına, xalqın rifahına yönəlmiş balanslaşdırılmış siyasət aparan müdrik dövlət başçısı, əsl vətənpərvərsiniz. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası demokratik dövlət quruculuğu, sabit iqtisadi və sosial inkişaf yolu ilə inamla irəliləyəcək. Sizin yorulmaz zəhmətiniz və xalqın inamı vətəndaşların güzəranının daha da firavan olması üçün həyata keçirdiyiniz şərəfli fəaliyyətinizdə uğurlarınızı daha da artıracaqdır.

Sizə və əzizlərinizə möhkəm cansağlığı, səadət və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Xəyal İSMAYILOV,***
***Xantı-Mansiysk muxtar dairəsi Yuqrada fəaliyyət göstərən Azərbaycan xalqının "Dostluq" ictimai milli-mədəni təşkilatının sədri.***

*Rusiya Federasiyası, Koqalım şəhəri*

Hörmətli cənab Prezident,

Sizi növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qazaxıstan Azərbaycanlıları Birliyi adından səmimi-qəlbdən təbrik edir, Azərbaycanın inkişafı və rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar və qələbələr arzulayıram.

2024-cü il fevralın 7-də keçirilən tarixi prezident seçkilərində Sizin qələbə qazanmağınız Azərbaycan xalqının öz rəhbərinə etimadını və səmimi vətəndaş sevgisini bir daha əyani şəkildə göstərdi.

Bütün ölkə ərazisini əhatə edən prezident seçkilərində tarixi missiya ilə ölkənin bütövlüyünü və firavanlığını təmin etmiş Liderinə səs verməklə sarsılmaz birlik və həmrəylik nümunəsi göstərən Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Əbilfəs HAMEDOV,***
***Qazaxıstan Azərbaycanlıları Birliyinin prezidenti***

***Qazaxıstan Respublikası***

Hörmətli cənab Prezident,

"Azərbaycan" Milli-Mədəni Cəmiyyətinin üzvləri adından Sizi 2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə təbrik edirəm.

Sizin inamlı qələbəniz Azərbaycan xalqına xidmətinizə və fədakarlığınıza verilən qiymətlə yanaşı, Azərbaycan xalqının Sizə göstərdiyi qeyd-şərtsiz dəstəyi və etimadı ifadə edir. Rusiya Federasiyasının Həştərxan vilayətinin "Azərbaycan" Cəmiyyəti ölkəmizdə keçirilən prezident seçkilərini diqqətlə izləyərkən məhz bu qənaətə əmin olub.

Sizin rəhbərliyinizlə respublikada həyata keçirilən islahatlar və əldə olunan nailiyyətlər Azərbaycanın sabit inkişafına, ölkənin həyat və fəaliyyətinin bütün sahələrində mühüm uğurların əldə olunmasına, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə zəmin olub.

Ölkəmiz Ali Baş Komandan kimi Sizin qətiyyətli fəaliyyətiniz nəticəsində ərazi bütövlüyünü bərpa etdi. Bu, Azərbaycan xalqı üçün tarixi hadisə oldu. Bundan əlavə, Siz Qarabağın işğaldan azad edilmiş ərazilərinin bərpasına və inkişafına böyük diqqət yetirirsiniz, infrastrukturun bərpası, yeni yolların, məktəblərin, xəstəxanaların və digər obyektlərin tikintisinə, eləcə də xalqımızın mədəni-tarixi irsinin qorunub saxlanılmasına yönəlmiş genişmiqyaslı layihələr həyata keçirirsiniz.

Sevindirici haldır ki, Azərbaycanla Rusiya arasında, iki dövlətin başçıları arasında qarşılıqlı hörmət, anlayış və dəstəyə əsaslanan etibarlı münasibətlər qurulub. Rus və Azərbaycan xalqları arasında münasibətlər uzun tarixə malikdir və zamanın sınağından çıxmışdır. İki xalq arasında dostluq körpüləri möhkəm və sarsılmazdır. Onlar ümumi mədəni və tarixi dəyərlər, eləcə də sıx iqtisadi və siyasi əlaqələr üzərində qurulub.

Əminəm ki, Siz bundan sonra da Rusiya ilə strateji tərəfdaşlığın möhkəmləndirilməsi, regionda və beynəlxalq aləmdə sülhə və sabitliyə nail olmaq, Azərbaycanın inkişafı və çiçəklənməsi üçün bütün səylərinizi əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı, səadət və xalqımızın rifahı naminə gələcək fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vahid RƏHIMOV,***
***"Azərbaycan" Milli-Mədəni Cəmiyyətinin sədri***

*Rusiya Federasiyası, Həştərxan şəhəri*

Hörmətli cənab Prezident,

Böyük sevinc və qürur hissi ilə Sizi Rusiyanın Primorye vilayətində yaşayan bütün azərbaycanlılar, o cümlədən "Dostluq" Azərbaycan diaspor cəmiyyətinin üzvləri adından seçkilərdə növbəti inamlı qələbəniz və yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edirik. Bu qələbə xalqın etimadının təsdiqi və hər zaman ölkə vətəndaşlarının rifahı naminə mühüm qərarlar qəbul edən liderlik qabiliyyətinizə inamdır.

Sizin qələbəniz xalqın yaşadığı fərəh, sevinc, ölkəmiz üçün daha yaxşı gələcəyə ümid hisslərini əks etdirir. Sizin strateji liderlik qabiliyyətiniz, müdrik siyasətiniz, fədakarlığınız, ali məqsədlərə çatmaq əzminiz xalqın düzgün seçim etməsinə zəmin oldu.

Əminik ki, Sizin rəhbərliyinizlə ölkəmiz daha da güclənəcək, çiçəklənəcək, xalqımız ətrafınızda daha sıx birləşəcək. İnanırıq ki, Siz bundan sonra da ədalət uğrunda mübarizənizi davam etdirəcək, iqtisadi vəziyyətin yaxşılaşdırılması, infrastrukturun inkişafı və bütün vətəndaşların rifahı və firavanlığı üçün çalışacaqsınız.

Sizə hərtərəfli fəaliyyətinizdə uğurlar, əzmkarlıq və məqsədlərinizə çatmaqda qətiyyət arzulayırıq. Qoy Sizin liderliyiniz hamı üçün ilham mənbəyi olsun və Vətənimizi daha qüdrətli ölkəyə çevirməyə xidmət etsin.

*Ən xoş arzularla,*

***Ramiz ZEYNALOV,***
***Rusiyanın Primorye vilayətində "Dostluq" Azərbaycan diaspor cəmiyyətinin sədri***

*Rusiya Federasiyası, Primorye vilayəti, Vladivostok şəhəri*

# Milli Məclisdə vətəndaş qəbulu keçirilib



Fevralın 12-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev qəbul qrafikinə uyğun olaraq Milli Məclisdə növbəti dəfə şəhid ailələrinin, qazilərin, habelə müraciət edən seçicilərinin qəbulunu keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılmış müxtəlif məzmunlu sosial, humanitar, təhsil kimi müraciətlərin bir qismi vitse-spiker tərəfindən yerindəcə həll olunub. Digər müraciətlərin həlli məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarına aidiyyəti üzrə məktublar göndərilib, araşdırılması vaxt tələb edən müraciətlərin hər biri nəzarətə götürülməklə, onların da həlli istiqamətində müvafiq addımlar atılır.

Eləcə də, qəbul zamanı müraciət edən vətəndaşlara mövcud qanunvericiliyin tələblərinə dair hüquqi izahlar verilib. Vitse-spiker bildirib ki, ünvanına daxil olan vətəndaş müraciətlərinin hər birinin həlli məqsədilə qanunvericiliyin tələblərinə uyğun olaraq aidiyyəti üzrə bütün addımlar atılır.

Qəbul zamanı vətəndaşlar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin seçicilərin mütləq əksəriyyətinin səs çoxluğu ilə təkrar dövlət başçısı seçilməsindən məmnunluqlarını ifadə edərək, sevinclərini bölüşüblər.

***"Azərbaycan"***

# Məişət zorakılığının qarşısının alınması ilə bağlı qanunvericilik təkmilləşdirilir

Fevralın 12-də Milli Məclisin Elm və təhsil komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Bəxtiyar Əliyev iclası açaraq bildirib ki, fevralın 11-də Mərkəzi Seçki Komissiyası ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərinin nəticələrini təsdiq edib.



Komitə sədri mötəbər beynəlxalq təşkilatların, bir çox dünya ölkələrinin müşahidəçilərinin iştirak etdiyi seçkilərdə İlham Əliyevin seçicilərin 92,12 faiz səsini qazanaraq, yenidən prezident vəzifəsinə seçildiyini vurğulayıb. O qeyd edib ki, ölkəmizdə keçirilən azad, demokratik, şəffaf seçkilərdə Azərbaycan xalqı sərbəst şəkildə öz iradəsini ifadə edərək, ölkəmizin xoşbəxt gələcəyinə, müstəqil, qüdrətli dövlət kimi inkişafına səs verib.

Sonra Bəxtiyar Əliyev bildirib ki, iclasın gündəliyinə bir məsələ - Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda daxil edilib.

Qanun layihəsi məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə hazırlanıb.

Bəxtiyar Əliyev diqqətə çatdırıb ki, sənəddə "Təhsil haqqında" Qanuna 11.3-2-ci maddənin əlavə edilməsi təklif olunur. Əlavəyə əsasən, ümumi, peşə, orta ixtisas və ali təhsil pillələrində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla, qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərlə bağlı mövzular daxil edilir.

Qanun layihəsi üçüncü oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Səfir Leyla Abdullayeva etimadnaməsini Monako Şahzadəsi II Albertə təqdim edib

Azərbaycanın Fransada, eləcə də Monako Knyazlığındakı səfiri Leyla Abdullayeva etimadnaməsini Monakonun Şahzadəsi II Albertə təqdim edib.

AZƏRTAC xəbər verir ki, səfir Leyla Abdullayeva Prezident İlham Əliyevin salamlarını Şahzadə II Albertə çatdırıb. Həmçinin Azərbaycanın öz ərazilərini işğaldan azad etdikdən sonra ölkədə həyata keçirilən quruculuq işləri və inkişaf strategiyası ilə bağlı Monako Şahzadəsini məlumatlandırıb. Səfir ikitərəfli əlaqələrə toxunaraq, ölkəmizin münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu deyib və bu istiqamətdə böyük potensialın mövcudluğunu vurğulayıb.

Görüşdə gələcəkdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Monako Şahzadəsi II Albert səmimi salamlarını, dostluq münasibətini və xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. O, iki ölkə arasında əlaqələrin inkişafının intensivləşdirilməsində maraqlı olduğunu söyləyib.

# Ermənistan tərəfinin təxribatı sülh prosesinə ciddi zərbədir

Fevralın 12-də Ermənistan Silahlı Qüvvələrinin növbəti hərbi təxribatı nəticəsində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb. Ermənistan tərəfinin bu təxribatı Azərbaycan-Ermənistan arasında sülh prosesinə ciddi zərbədir.

Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, son 4-5 ay ərzində sabitliyin hökm sürdüyü bir mühitdə bu kimi təhrikedici əməllər Ermənistan tərəfindən bəyan olunan sülh mesajları ilə açıq-aşkar ziddiyyət təşkil edir.

Eyni zamanda bu kimi təxribatın məhz Ermənistandakı Avropa İttifaqı Missiyasının müşahidə həyata keçirdiyi ərazidən baş verməsi bu missiyanın məqsəd və məramlarına dair ciddi suallar yaradır.

Azərbaycana qarşı baş verən bu kimi təxribatlara görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır.

# Beynəlxalq müşahidəçilər Azərbaycanda milli birliyə şahidlik etdilər

**"Prezident seçkilərinin uğurla başa çatması nəinki ölkəmizdə, bütövlükdə regionda azad, demokratik seçki ənənələrinə mühüm töhfə oldu. Konstitusiyanın 54-56 və 71-ci maddələrinə müvafiq olaraq, Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak, dövlətin idarə olunmasında iştirak, dövlət orqanlarına seçmək və seçilmək hüququna təminat verilir. 7 fevral seçkilərinin ilk xarakterik göstəricilərindən biri Konstitusiyada təsbit edilmiş bu hüquqları gözləmək və qorumaq üçün bütün aidiyyəti orqanların səfərbər edilməsi oldu".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, prezident seçkilərinə hazırlıq, seçki prosesi, səslərin hesablanması, səsvermənin yekunlarının müəyyən edilməsinin açıq və aşkar həyata keçirilməsi prosedurlarında heç bir əngəl, yaxud narahatlıq doğuran məqamlar müşahidə olunmayıb. Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq, prezident seçkilərinin təşkili və keçirilməsi tam, bərabər və qərəzsiz, tətbiq olunan qanunlara əsaslanaraq realizə olundu, qanun çərçivəsində hər bir siyasi partiyaya, namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət təmin edildi. Həmçinin qanun əsasında seçicilərə, seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslərə sənədlərlə və məlumatlarla tanış olmaq üçün hər bir şəraitin yaradılması, birmənalı və aydın anlaşılmaqla müntəzəm xarakterli kommunikasiya imkanı təmin olundu. Eyni zamanda seçicilərin seçkilərdə iştirakı üçün Seçki Məcəlləsinə müvafiq olaraq bütün tədbirlər öncədən görüldü, o cümlədən inklüzivliyin təmini üçün xüsusi şəraitin yaradılması, həssas təbəqədən olan şəxslərin, habelə uzaq və ya yolu çətin olan yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanlar yaradıldı. Seçicilər, qeydə alınmış namizədlər, siyasi partiyalar və müşahidəçilər üçün istənilən pozuntu ilə bağlı işlək, aşkar, səmərəli və çatımlı şikayət mexanizmləri təmin olundu.

Deputat bildirib ki, seçkilərdə rahat fəaliyyətləri üçün hər bir şəraitlə təmin olunmuş beynəlxalq müşahidəçilər də proseslərin gedişatını maneəsiz izləmək imkanında idilər. "Sağlam məqsədlər güdən hər bir müşahidəçi aydın formada şahidlik etdi ki, Seçki Məcəlləsinin tələbləri və beynəlxalq standartlar tam formada təmin olunur. Mətbuat azadlığına hörmət bəslənməsi, öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə hər hansı maneəyə yol verilməməsi, namizədlərin kampaniyalarına müdaxilə edilməməsi, seçkiqabağı təşviqat materiallarının sərbəst yayılması, seçicilərin öz iradəsini azad və sərbəst bildirməsi, seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxiləyə yol verilməməsi seçkilərdə demokratiyanın təntənəsi idi. Əsas məqsədi seçki prosesini sağlam formada müşahidə etmək olan beynəlxalq müşahidəçilər də, təbii ki, bu proseslərə adekvat reaksiya verdilər. "Exit-poll"un nəticələrinin açıqlanmasının ardınca beynəlxalq müşahidəçilərin də rəyləri səslənməyə başlandı", - deyə o əlavə edib.

B.Məhərrəmov vurğulayıb ki, müşahidələrdə qarşıya qoyulan yeganə məqsəd seçkilərin azad və demokratik şəraitdə keçirilməsinə, xalqın iradəsinin ifadəsinin sərbəst formada reallaşmasına nail olmaqdır. 7 fevral seçkilərində seçki hüququna malik 80 faizə yaxın vətəndaşın aktivlik göstərməsi, seçkilərin nəticələrinə görə İlham Əliyevin 92 faizdən artıq səs toplaması göstərdi ki, xalqımız bu seçkiyə həm də milli məsələ kimi yanaşırmış.

Deputat qeyd edib ki, Azərbaycan xalqı 7 fevralda ölkədə milli iradədən daha qüdrətli heç nəyin olmadığını nümayiş etdirdi: "Xalqımız milli iradənin yalnız İlham Əliyevin təmsil edə biləcəyinə əmindir. Azərbaycan xalqı Vətən müharibəsində olduğu kimi, prezident seçkilərində də birlik, bərabərlik, həmrəylik göstərməklə, əslində, istənilən təhdidin qarşısında qırılmaz milli əzmin dayanacağını, milli iradənin Heydər Əliyev kursu və şəxsən cənab İlham Əliyev tərəfindən təmsil olunacağı dövrdə xalqın heç bir təhdidə boyun əyməyəcəyini bəyan etmiş oldu".

O bildirib ki, dünyanın nəhəng gücləri, əsas qlobal oyunçular olan Çin, Rusiya, Türkiyə, bütövlükdə türk dünyası və digər çoxsaylı nüfuzlu siyasətçilərin cənab İlham Əliyevi elə ilk 12 saat ərzində təbrik etməsi beynəlxalq aləmin Azərbaycan xalqının milli iradəsinə hörmətlə yanaşdığını və hesablaşdığını göstərir. Bütün bu amillərə, beynəlxalq müşahidəçilər də şahidlik etdi, açıqlanan rəylər bu mənada adekvat və qərəzsiz oldu: "Təbii ki, məqsədi seçkiləri müşahidə etmək deyil, təxribatçılıq olan, hazır direktivlərə malik qüvvələrin sədalarını da eşitdik, lakin milli iradənin, xalqın Heydər Əliyev siyasi kursuna sağlam, qüvvətli və dayanıqlı dəstəyinin qarşısında bu səslər eşidilməzdir. İstər beynəlxalq standartlarla, istərsə də milli qanunvericiliklə seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə, milli iradənin suverenliyinə hörmətlə yanaşılması hər kəsin borcudur".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# HALAL QƏLƏBƏ

## Zəfər seçkiləri İlham Əliyevin xalq tərəfindən Xilaskar Lider kimi qəbul edildiyini bir daha təsdiqlədi

*Əvvəli 1-ci səh.*



Son 20 il ərzində ümumi daxili məhsul dörd dəfə, dövlət büdcəsinin gəlirləri 30 dəfədən çox, xarici ticarət dövriyyəsi isə on dəfədən çox artdı. Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın olsa da, hazırda bu göstərici ölkədə 5,5 faiz təşkil edir. Son 20 ildir ki, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edən ölkələrin cərgəsindədir.

İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verdi.

Diplomatik məharəti hesabına İlham Əliyevin son 20 il ərzində ölkəmizin, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində etdiyi çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Azərbayan Avropanın enerji xəritəsini dəyişdi və bu gün qüdrətli dövlət kimi mühüm transmilli layihələr reallaşdırmaqla nüfuzunu gündən-günə yüksəldir.

İlham Əliyev atasının yolu ilə addımlayaraq uca şəxsiyyətin yarımçıq qalan taleyüklü işlərini, planlarını gerçəkləşdirmək istiqamətində misilsiz işlər gördü. 2020-ci ildə Ali Baş Komandan İlham Əliyev həm də adını Azərbaycan tarixinə Zəfər sərkərdəsi kimi yazdırdı. 2023-cü ildə isə 200 illik erməni xülyasını birdəfəlik məhv etdi.

Əminliklə deyə bilərik ki, İlham Əliyevin prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Azərbaycanın bütün sahələrdə qazandığı bu misilsiz uğurlar İlham Əliyevin tam müstəqil siyasətinin təntənəsidir. Çünki dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 20 il ərzində Azərbaycan xalqı həmişə prezidentinə güvənib, ona ən güclü dayaq olub. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Avtandil OTİNAŞVİLİ: "Azərbaycanda keçirilən prezident seçkiləri şəffaflığı və demokratikliyi ilə hamıya nümunədir"

"Fevralın 7-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri şəffaflığı, azad və demokratikliyi ilə hamıya nümunə oldu. Səsvermə günü yaşından, cinsindən və sosial vəziyyətindən asılı olmayaraq, seçicilərin səs vermək üçün məntəqələrdə növbəyə durmaları bir müşahidəçi kimi məni heyrətə gətirmişdi. Mən müxtəlif ölkələrdə prezident və parlament seçkilərini izləmişəm. Tam məsuliyyətimlə deyirəm ki, fevralın 7-də Azərbaycanda gördüyüm seçici fəallığını heç bir yerdə görməmişdim".

Bu sözləri AZƏRTAC-a müsahibəsində növbədənkənar prezident seçkilərini beynəlxalq müşahidəçi kimi izləyən Gürcüstanın "newsday.ge" informasiya portalının baş direktoru, politoloq Avtandil Otinaşvili söyləyib.

A.Otinaşvili digər həmkarları ilə Bakıda çoxlu sayda məntəqədə səsvermənin gedişatını izlədiyini deyib. Bildirib ki, səsvermə günü yerli və beynəlxalq müşahidəçilər üçün çox yaxşı şərait yaradılmışdı. Onlar məntəqələrə daxil olduqda səmimiyyətlə qarşılanıb, qeydiyyata alınıblar. Hər yerdə, bütün hallarda qanunun aliliyi qorunurdu.

"Seçkilər çox yüksək səviyyədə təşkil olunmuşdu. Hər bir məntəqədə səsvermə qanunun aliliyi rəhbər tutularaq keçirilirdi. Şəffaflıq, azad və demokratik şərait, ən başlıcası, seçici fəallığı çox yüksək səviyyədə idi. Səsvermənin gedişini izləyən çoxsaylı müşahidəçilərin böyük əksəriyyəti, hətta mən deyərdim ki, hamısı bu fikirdədir.




Müşahidəçiləri ən çox valeh edən məsələlərdən biri seçicilərin səsvermədə yüksək fəallıq və əhvali-ruhiyyə ilə iştirak etmələri oldu. Yaşlı insanlar, hamilə qadınlar növbəyə dururdular. Bu cür seçici fəallığı çox az ölkədə ola bilər. Bir sözlə, Azərbaycan seçkiləri yüksək səviyyədə, qanunun aliliyinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, azad, demokratik və şəffaf təşkil etməklə dünyada nümunə oldu", - deyə Otinaşvili vurğulayıb.

Politoloq Bakının gözəlliyi barədə xüsusi danışıb. O bildirib: "Bakının gözəlliyi bizi bir ayrı valeh etdi. Mən əvvəllər də Bakıda olmuşdum. Amma son illər ərzində Bakı çox dəyişib, gözəlləşib. Şəhər yenilənib, əsl mədəniyyət mərkəzinə çevrilib. İnsanların qonaqpərvərliyi, gülərüz olmaları, səmimiliyi bu gözəlliyi daha da artırır. Düşünürəm ki, əhalinin rifah halının yaxşı olması da onların seçkilərdə fəallığının artmasına səbəb olub. İnsanlar onlara yaradılan şəraiti bu cür qiymətləndirirlər. Bu şəraiti yaradan dövlət başçısına isə bu cür münasibət bildirirlər. Hər halda, mən belə düşünürəm".

Politoloq səfəri zamanı Azərbaycan mətbəxinin ləziz təamlarından da dadıb. O bununla bağlı qeyd edib: "Azərbaycan mətbəxi çox zəngindir. Bir yeməyin bir neçə növü var, hamısı da ləziz və dadlı. Yeməkdən doymaq olmur. Çay süfrələrində limon, mürəbbə, şəkərbura, paxlava isə öz yerində".

Onun sözlərinə görə, Azərbaycan 44 günlük Qarabağ müharibəsində qələbə qazandıqdan sonra ilk dəfədir ki, seçkilər ölkənin bütün suveren ərazisində keçirilib. Bu da insanların əhvali-ruhiyyəsinə müsbət təsirini göstərib.

Politoloq hesab edir ki, Azərbaycan təkcə hərb meydanında deyil, sosial-iqtisadi, mədəni və humanitar sahələrdə də mühüm nailiyyətlər qazanıb. Bu da əhalinin dövlətə, dövlət başçısına olan inamını, etibarını artırıb.

O bildirib ki, seçkilərdə İlham Əliyevin qələbəsi real qələbə oldu. İlham Əliyev insanların gözündə praqmatik siyasi xadim, böyük və qalib sərkərdədir. Xalqı məhz İlham Əliyev daha parlaq və xoş gələcəyə apara bilər. İnsanlar buna inanırlar və öz liderlərini sevirlər. Bu isə qələbə üçün ən böyük şərtdir.

"Bu cür birliyi olan millət və dövlət heç zaman əyilməz, məğlub olmaz. Azərbaycan dövləti bu birlik sayəsində daha da möhkəmlənəcək. Bu gün Cənubi Qafqazda lider olan Azərbaycan yaxın gələcəkdə dünyada lider dövlətlər sırasında olacaq. Mən Azərbaycan xalqına daha böyük uğurlar, əmin-amanlıq və hamımıza sülh arzulayıram", - deyə Avtandil Otinaşvili vurğulayıb.

# Qarşıda Azərbaycanı daha güclü inkişaf gözləyir

**"Fevralın 7-də xalqımız Zəfərə, Qalib Liderə, ölkənin sabitliyinə, inkişafına və güclənməsinə səs verdi. Prezident İlham Əliyevin 92,12 faiz səslə yenidən etimad qazanması xalqımızın dövlət başçısına olan inamından, etibarından və məhəbbətindən irəli gəlir. Bu da təsadüfi deyil, Azərbaycan dövlətinin 105 illik tarixində ən şanlı və şərəfli səhifələr İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi illərdə yazılıb".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat xatırladıb ki, AXC dövründə, sovetlər ittifaqının tərkibində yaşadığımız illərdə torpaqlarımız müxtəlif adlar altında hissə-hissə qoparılaraq Ermənistana birləşdirilib. 1924-cü ildə torpaqlarımızda erməni separatçılarının yuvasını yaradıblar. 1990-cı illərin əvvəllərində isə Ermənistanın himayədarlarının dəstəyi ilə torpaqlarımızın 20 faizini işğal edib. Bu, onları daha da azğınlaşdırıb və yeni ərazilər uğrunda müharibəyə həvəsləndirib. Amma Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan inkişaf edərək güclənib və düşmənlərin xəyallarına və arzularına nöqtə qoyulub. O cümlədən 2023-cü ilin sentyabrın 19-20-də Qarabağda uzun illər qara yara kimi xalqımıza ağrı verən erməni separatçılarının yuvası məhv edilərək Xankəndidə üçrəngli dövlət bayrağımız dalğalandırılıb".

Belə qəhrəmanlıq dastanının hər xalqa qismət olmadığını vurğulayan Azər Badamov əlavə edib: "İnsanlarımız bu gün qürurludur. Fevralın 7-də böyük aktivlik nümayiş etdirərək öz aydın gələcəyini seçən Azərbaycan xalqı xoşbəxtdir. Bunun digər səbəbi müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ərazilərimizdə seçkilərin keçirilməsinə, konstitusion hüquqlarımızın bərpasına nail olmağımızdır. Xalqımızın öz liderinin yanında olduğunu yüksək göstəricilərlə nümayiş etdirməsi həm də xarici və daxili düşmənlərimizə verilən cavabdır".

Deputat həmçinin seçkilərdə azad seçim üçün lazım olan bütün şəraitin dövlət tərəfindən yaradılmasını da qeyd edib. Bildirib ki, fevralın 7-də seçicilər məntəqələrə axın edirdi: "Seçki məntəqələrinin qarşısında seçici növbələri yaranmışdı. Vətəndaşlar kütləvi şəkildə öz siyasi iradələrini ifadə etməyə gəlirdilər. Seçkidə heç bir müdaxilə və təzyiq yox idi".

Deputatın sözlərinə görə, düşmənlərimiz seçkidə qanunsuzluqlar aşkar edərək onları qeydə almağı və bütün dünyaya car çəkməyi planlaşdırsalar da, buna nail ola bilmədilər: "Seçki başa çatdıqdan sonra ölkəmizdə monitorinq aparan 800-ə yaxın beynəlxalq müşahidəçi seçkilərlə bağlı yüksək fikirlərini ifadə edib, xalqımıza uğurlar arzuladılar. Həmin müşahidəçilər ölkəmizdə keçirilmiş seçkiləri beynəlxalq örnək adlandırdılar. ABŞ və digər ölkələri təmsil edən "exit-pol"ların nəticələrinin real nəticələrlə yaxın olması da düşmənlərimizə şok yaşatdı. Çünki onlar "exit-poll" vasitəsilə seçkilərin demokratikliyinə kölgə salmağa öyrəşmişlər".

Azər Badamov vurğulayıb ki, Azərbaycan xalqı ölkənin gələcəyini İlham Əliyevin rəhbərliyində görür: "Prezident İlham Əliyev xalqdan yüksək etimad qazanmaqla yeni siyasi güc əldə etdi. Dövlət başçısı məhz bu dəstəklə beynəlxalq arenalarda mövqelərimizi daha da möhkəmləndirəcək. Biz bundan sonra düşmənlərimizə qarşı siyasi meydanlarda daha inamla mübarizə aparacaq, qələbəmizi həzm edə bilməyən dairələrə ədalətli mövqeyimizi daha inamla qəbul etdirə biləcəyik. Nəzərə almaq lazımdır ki, daxildən möhkəm və sarsılmaz olan dövlətə qarşı heç bir xarici qüvvə qalib gələ bilməz".

Deputat onu da söyləyib ki, ölkəmizin inkişafı üçün ilk növbədə iqtisadiyyatımız müasir çağırışlar üzərində inkişaf etdirilərək daha gücləndirilməlidir. O cümlədən ordumuzun gücü mütəmadi artırılmalıdır ki, dünyada sözümüzü qətiyyətlə ifadə edə bilək. Çünki iqtisadi və hərbi cəhətdən gücsüz ölkələrə beynəlxalq arenada hörmətlə yanaşmırlar.

Azər Badamov yekunda bildirib ki, dövlət başçısının müstəqil siyasəti Azərbaycanı dünyada nüfuzlu ölkəyə çevirib: "Qarşımızda dayanan başlıca vəzifələrdən biri də Ermənistanla sərhədlərimizin möhkəmləndirilməsidir. Hesab edirəm ki, qarşıdakı dövrdə bu məsələ öz həllini tapacaq, Ermənistanla sülh müqaviləsi bağlanaraq münaqişə məsələsini birdəfəlik tarixin arxivinə göndərə biləcəyik. Yeni dövrdə qarşımızda dayanan əsas hədəflərdən biri də işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpasının sürətləndirilməsidir. Bu ərazilərin hər bir guşəsi yüksək səviyyədə yenidən qurulacaq və ölkə iqtisadiyyatına inteqrasiya olunacaq. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız gözəl gələcək yaşayacaq".

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# Rusiya və Belarus parlamentariləri Azərbaycandakı seçkilərin tarixi əhəmiyyəti barədə danışıblar

Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri sadəcə tarixi seçkilər deyil, bu, həm də Azərbaycanın strateji təşəbbüsləri və planları nöqteyi-nəzərindən formatın dəyişməsidir. Fikrimcə, bu, həm beynəlxalq aləmdə, həm də ölkə daxilində yeni müəyyən çağırışlardır. Ölkə daxilində bu, ilk növbədə, ərazilərin bərpasıdır ki, burada hələ böyük iş görülməlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının deputatı Aleksey Juravlyov CBC telekanalında "Anastasiya Lavrina ilə qlobal diskussiya" verilişinin efirində bildirib. Onun sözlərinə görə, insanlar perspektiv görəndə onlar sadəcə formal olaraq deyil, ümidlə səs verirlər. "Məhz bunu mən seçki məntəqələrində hiss etdim", - deyə millət vəkili bildirib.




Azərbaycan-Rusiya münasibətlərindən danışarkən, o vurğulayıb ki, Rusiyaya güclü Azərbaycan lazımdır, çünki bu, ona istənilən təhlükəni unutmağa imkan verir. Öz növbəsində, Belarus və Rusiya İttifaqı Parlament Assambleyasının sədr müavini Valeri Belski bildirib ki, Azərbaycanda keçirilən seçkilərin nəticələri çox böyük əhəmiyyət kəsb edir. "Çünki bu, xalqın hazırkı liderinə verdiyi qiymət və gələcəyə ümiddir, inam kreditidir. İlk növbədə, indi əsas vəzifə regionun bərpasıdır. Mənim ikinci təəssüratım, əlbəttə ki, dağıdılmış şəhərlərdir, iqtisadçı kimi hələ sovet dövründən xatırlatdığım Ağdam - çiçəklənən tarlalar, üzüm bağları, indi isə hələ də mövcud olan səngərlər, bunkerlər. Gələcək onilliklər ərzindəki Azərbaycan üçün problem ərazilərinin minalardan təmizlənməsi olacaq. Mümkün qədər öhdəsindən tez gəlməsini diləyirik. Belarus, əlbəttə ki, bacardığı qədər kömək edəcək", - deyə A.Lavrinanın həmsöhbəti vurğulayıb.



# Birliyin və həmrəyliyin təntənəsi

## Seçkilərdəki fəallıq insanların qalib ruhunun aynası idi

Müasir qloballaşma dövründə insanlar vədlərdən çox, real işlərə inanırlar. Onların arzuladıqlarını kimlərin həyata keçirə biləcəklərinin də fərqindədirlər. Xalqı öz milli hədəflərinə çatdırmağa kimin qabil olduğunu da bilirlər. Bu baxımdan 7 fevral prezident seçkilərində qazanılan ümumxalq inamının nəticələri göz önündədir. Bu dəfə də sülh, sabitlik, inkişaf siyasəti Azərbaycan seçicisinin yekdil dəstəyini qazandı. Ölkə vətəndaşları cənab İlham Əliyevi qalib lider - Prezident seçdi. Bununla da ölkəmizin tərəqqisi, işıqlı sabahı qarşıdakı illər üçün təmin olundu.

Azərbaycan Prezidenti bütün seçkilərdə də, başqa rəqabət meydanlarında da həmişə öz opponentlərindən güclü olub. Bu da təbii və məntiqidir. Çünki çoxlarından fərqli olaraq cənab İlham Əliyev öz gücünü hansısa xarici dairələrdən, müəyyən maraq qruplarından deyil, məhz Azərbaycan xalqından alır. Dövlət rəhbərimizin "Biz birlikdə güclüyük" kəlamı xalqın qalib ruhunun aynasıdır. Məhz bu ruhun verdiyi sarsılmaz qüvvə ilə, gələcəyə əminliklə dövlət rəhbərimiz Azərbaycanı inkişafa doğru aparır. Dünyamızda tez-tez yaşanan iqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və başqa qlobal çağırışlara rəğmən dövlət başçımızın nümayiş etdirdiyi yüksək qətiyyət, peşəkarlıq və xalqın dəstəyinə arxalanan siyasət Azərbaycan dövlətinin son onilliklərdəki uğurlarının əsas səbəbidir.

Möhtəşəm Zəfər seçkisi artıq Azərbaycan tarixinin mühüm faktlarından biri kimi milli dövlətçilik salnaməmizdə özünə əbədi yer tutdu. Bu seçki müstəqillik illərində keçirilmiş digər seçkilərdən bir sıra əlamətdar cəhətləri ilə fərqlənirdi. Müstəqillik tariximizdə ilk dəfə idi ki, Prezident seçkisi ərazi bütövlüyü, ölkənin bütün məkanlarında dövlət suverenliyi təmin olunmuş Azərbaycanda keçirilirdi. Elə bu möhtəşəm tarixi reallıq fonunda keçirilən ilk seçkinin məhz Prezident seçkisi olması da təsadüfi deyildi.

### Yüksək seçici fəallığı

7 fevral Prezident seçkisi ilə Azərbaycan mühüm bir strateji mərhələyə keçid etdi. Bu yeni başlanğıcın, dövlətimiz üçün də, vətəndaşlarımız üçün də yeni həyatın ilkin müjdəsi idi. Azərbaycan seçiciləri tam demokratik, şəffaf əsaslarla keçirilən seçkidə öz seçim azadlıqlarını ifadə edərək ən layiqli namizədə səs verdilər.

Prezident seçkisinin diqqətçəkən cəhətlərindən biri seçici fəallığının son dərəcə yüksək olmasında idi. Bu seçkidə vətəndaşlarımızın son illərdə görünməmiş fəallığı qeydə alındı. Belə ki, Mərkəzi Seçki Komissiyasının açıqlamasına görə, 7 fevral Prezident seçkisində respublika üzrə 4 milyon 967 min 795 nəfər səs verib. Müqayisə üçün yada salaq ki, 2018-ci ildə keçirilmiş prezident seçkisində 3 milyon 959 min 353 nəfər iştirak etmişdi. Yəni bu, 2018-ci il seçkisi ilə müqayisədə bu seçkidə 1 milyondan çox seçicinin iştirak etdiyinin göstəricisidir. Belə bir parlaq göstərici Azərbaycan vətəndaşlarının böyük ruh yüksəkliyi ilə bu möhtəşəm kampaniyada iştirakının, səslərini ən layiqli namizədə etibar etməsinin təsdiqidir. 7 fevral Prezident seçkisində böyük seçici fəallığının qeydə alınması səsvermə prosesini izləyən xarici müşahidəçilərin rəylərində də öz əksini tapdı.

### Zəfər kursu

Prezident seçkisində görünməmiş seçici fəallığının qeydə alınması heç də təsadüfi deyil. Azərbaycan vətəndaşlarının bu fəallığında Vətən müharibəsindəki qələbəmizin, ölkəmizin ərazi bütövlüyünün, dövlət suverenliyinin təmin olunması faktının çox böyük rolu var. 44 günlük Vətən müharibəsində "dəmir yumruq" kimi milli vəhdətimizin gücünü, Ali Baş Komandan cənab İlham Əliyevə, ordumuza dəstəyini göstərən, Müzəffər Sərkərdənin hər qələbə müjdəsini bayram edən xalqımız eyni coşqunu prezident seçkisində də nümayiş etdirdi.

Bu seçki Azərbaycan vətəndaşlarının növbəti illərdə ölkəmizə rəhbərlik edəcək lideri seçməsindən də çox, qədirbilən xalqımızın cənab İlham Əliyevə minnətdarlıq duyğularının ifadəsi idi. Vətəndaşlarımız bu minnətdarlığı Vətən müharibəsindəki hər qələbəmizdə, azad edilmiş yurdlarımızda dalğalanan üçrəngli bayrağımızın, o bayrağın kölgəsindən mətin addımlarla keçən əsgər və zabitlərimizin yaratdığı hər qürur anında könül dolusu dilə gətirirdilər. 7 fevral prezident seçkisi bunu səsvermə bülleteni ilə ifadə etməkdən ötrü böyük bir fürsət oldu. Bununla insanlarımız Prezident İlham Əliyevin yürütdüyü Zəfər kursunu dəstəklədiklərini göstərdilər.

İşğaldan azad olunmuş ərazilər üzrə seçici fəallığının xüsusilə yüksək olması da buna dəlalət edir.

### Nümunəvi seçki mədəniyyəti

Prezident seçkisindəki bu yüksək fəallığın, seçkinin şəffaflığı, tam obyektivliyi məqsədilə yaradılmış şəraitin yeni strateji dövrdə Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Seçki bir mədəniyyətdir. Azərbaycan seçicilərinin səsvermə prosesinə böyük marağı, bu prosesdə fəal iştirakı cəmiyyətimizdə bu sahəni də inkişaf etdirir, yüksəldir. Ümumilikdə siyasi mədəniyyətin yeni səviyyələrdə formalaşmasına müsbət təsir göstərir. Bu gün yüksək fəallıqla seçkidə iştirakı özünə vətəndaşlıq borcu bilən hər kəs həmin fəallığı növbəti seçkilərdə, o cümlədən parlament və bələdiyyə seçkilərində də qoruyacaq. Eyni zamanda seçki prosesində məhz ən layiqli namizədlərin qalib gəlməsi üçün ictimai meyarlara istinad edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyatımıza gətirdiyi ən böyük nailiyyətlərdən biri də budur. Hər seçkidə cəmiyyətimizdə siyasi mədəniyyətin necə yüksəldiyini görürük. Qaragüruh düşüncə tərzi, seçicilərin rəğbətini qazanmaq üçün populist şüarlar artıq arxa plana keçir. Çünki xalqın gözü tərəzidir. Azərbaycan dövlətinin son onilliklərdə gördüyü işlər, nail olduğu inkişaf prosesləri, müxtəlif vasitələrlə həyata keçirilən siyasi maarifçilik insanların dünyagörüşünə müsbət təsir göstərir. Daha gəlişigözəl sözlərlə diqqəti çəkmək, vətəndaşların səsini əldə etmək mümkün deyil. Azərbaycan seçiciləri verilən vədlərlə görülən real işlərin fərqindədir. Rellıqlara bu aydın baxışı da cəmiyyətimizdə məhz cənab İlham Əliyev formalaşdırıb. Bununla bağlı ən parlaq nümunəni dövlət rəhbərimiz yaradıb. Cənab İlham Əliyev heç zaman insanlar qarşısında qeyri-real vədlər səsləndirməyib. Amma real imkanlara, perspektivlərə əsaslanaraq verdiyi bütün sözləri tutub, yerinə yetirib, reallaşdırıb. Bunun ən böyük təcəssümü Müzəffər Ali Baş Komandanın torpaqlarımızın azadlığına, ölkəmizin ərazi bütövlüyünə nail olmasıdır.

Dövlət rəhbərimizin zəmanəmizin ən parlaq liderlərindən biri kimi təlqin etdiyi dəyərlər, yaratdığı meyarlar ölkəmizdə siyasi mühitə müsbət təsir göstərir. Bunu seçkiqabağı kampaniyada da görmək mümkün idi. Seçki prosesinə qoşulmuş partiyaların süni gərginlik yaratmaq meylində olmaması, debatların faydalı diskussiya şəraitində keçməsi, səsvermə prosesi başa çatandan sonra bəzi namizədlərin seçkinin qalibini təbrik etməsi ölkəmizdə yeni siyasi mədəniyyət nümunəsi sayıla bilər.

### Vətənə sevgi örnəyi

Dövlətimizin başçısı müasir dünyamızdakı qloballaşmadan, yeni geosiyasi reallıqlardan irəli gələn mənzərənin tələblərinə cavab verən siyasi xəttin daşıyıcısıdır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, dəmir məntiq və möhkəm iradə - bütün bunlar cənab İlham Əliyevin siyasi obrazını tamamlayan mühüm keyfiyyətlərdir.

Milli dövlətçilik təfəkkürünə bağlı olan cənab İlham Əliyev əsrlərin süzgəcindən keçərək günümüzə gəlib çatmış mənəvi-əxlaqi sərvətlərimizə müsbət anlamda mühafizəkarlıq prizmasından yanaşır. Bu mənada, millilik ölkə Prezidentinin siyasi düşüncəsinin, təfəkkürünün əsas mənbəyidir. Rəhbərin öz xalqının ruhuna uyğun olan, balanslaşdırılmış siyasəti Azərbaycanın əbədi və əzəli milli maraqlarına istinad edir. Cənab İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mədəni-əxlaqi dəyərləri, habelə Qərb və Avropa təmayülləri sintez təşkil edir.

Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyinin qorunub saxlanması naminə nümayiş etdirdiyi prinsipiallıq, ölkəmizdə köklü islahatların həyata keçirilməsindən ötrü ortaya qoyduğu qətiyyət, cəmiyyətdə qüsurlu hallara qarşı mübarizə sahəsində tutduğu əzmkar mövqe, dünyanın siyasi arenasında baş verən gərgin və dəyişkən proseslərdə, dörd bir yandan ölkəmizə qarşı yönələn xarici təzyiqlərə münasibətdə, qlobal təşəbbüslərin irəli sürülməsi və icrasında Azərbaycanın milli maraqları ilə bağlı nümayiş etdirdiyi yüksək iradə, siyasi səbat və təmkin, cənab İlham Əliyevin öz çevik və optimal qərarları ilə istənilən çətin situasiyadan ölkəni böyük hünərlə çıxara bilmək bacarığını göstərir. Bu baxımdan, qalib Lider Azərbaycanın zəngin dövlətçilik irsinin müəyyən etdiyi yüksək amalları, böyük hədəfləri faktlaşdıraraq həyat gerçəkliklərinə çevirən qüdrətli siyasi fenomendir. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır.

### Yeni çağırışlar

Dünyamız yeni çağırışlarla üz-üzədir. Yeni qlobal reallıqlar dövründə ölkəyə qalibiyyət və tarixi nailiyyətlər qazandırmaq üçün dövlət rəhbərlərindən bir neçə missiyanı uğurla yerinə yetirmək tələb olunur. Bunlardan birincisi mövcud resursların səfərbərliyə alınması, digəri cəmiyyətdə milli vəhdətin təmin olunması, üçüncüsü isə müasir elmi-texniki nailiyyətlərə əsaslanan güclü iqtisadiyyatın qurulmasıdır. Azərbaycan xalqı 7 fevral prezident seçkisində bu üç amilin hər birini uğurla təmin edən Liderə - cənab İlham Əliyevə səs verdi. Bu seçim müstəqil dövlətimizi yeni tarixi nailiyyətlərə aparacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Xalq yenə də seçimində yanılmadı

## "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi və o, uğurla başa çatdı" deyən İlham Əliyevi özünə Lider seçdi

Xalqların, dövlətlərin tarixində bəzən elə bir hadisə baş verir ki, bu, onların sonrakı inkişaf yolunu, yüksəlişini müəyyənləşdirən taleyüklü, tarixi qərar hesab olunur. Bu baxımdan, Azərbaycanın dövlətçilik tarixində də anlar olub ki, xalq həmin zaman doğru qərarlar qəbul edərək öz taleyinə sahib çıxıb.



1993-cü ildə müstəqilliyimiz təhlükə altında olanda Azərbaycan xalqı böyük müdriklik nümayiş etdirərək düzgün qərar qəbul etdi. Heydər Əliyevə üz tutub onu dövlət müstəqilliyini, xalqın bu gününü və gələcəyini xilas etməyə dəvət etdi. Böyük lider də onu sevən, ona etibar edən Azərbaycan xalqının istəyini yerinə yetirərək yeni əsrin astanasında müdriklik, qətiyyət sərgiləyərək dövləti xilas etdi, doğru istiqamətə yönləndirdi. On illik bir dövrdə Azərbaycanın müstəqilliyini qoruyub saxlayan, iqtisadiyyatını dirçəldən Ulu Öndər 2003-cü ildə xalqını, dövlətini etibarlı əllərə əmanət edərək missiyasını başa vurdu.

O zamandan 20 il keçib. Bu dövr dövlətçilik baxımından elə də böyük bir zaman kəsiyi olmasa da, xalqın dövlətçilik tarixinə bəlkə də vaxt gələcək qızıl hərflərlə yazılacaq. 20 ildə Prezident İlham Əliyev xalqın və Ulu Öndərin ona göstərdiyi inamı, etimadı doğrultdu. Bütün dünyada təqdir olunan nümunəvi idarəçilik modelini yaratdı və Azərbaycanın ictimai-siyasi sabitliyini təmin etdi. Ölkənin pozitiv beynəlxalq imicə sahib olan dövlətlər sırasında müasir, avanqard yer tutmasına nail oldu. Təbii ki, bu uğurların kökündə Prezidentin doğru-düzgün addımları, uğurla reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanıb. Məhz bu kurs istisnasız bütün sahələrin inkişaf etdirilməsində, ardıcıl olaraq yeni uğurlara imza atılmasında "bayraqdar" rolunda çıxış edib. Ötən iki onilliyi tarixi uğurlar kontekstində parlaq, nümunəvi bir dövr kimi dəyərləndirsək, səhv etmərik.

Prezident İlham Əliyev şəxsiyyətinin böyüklüyü bu gün bütün dünyada diqqət çəkir. Şəxsi nüfuzu, siyasi sanbalı, qazandığı xalq sevgisi isə bədxahların, Azərbaycanı sevməyən qüvvələrin xoşuna gəlmir. Xalqı milli amallar və məqsədlər naminə öz ətrafında birləşdirməyi bacaran İlham Əliyev böyük ustalıq nümayiş etdirərək vətəndaş həmrəyliyinin qazanılmasına nail olub. Sarsılmaz birlik, xalqın öz liderinə sonsuz inamı, liderin isə öz xalqına arxalanması Azərbaycanın qazandığı bütün uğurların dayaq nöqtəsini təşkil edir. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin bir günlük antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olundu, həm regionda, həm də bütövlükdə ölkədə yeni reallıqlar yarandı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi Zəfər nəticəsində Azərbaycan xalqı 3 ildir qalib xalq kimi özünü dünyaya təqdim edir. İlham Əliyev Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, hər gün xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşadır. Azərbaycan xalqını müzəffər xalq, Azərbaycan dövlətini isə qalib dövlət kimi dünyanın diqqət mərkəzinə çəkə bilir.

Çəkinmədən deyə bilərik ki, bu sadalanan siyasi və sadalanmayan iqtisadi uğurlar, ən son yeniliklər prezident seçkilərinin keçirilməsinə stimul verdi. Müstəqil Azərbaycan tarixində ilk dəfə bütün ölkə ərazisində prezident seçkisi keçirildi. Bu seçki dövlətin ərazi bütövlüyünü və suverenliyini təsbit etdi. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə, Ağdamda və digər rayonlarda əzəmətlə dalğalanır. Fevralın 7-də baş tutan seçki Zəfər seçkisi idi. İşğaldan azad olunmuş ərazilərə köçürülən insanların adı illər sonra öz doğma yurdlarında seçici siyahısına daxil edilmişdi. Onlar seçkidə öz doğma yurdlarında -Zəngilan, Şuşa, Laçın, Füzuli, Cəbrayıl və azad olunmuş digər ərazilərdə səs verərək dövlət başçısını seçdilər. Bu, seçkinin ən şərəfli və qururlu anı idi. Bu, həmin şərəf və qüruru onlara verən şəhidlərin ruhuna hörmət, qazilərin yarasına olan məlhəm, İlham Əliyevə isə bir şükran borcu kimi hələ uzun illər danışılacaq, yazılacaq. Bu seçki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi olaraq təsdiq olundu. Azərbaycan xalqı 3 il əvvəl (44 günlük savaşda) dünyaya nümayiş etdirdiyi milli həmrəyliyi 2024-cü il fevralın 7-də ölkənin dörd bir yanında qurulmuş seçki məntəqələrində təkrarladı. Xalq öz səsini yenidən İlham Əliyevə verərək onu növbəti 7 il müddətinə Prezident seçdi.

Əslində, xalq son 20 ildə qazanılan uğurlara, sürətli inkişafa səs verərək onun davam edəcəyinə əminliyini təsdiq etdi. Çünki son iki onillikdə dövlətin siyasi və iqtisadi müstəqilliyi möhkəmləndi, ərazi bütövlüyü əldə olundu və dövlət başçısı İlham Əliyev dünyada böyük nüfuz qazanaraq Azərbaycanı regionun lider dövlətinə çevirdi. Həyata keçirilən qlobal layihələr ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirdi. "Güclü xalq, güclü dövlət, güclü lider" sözləri şüar deyil, vəhdət şəklində ölkənin iqtisadi inkişafına böyük təkan verdi.

Bu seçki əbəs yerə Zəfər seçkisi adlanmır. Bu ad həm də müharibədə və seçkidə qalib gələn Prezident İlham Əliyevə yaraşır. Dünya dövlətləri, həmçinin beynəlxalq qurumlar da Azərbaycanı qalib dövlət olaraq qəbul edir, İlham Əliyevə nüfuzlu şəxsiyyət, qalib lider kimi hörmət edir, onunla hesablaşırlar. Ona görə də seçkidən sonra beynəlxalq müşahidəçilərin rəyi yekdil oldu: Azərbaycanda ədalətli, şəffaf, rəqabət mühitinin təmin edildiyi seçki keçirildi, üstün səs çoxluğu ilə İlham Əliyev Prezident seçildi.

Xalq yenə də müasir dünya liderləri arasında yüksək intellekti, diplomatik məharəti, xüsusi natiqlik bacarığı ilə seçilən, adı Azərbaycan tarixinə islahatçı dövlət başçısı kimi yazılan, inkişaf etmiş Azərbaycanın qurucusu, Qarabağı azad edən Ali Baş Komandan, qalib sərkərdə İlham Əliyevə səs verdi. Ulu Öndərin layiqli davamçısını - dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəyən, xalqa xidmət etməyi şərəf sayan, həyat amalına çevirən, "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi və o, uğurla başa çatdı" deyən İlham Əliyevi seçdi. Xalq Azərbaycanın dövlət müstəqilliyinin və dinamik inkişafının qarantı olduğunu əyani şəkildə sübuta yetirən müdrik, qətiyyətli və cəsarətli İlham Əliyevdən səsini əsirgəmədi. Hər zaman olduğu kimi, yenə də öz seçimində yanılmayan hər bir azərbaycanlı əmindir ki, İlham Əliyev Azərbaycanı bundan sonra da həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən daha qüdrətli edəcək.

Uğurlar, cənab Prezident!

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Rusiyanın səfiri:* "Azərbaycan Prezidenti İlham Əliyev ölkə əhalisinin qeyd-şərtsiz dəstəyinə malikdir"

Azərbaycan Prezidenti İlham Əliyev ölkə əhalisinin qeyd-şərtsiz dəstəyinə malikdir. AZƏRTAC xəbər verir ki, bu barədə "İzvestiya" nəşrinə müsahibəsində Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov bildirib.

Səfirin sözlərinə görə, o, ölkənin ərazi bütövlüyünün bərpasından sonra İlham Əliyevin prezident seçkilərində səslərin 90 faizindən çoxunu toplayacağına əmin idi. Diplomat əlavə edib: "Hər kəs aydın şəkildə başa düşürdü ki, nəticələr çox yaxşı olacaq. Bu səbəbdən də 92 faizlik nəticə əvvəlcədən gözlənilən idi. Bu, həmçinin Azərbaycan Prezidentinin ölkə əhalisinin qeyd-şərtsiz dəstəyinə malik olmasını təsdiq etdi. Azərbaycanda istənilən adamla - rəsmi şəxslərlə, sadə vətəndaşlarla söhbət əsnasında da buna əmin ola bilərsiniz".

M.Yevdokimov vurğulayıb ki, Rusiya-Azərbaycan ikitərəfli əlaqələri prezidentlər Vladimir Putin və İlham Əliyevin çoxillik və qarşılıqlı hörmətə əsaslanan münasibətləri üzərində qurulur. O qeyd edib: "Biz Azərbaycanda prezident seçkilərinin hansısa dəyişikliklərə səbəb olacağını gözləmirdik və gözləmirik. Sadəcə, hazırda olduğu kimi, gələcəkdə də səmərəli və intensiv



fəaliyyəti davam etdirəcəyik". Bu il Rusiya, Azərbaycan, İran və Türkiyə arasında yüklərin daşınması üçün dəmir yolunun istifadəsi imkanlarının genişləndirilməsi üzrə layihələrə dair razılıq əldə olunmasının nəzərdə tutulduğunu qeyd edən səfir əlavə edib ki, bundan başqa, Şimal-Cənub, Rusiya-Azərbaycan-İran və Azərbaycan, İran, Naxçıvandan keçməklə Türkiyəyə uzanan Şimal-Qərb nəqliyyat dəhlizlərinin buraxılış qabiliyyətinin ildə 30 milyon tona qədər artırılacağı gözlənilir.

Diplomat qeyd edib ki, Rusiya şirkətləri Azərbaycanda fəaliyyətlərini genişləndirir və Qarabağda ərazilərin bərpası proqramlarında iştirak etməkdə maraqlıdır.

M.Yevdokimov vurğulayıb ki, Azərbaycan müstəqillik illərində iqtisadi cəhətdən inkişaf etmiş, çox güclü, sabit dövlətə çevrilib və ölkə biznesi Rusiya ilə iqtisadi əlaqələrdə yeni imkanlara çox səmərəli və çevik şəkildə cavab verir.

Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesi ilə bağlı sualı cavablandıran səfir bildirib ki, Qarabağ məsələsi artıq bağlanıb. O əlavə edib: "Hazırda Ermənistanla Azərbaycan arasında sülh sazişi layihələrinin bilavasitə mübadiləsi aparılır. Zənnimcə, Azərbaycan tərəfinin təklifləri tamamilə məntiqlidir, həmçinin tərəflər arasında mövcud olan sülh sazişlərində qəbul olunmuş standart ifadələrə və maddələrə uyğundur. Prinsip etibarilə, mənə elə gəlir ki, Bakının təklifləri əsasında bu danışıqları kifayət qədər tez başa çatdırmaq mümkündür". Səfir onu da qeyd edib ki, Azərbaycan sülh sazişinin imzalanmasına dair danışıqları çox tez bir zamanda başa çatdırmaq istəyir, amma məlum olduğu kimi, sülh prosesinə yekun vurmaq üçün hər iki tərəfin istəyi olmalıdır.

Rusiyanın Qarabağda sülhməramlı kontingentinin taleyindən bəhs edən diplomat bildirib ki, hazırda Azərbaycan XİN-lə 2025-ci ildə yerləşmə müddəti başa çatan sülhməramlı kontingent üzrə Moskva ilə Bakı arasında danışıqların növbəti raundunun vaxtı razılaşdırılır.

M.Yevdokimov sonda deyib: "Rusiyalıları Azərbaycana - əhalinin rusiyalılara çox yaxşı münasibətinin olduğu müasir dünyəvi ölkəyə səfər etməyə çağırıram. Demək olar ki, hər yerdə rus dilində danışan insanlara rast gələcəksiniz, ona görə də təhlükəsizlik baxımından hər hansı problem və ya məhdudiyyətlər görmürük".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Dünya Fransanın "ədaləti"nə artıq inanmır

### Paris itirdiyi nüfuzunu Ermənistan vasitəsilə Cənubi Qafqazda bərpa etmək istəyir

**"Bu gün Fransanın, eləcə də onunla həmfikir olan bəzi dövlətlərin, beynəlxalq təşkilatların apardıqları anti-Azərbaycan kampaniyası heç bir beynəlxalq normalara uyğun deyil. Əslində, bu, həmin ölkələrin demokratik imicinə zərbədir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, onların fəaliyyəti demokratiyaya kölgə salır və bəşəriyyətin gələcəyi üçün təhlükə yaradır. Fransa və Almaniya özlərini dünyaya insan hüquqlarını qoruyan, demokratik dəyərlərə sadiq ölkələr kimi təqdim etsələr də, bu, onların əməli fəaliyyətində özünü göstərmir. Əksinə, söylənilən fikirlər, aparılan təbliğat müstəqil dövlətlərin, həmçinin Azərbaycanın suverenliyinin bilavasitə əleyhinədir. Bu gün Fransa ən qatı və düşünülməmiş siyasəti ilə nəinki Azərbaycanın, bir çox müstəqilliyə can atan ölkələrin nifrət çərçivəsindədir. Azərbaycan xalqı Fransanın yürütdüyü anti-Azərbaycan təbliğatını nifrətlə qarşılayır və ölkəmizin əleyhinə aparılan bu kampaniyanı kəskin pisləyir. Çünki ölkəmiz əleyhinə söylənilən fikirlər, qəbul olunan qətnamələr, bəyanatlar reallıqları əks etdirmir. Bütün bunlar böhtan, şantaj xarakterlidir.



T.Rzayev qeyd edib ki, Fransa dünyada itirdiyi nüfuzunu Cənubi Qafqazda Ermənistan vasitəsilə bərpa etmək niyyətindədir: "Paris Ermənistan xalqının taleyinə, bu ölkənin gələcəyinə deyil, özünün marağına uyğun siyasət yürütməyə çalışır. Cənubi Qafqazda münaqişənin yenidən qızışdırılması, ölkələrin qarşı-qarşıya qoyulması Fransanın istəyidir. Bu ölkə münaqişədən qazanmağa, faydalanmağa çalışır. Ancaq Ermənistanın silahlandırılması və bu prosesdə Fransanın aqressivliyi ermənilər üçün yaxşı heç nə vəd etmir. Çünki 44 günlük Vətən müharibəsi, eləcə də 23 saatlıq antiterror tədbirləri göstərdi ki, Azərbaycan Ordusu güclüdür, xalq birdir, Prezident öz sözünü deməyi və ədaləti bərpa etməyi bacarır".

Komitə sədri vurğulayıb ki, Ermənistanı yenidən silahlandırmaq, onu yeni müharibəyə həvəsləndirmək bu ölkənin yer üzündən silinməsi olar. Çünki erməni ordusu tamamilə məhv edilib, Ermənistan iqtisadiyyatı çöküb. Erməni xalqı müharibədən cana gəlib. Artıq övladlarının gələcəyini düşünən ermənilər müharibənin əleyhinədirlər. Onlar, əslində, sülh, əməkdaşlıq etmək istəyindədirlər və bir çoxları bunu aydın bəyan edir. "Çox təəssüf ki, Ermənistanı qızışdıran, onu müharibəyə təhrik edən Fransa bunu dərk etmir. Başda Makron olmaqla, bu ölkənin parlamentariləri, siyasi dairələri anti-Azərbaycan təbliğatı apararaq özlərini sığortalamaq, dünyada demokratik dövlət imici formalaşdırmaq istəyirlər. Ancaq dünya Fransa "həqiqətlərinə", "demokratiyasına" artıq inanmır. Bəşəriyyət dərk edir ki, Fransa, Almaniya kimi dövlətlər dünyanın xoşbəxtliyi üçün deyil, faciəsinə, insanların bir-birinə düşmən olmasına çalışırlar", - deyə Tahir Rzayev əlavə edib.

Komitə sədri qeyd edib ki, Ermənistan öz yolunu seçməli, Fransa kimi dövlətlərin yağlı dilinə, vədinə inanmamalıdır, çünki ermənilər bir çox ölkələrin sözünə inanaraq əsrlərlə özlərini çətin vəziyyətdə qoyublar. Bu hal bu gün də davam edir və xarici ölkələr Ermənistandan vasitə kimi istifadə edib mənfur niyyətlərini həyata keçirmək istəyirlər. Azərbaycan isə bütün təsirlərə cavab verməyə, mənaeləri qətiyyətlə aradan qaldırmağa qadirdir.

Fransanın anti-Azərbaycan təbliğatı dövlətimizin gücünə, birliyinə heç bir təsir göstərə bilməz. Azərbaycan xalqı, ordusu istənilən vaxt öz sözünü deməyə, qüvvəsini göstərməyə hazırdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Makron qanmalıdır ki...

### Azərbaycan "böyük Ermənistan" əfsanəsini tarixin zibilliyinə atıb

**Hər şeyi gərək öz adı ilə çağırasan. Ona görə də etiraf etməliyik ki, Qafqazda Ermənistan dövlət olmaqdan daha çox böyük güclərin əlində bir alətdir. Bu oyuncaq rejimin məqsədi, məramı da böyük güclərin mətbəxində ərsəyə gəlir. Belə yaşamaq 2020-ci ilin sentyabrınacan onlar üçün çox asan olmuşdur.**






Artıq əsrdən yuxarıdır ki, ermənilər Qafqazı əbədi münaqişə ocağına çevirmək, burada bir neçə dövlətin maraqlarını Türkiyə ilə toqquşdurmaq üçün dəridən-qabıqdan çıxırlar. Bu sırada Makron da onlara qoşulub, erməni "savaş yallısı"nı körükləyir. Amma anlamaq lazımdır ki, indi "köhnə havada yallı gedənlər"ə çəpik çalıb alqış deyən çox olmayacaq.

Adamı yandıran bu deyil, özləri bilən məsləhətdir. Amma qıdıq verən odur ki, nə Makron hansı havanı sifariş verdiyini bilir, nə də erməni millətçiləri hansı havada və kimin üçün dingildədiklərini qanırlar. Əgər ağılları olsaydı, birillik azuqələri olmadan yüzillik savaşa qol atmazdılar. Yəqin elə fikirləşiblər ki, yenə Rusiya, Fransa və ABŞ Qafqaza girib onların əvəzinə döyüşəcək, yeni torpaqları zəbt edib Hayastana pay verəcəklər. Alınmadı.

İndisə ermənilərin "sülh çağırışları"na, bəyanatlarına fikir verin. Bir balaca ayaqlarının altında torpaq löngərləyən kimi Parisə üz tuturlar ki, qoymayın, ay aman, türklər dədəmizə od vururlar. Bu minvalla haray-qışqırıqları, axan "timsah göz yaşları" yeri-göyü bürüyür. Əslində isə nə onların üstünə gedən var, nə də torpaqlarını əllərindən alan. Amma nə fayda... Erməni ideoloqları susmaq bilmirlər, fransızların "can-can"ı üstündə "ağı" deyirlər.

Neçə əsrdir ki, haylar beləcə zarıya-zarıya uydurma xəritələrlə "böyük Ermənistan" əfsanəsi yapırlar. Yüz illərdir ki, əllərində saxta xəritələrlə yallı gedirlər - guya dənizdən-dənizə "zırpı" dövlətləri varmış. Daha unudurlar ki, təkcə sonuncu müharibədə Qafqazdan bir neçə milyon erməni Rusiyaya, Fransaya və Amerikaya qaçıb. Sən necə "böyük Hayastan" hayındasan ki, "miatsum" deyib hayladığın haylar dabanlarına tüpürüb "vətən"lərindən qaçırlar?! Deyəsən, Makrondan savayı, ermənilərin nə istədiklərini heç özləri də bilmirlər.

Belə çıxır ki, "böyük Ermənistan" əfsanəsini və onun uğrunda vuruşmağı ermənilərə kənardan sırıyıblar. İndi də erməni ideoloqları həmin kənardakıların çaldıqları havaya bambılı kimi ortaya düşüb dingildəyirlər. Daha qanmırlar ki, bu dingildəmək erməni ideologiyasının yüzillik mahiyyətini ifşa edir.

Amma deyəsən, son vaxtlar ruhdan düşüb kiriyiblər. Qarabağdan qovulduqlarından sonra böyük dövlətin necə olduğunu başa düşüblər. İndi Makron istəyir özünü yırtsın, istəyir sinə vursun, ya da ağı deyib mərsiyə qoşsun - fərq eləmir, Azərbaycan bir daha erməni separatçılarının ayağının Qarabağ torpağına dəyəcəyinə imkan verməyəcək. Uzun illər Azərbaycan ermənilərə çox hörmət edib, hətta tarixi ərazisində dövlət yaratmalarına mane olmayıb. Bəs əvəzində nə görüb? Nankorluq və düşmənçilik. Odur ki, Makron və onun kimiləri özlərini nə qədər yırtsalar da, bizdə ermənilərə çatası bir qarış da torpaq yoxdur, əksinə, geriyə alası kifayət qədər ərazilərimiz var.

Qoy hamı bilsin, Azərbaycan üçün "böyük Ermənistan" əfsanəsi bitib. İndi bitməyən bir şey varsa, o da Makronun erməni millətçilərinə tumar çəkməkdə davam etməsidir. Öz işidir, əl özünün, baş özününkü, nə qədər istəyir tumarlasın.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## XİN: "Ermənistan tərəfi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaları davam etdirməkdədir"

**Fevralın 11-də Ermənistanın baş naziri Nikol Paşinyan "The Telegraph" qəzetinə verdiyi müsahibə zamanı Azərbaycana qarşı növbəti dəfə böhtan xarakterli əsassız iddialar səsləndirib.**

Müsahibə zamanı, beynəlxalq razılıqların və öhdəliklərin yerinə yetirilməsini təşviq edən Ermənistan baş nazirinin təmsil etdiyi ölkəsinin beynəlxalq hüququn bütün norma və prinsiplərinə, habelə istinad etdiyi Alma-Ata bəyannaməsinə məram və məqsədlərinə zidd olaraq Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlaması faktının üzərindən keçməyə çalışması təəssüf doğurur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Paşinyanın müsahibə zamanı səsləndirdiyi iddialara dair şərhində yer alıb.

Şərhdə deyilir: "Bununla yanaşı, 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, Azərbaycan ərazilərindən işğalçı qüvvələri çıxarmaması, ərazilərimizə silah-sursat, hərbi texnika və minaları ötürməkdə davam etməsi və digər kobud pozuntu və təxribatlar törətməsi barədə danılmaz faktlar Ermənistan tərəfinin əsl niyyətindən xəbər verir.

Ermənistan baş nazirinə, həmçinin yaxşı məlumdur ki, Ermənistan tərəfi Praqa və Soçi görüşlərində və daha sonra Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, Azərbaycan ərazilərində yaratdığı qondarma rejimin saxta "müstəqilliyi" ilə bağlı 2023-cü ilin sentyabr ayında təbrik bəyanatları verməklə yanaşı, bu günədək beynəlxalq təşkilat və məhkəmələrdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaları davam etdirməkdədir.

Ermənistan tərəfinin Alma-Ata bəyannaməsinə qoşulan zaman verdikləri qeyd şərti, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa qarşı çıxan qüvvədə olan qanunvericilik aktlarının mövcudluğunu unutdurmağa çalışması da digər ciddi narahatlıq mənbəyidir.

Ermənistan tərəfi bu kimi təxribatlar və Azərbaycana qarşı siyasi manipulyasiya dolu fikirlər və addımlar əvəzinə, sözdə deyil, əməldə beynəlxalq öhdəliklərə riayət etməli və sülh prosesinə töhfə verməlidir".

## Fransanın Cənubi Qafqazda sabitliyi pozmaq cəhdi boşa çıxacaq

**Cənubi Qafqazda sülhün bərqərar olunması, münasibətlərin normallaşması, qarşılıqlı əlaqələrin qurulması yalnız region deyil, dünya üçün əhəmiyyətli, mühüm hadisələrdən biridir. Bu baxımdan, Cənubi Qafqazda sabitliyin, sülhün yaranmasına səy göstərən Azərbaycanın özlərini demokratik hesab edən bir sıra Qərb dövlətlərinin, bəzi beynəlxalq təşkilatların qərəzi ilə qarşılaşması sonuncuların əsl simalarını ortaya çıxardı.**

Hətta əraziləri Ermənistanın işğalı altında qaldığı, dədə-baba yurdundan, evindən qovulmuş bir milyon vətəndaşının məcburi köçkün həyatı yaşadığı illərdə də Azərbaycan sülhpərvərliyindən, humanistliyindən geri çəkilmədi. Otuz ilə yaxın qəsbkar ölkənin silahlı qüvvələri zəbt etdikləri Qarabağ və Şərqi Zəngəzurdan ərazilərimizi intensiv olaraq atəşə tutanda, dinc, günahsız sakinlərimizi qətlə yetirəndə də Azərbaycan münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı kimi çıxış edirdi. Eyni zamanda da öz ərazi bütövlüyü və suverenliyi ilə bağlı heç bir güzəştə getməyəcəyini qətiyyətlə diqqətə çatdırırdı. Rəsmi Bakı işğal faktı ilə heç zaman barışmayacağını, ərazilərini düşmən tapdağında qoymayacağını hər zaman bəyan edirdi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bildirirdi ki, lazım gəlsə, tarixi torpaqlarımızı müharibə yolu ilə azad edəcəyik!

Azərbaycanın sülhə nail olmaq, Qarabağ və Şərqi Zəngəzur ərazilərini döyüşsüz, müharibəsiz azad etmək cəhdlərinə baxmayaraq, qəsbkar Ermənistan, ona havadarlıq edərək, əslində, işğalı və işğalçını açıq-aşkar dəstəkləyən dövlətlər və beynəlxalq təşkilatlar Cənubi Qafqazın illər boyu münaqişə ocağı olaraq qalmasına şərait yaratdılar.

Ölkəmiz uzun müddət Fransa kimi ermənipərəst dövlətlərin ikili siyasəti ilə üz-üzə qaldı. Həmin illər ərzində münaqişənin həlli ilə bağlı ATƏT-dən mandat almış Minsk qrupu münaqişənin dinc yolla tənzimlənməsinə heç bir töhfə vermədi. Fransa Minsk qrupunun həmsədri kimi bitərəf mövqe nümayiş etdirə, öz üzərinə düşən missiyanı yerinə yetirə bilmədi.



Hakim siyasi dairələri erməni lobbisinin güclü təsiri altında olan Fransa Vətən müharibəsi dövründə və Azərbaycanın Zəfər illərində də məkrli oyunları, böhtan, yalan dolu iddiaları, qərəzli qətnamələri ilə pis niyyətlərini davam etdirdi. Görünən budur ki, uzun illər ərzində öz məqsədini Minsk qrupunun fəaliyyəti çərçivəsində ört-basdır etməyə çalışan Fransa Azərbaycanın bu qrupdan imtina etdikdən dərhal sonra əsl mahiyyətini aşkar şəkildə ortaya qoydu.

Otuz ilə yaxın işğala məruz qalan tərəf olmasına baxmayaraq, Azərbaycan Ermənistana beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişi imzalamağı təklif edib. Ancaq münaqişənin başa çatmasından üç il keçsə də, rəsmi İrəvan üzərinə götürdüyü öhdəliklərinin icrasını ləngidir, sülh müqaviləsini imzalamaqdan yayınır. Belə bir şəraitdə Makron hökuməti israrla bu iki ölkə arasında sülhün əldə olunmasına xidmət etməyən addımlar atır. Fransanın 44 günlük müharibədən sonra da dərin böhran içərisində olan Ermənistanı silahla təmin etməsi də elə həmin məkrli niyyətindən xəbər verir.

Rəsmi Bakının dəfələrlə etdiyi çağırışlara məhəl qoymayan rəsmi Paris Ermənistanda revanşizmi gücləndirməyə, bu ölkəyə hərbi dəstək verərək silahlandırmağa və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını əngəlləməyə cəhd göstərir. Makron hökuməti bununla bütövlükdə Cənubi Qafqaza zərbə vurmaq istəyir. Məqsədi bölgədə münaqişəni yenidən alovlandırmaqdır.

Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır, özünün də ərazi bütövlüyünə və suverenliyinə eyni yanaşılmasını tələb edir. Prezident İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edərkən diqqətə çatdırdı ki, Fransa regionda dağıdıcı siyasət həyata keçirir.

Fransanın, həmçinin Ermənistanın militarizasiya siyasəti apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən dövlət başçısı rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasət yürütdüyünü də nəzərə çatdırdı. Prezident İlham Əliyev Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğuladı.

Fransanın Cənubi Qafqazda regional sabitliyi pozmaq cəhdləri boşa çıxmaqda davam edir. Bütün məkrli niyyətlərə rəğmən Azərbaycanın bölgədə nüfuzu daha da möhkəmlənir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## İcma: "Ermənistanın özünü beynəlxalq hüquqa sadiq tərəf kimi göstərməsi "timsah göz yaşları" tökməkdən başqa bir şey deyil"

**"Ermənistanın baş naziri Nikol Paşinyan son müsahibəsində növbəti dəfə yalan danışmış və Azərbaycana böhtan atmışdır. Bu, həmin Ermənistandır ki, 30 il ərzində beynəlxalq hüququ, BMT Nizamnaməsini, elə Nikol Paşinyanın xüsusi olaraq istinad etdiyi 1991-ci il Almatı Bəyannaməsini pozaraq Azərbaycan ərazilərini işğal etmişdir. Bu, həmin Ermənistandır ki, 2022-ci ilin sentyabr ayına qədər siyasi leksikonunda "ölkələrin ərazi bütövlüyü və suverenliyi" ifadəsi yer almamışdır".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda bildirilib ki, 2019-cu ildə vaxtilə işğal edilmiş ərazilərdə "Qarabağ Ermənistandır və nöqtə" deyən, Vətən müharibəsi zamanı Azərbaycan ərazilərində hərbi toplantılar keçirib hücum əmri verən, biz qərbi azərbaycanlıların qayıdış hüququnu inkar edən bir şəxsin Azərbaycanın qələbəsindən sonra acınacaqlı vəziyyətə düşərək indi özünü beynəlxalq hüquqa sadiq tərəf kimi göstərməsi "timsah göz yaşları" tökməkdən başqa bir şey deyil.

"Bir yandan "Qarabağı Azərbaycan ərazisi kimi tanıyırıq" deyib, o biri tərəfdən 2021-2026-cı il üzrə Ermənistan hökumətinin fəaliyyət planında "Dağlıq Qarabağın statusu", "xilas naminə ayrılma" kimi Azərbaycanın suverenliyini təhdid edən qondarma ifadələrə yer verməklə, beynəlxalq məhkəmələrə iddialarda Qarabağı Azərbaycandan kənar bir ərazi kimi təqdim etməklə sülh müqaviləsi olmur", - deyə bəyanatda qeyd edilib.

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Aİ-nin Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb

**Fevralın 12-də Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasındakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb.**



Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Aİ-nin Ermənistandakı Monitorinq Missiyasının əldə edilmiş ilkin razılıqlara zidd olan fəaliyyətinin ciddi narahatlıq doğurduğu bir daha diqqətə çatdırılıb.

Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə edildiyi vurğulanıb.

Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə töhfə verən "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb. İstisnasız olaraq bu qəbildən bütün səfərlərdən Azərbaycana qarşı nifrətin yayılması, habelə əsassız Azərbaycanofobiyanın genişləndirilməsi üçün istifadə edildiyi bildirilib.

"Binokl diplomatiyası"nın bu fəallığının sərhəd boyunca indiyədək görülməmiş sakitliyin hökm sürdüyü, habelə həm Azərbaycanın, həm də Ermənistanın ciddi etimad quruculuğu tədbirləri həyata keçirdiyi bir zamanda müşahidə olunmasının xüsusilə narahatlıq doğurduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, monitorinq missiyasının məsul olduğu bölgələrdə qanunsuz keçid cəhdinin qarşısının alınması ilə bağlı son hadisə onun bəyan edilmiş tapşırıqlarına ciddi kölgə salır.

Bu qəbildən narahatlıq doğuran fəaliyyət heç bir şəkildə qeyd olunan missiyanın neytral bir aktor kimi inam və etimad quruculuğuna töhfə verməklə bağlı bəyan edilmiş məqsədlərinə uyğun gəlmir.

Həmçinin Ermənistan ərazisində yerləşdirilən missiyanın bəyan edilmiş mandatına uyğun olaraq neytral, mülki və silahsız missiya kimi fəaliyyət göstərməsi, habelə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş və ya onun legitim təhlükəsizlik maraqlarına bu və ya digər şəkildə təsir edəcək hər hansı fəaliyyətdən çəkinməsini təmin etmək üçün bütün lazımi tədbirlər görməyə dair Aİ tərəfinə ciddi şəkildə çağırış edilib.

## AŞPA demokratik dəyərləri tapdalayır

"Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra müəyyən dairələr ölkəmizə qarşı qərəzli yanaşma ortaya qoyurlar. Bütün bunlar beynəlxalq hüququn və ədalət prinsiplərinin açıq-aşkar pozulması şəraitində baş verir. Azərbaycana qarşı riyakar mövqe tutan Avropa Parlamenti ilə yanaşı, Avropa Şurası Parlament Assambleyası (AŞPA) da özünün "erməni sevgisi" naminə ali dəyərlərini tapdalayır. Qurumun qış sessiyasında ölkəmizlə bağlı verilən qərar bunu təsdiqləyir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat bildirib ki, AŞPA Ermənistanın 30 illik işğal siyasətinə qarşı heç bir tədbir görməyib. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. 2001-ci ildə Azərbaycan bu təşkilata üzv olarkən onun Ermənistanın işğalçı siyasətinə qarşı ciddi addımlar atacağına ümid edirdi. Lakin ötən dövrün təcrübəsi göstərdi ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə edirlər.



Pərvin Kərimzadə qeyd edib ki, AŞPA nəinki Ermənistanın işğalçı siyasətini tanımadı, əksinə erməni lobbisinin maraqlarına uyğun olaraq ölkəmizə qarşı müxtəlif vaxtlarda qərəzli qətnamələr qəbul etdi: "Avropa Şurasının əsas meyarı insan hüquqlarının qorunmasıdır. Bu təşkilat isə Ermənistanın işğalçı siyasəti nəticəsində yüz minlərlə azərbaycanlının doğma yurdlarından məcburi köçkün düşməsini görməzdən gəldi. Bu, Azərbaycana qarşı tətbiq edilən ikili standartların bariz nümunəsidir. Görünən odur ki, AŞPA müxtəlif Avropa ölkələrinin islamofob və türkofob təfəkkürlü nümayəndələrinin düşərgəsidir".

Deputatın sözlərinə görə, qış sessiyasında AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələrinin təsdiq edilməməsi onların qərəzini açıq-aydın ortaya qoydu. Bu təşəbbüsü Almaniyanı təmsil edən, sosialistlər siyasi qrupunun rəhbəri Frank Şvabe irəli sürdü və həmin təşəbbüs təsdiqləndi. Bu təşəbbüs formal olaraq almaniyalı deputat Frank Şvabe tərəfindən irəli sürülsə də, məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu, sadəcə sosialistləri qabağa verdiyi bilinən faktdır. AŞPA-nın sabiq və qüvvədə olan prezidentinin əleyhimizə səs verməsi təşkilat rəhbərliyinin mövqeyinin göstəricisidir.

"Ümumiyyətlə, AŞPA-da Azərbaycana qarşı gedən proses təsadüfi deyil. Təşkilatın bu davranışı Fransanın ölkəmizə qarşı kampaniyasının davamıdır. Aydındır ki, Fransa və Almaniya tandem şəklində çıxış edirlər. AŞPA-da Azərbaycana qarşı qəbul edilən qərəzli qərar Fransanın təhriki ilə baş tutub. Ümumiyyətlə, Cənubi Qafqazda sülhün yaranmasına ən böyük əngəl törədən Fransadır. Azərbaycanın erməni işğalına son qoyaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Parisə rahatlıq vermir. Beynəlxalq müstəvidə ölkəmizə qarşı qərəzli kampaniya aparan Fransa öz casuslarını da regiona göndərməkdən çəkinməyib. Bu ölkə vaxtilə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olsa da, münaqişənin ədalətli həlli üçün heç bir addım atmayıb. Bu gün isə açıq-aşkar Ermənistana havadarlıq edir. Ötən ilin sonlarında isə Fransa ilə Ermənistan arasında silah tədarükü haqqında müqavilə imzalanması Parisin Cənubi Qafqazda müharibənin yenidən alovlanmasında maraqlı olduğunu göstərir", - deyə Pərvin Kərimzadə vurğulayıb.

Deputat onu da deyib ki, Ermənistanın havadarlarının qərəzli addımları fonunda Azərbaycanın Avropadakı dostları AŞPA-nın ədalətsiz qərarına qarşı etiraz səsini ucaldırlar: "Buna nümunə olaraq, Serbiyanın AŞPA-dakı nümayəndə heyətinin Assambleyanın sədri Teodoros Rousopoulosa etiraz müraciəti ünvanlamasını göstərmək olar. Serbiyanın nümayəndə heyəti ötən ilin dekabrın 17-də ölkədə keçirilən parlament seçkilərindən sonra Milli Assambleyanın formalaşması prosesinin davam etməsi ilə əlaqədar bu qətnamə ilə bağlı səsvermədə iştirak edə bilməyib. Buna baxmayaraq, AŞPA sədrinə etiraz müraciətində Serbiya nümayəndə heyəti Azərbaycan nümayəndə heyətinə qarşı olan münasibətə və olduqca şübhəli əsaslarla qəbul edilmiş qətnamə ilə əlaqədar öz narazılığını diqqətə çatdırıb. Serb həmkarlarımız əminliklə ifadə ediblər ki, qətnamə AŞPA daxilində səmimi dialoqdan geriyə addım atmaq deməkdir və bu, yalnız davam edən qütbləşməyə təkan verir. Bu, həmçinin Assambleya daxilində dəyərlərin deqradasiyasının dərinləşməsinin göstəricisidir. Serbiyanın AŞPA-dakı nümayəndə heyəti qəbul edilmiş qətnaməyə qəti etirazını bildirib, Avropa Şurasının reputasiyasına və müəyyən edilmiş roluna mənfi təsirlərin qarşısını almaq məqsədilə onu yenidən nəzərdən keçirməyə çağırıb".

Pərvin Kərimzadə hesab edir ki, Serbiya parlamentarilərinin haqlı mövqeyi AŞPA-nın imicinin Avropa məkanında da nə qədər aşağı düşdüyünü göstərir. Əgər təşkilat özünün beynəlxalq miqyasda nüfuzunu qorumaq istəyirsə, ikili standartlardan uzaq olmalı, hansısa ermənipərəst dairələrin əlində alətə çevrilməməlidir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## AŞPA qərəzli qərarları ilə məqsədinə çata bilməyəcək

Azərbaycan torpaqlarının 20 faizi 30 ilə yaxın Ermənistanın işğalında qaldı. Bu illər ərzində az-çox səlahiyyəti olan heç bir beynəlxalq təşkilat təcavüzkar ölkəyə təzyiq göstərmək üçün işğalı pisləyən bəyanat vermədi. İşğalçını işğalçı kimi tanımadı. Amma Azərbaycan öz gücü hesabına torpaqlarını azad edən kimi beynəlxalq təşkilatlar sanki diksinib yuxudan ayıldılar. Ayılanda da gördülər ki, Azərbaycan güclü, qüdrətli ordusu ilə erməni qəsbkarlarını, işğalçı qüvvələri ərazisindən qovub, torpağını azad edib.




Uzun illər erməni qəsbkarlarına bir söz deməyən beynəlxalq təşkilatlar başladılar işğala məruz qalan ölkəyə qarşı qərəzli mövqe tutmağa. Əbədi-əzəli torpaqlarını işğaldan azad etmiş Azərbaycan bu təşkilatların xoşuna gəlmədi. Ölkəmizə qarşı olan qərəzli münasibətdən aydın görünən odur ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində Ermənistan üzərində qazandığı qələbə bu təşkilatların yuxusunu qaçırıb.

Azərbaycanın uğurlarından yuxusunu qaçıran belə təşkilatlardan biri də Avropa Şurası Parlament Assambleyasıdır. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycana qarşı bu təşkilat qərəzli mövqe nümayiş etdirir. Ölkəmiz haqqında heç bir əsası olmayan bəhanələr uydurur. Fransanın və erməni lobbisinin ciddi təsiri altında olan, anti-Azərbaycan bəyanatlarla çıxış edən bu təşkilat hadisələrin gedişinə ikili standartlarla yanaşır. Belə yanaşması ilə bu qurum işğalçının mövqeyində dayanır və ədalətsizcəsinə Azərbaycanın səsini dondurmaq təşəbbüsü ilə çıxış edir. Hər vəchlə müstəqil xarici siyasət yürüdən, gündən-günə inkişaf edən, iqtisadi gücünü, beynəlxalq nüfuzunu artıran, dünyada söz sahibinə çevrilən Azərbaycana qarşı haqsız hədyanlar yağdırır. 30 il Azərbaycan torpaqlarının işğalına göz yuman, heç bir sülh təşəbbüsü ilə çıxış etməyən AŞPA-nın bu mövqeyi qərəzin ən yüksək həddidir. Əgər bu təşkilat özünü demokratik, obyektiv bir beynəlxalq qurum hesab edirsə, nəyə görə uzun illər ərzində susqunluq nümayiş etdirdi? Nəyə görə Ermənistanın Azərbaycana qarşı işğalına göz yumdu? Amma Azərbaycan işğala son qoyan kimi AŞPA-nın gözü açıldı.

AŞPA-nın Azərbaycana qarşı qərəzli mövqeyinin Fransadan və erməni lobbisindən qidalandığını bütün dünya bilir. Ölkəmizə qarşı bu ədalətsiz münasibət Azərbaycanofobiya və islamofobiya təfəkkürlü avropalı deputatların korrupsiya və rüşvətxor əməllərinin təzahüründən başqa bir şey deyil. Hamıya məlumdur ki, Avropa Şurası Parlament Assambleyası da daxil olmaqla, Qərbin əksər təşkilatlarında müxtəlif siyasi-iqtisadi lobbi qrupları kök atıb. Bu təşkilatlar uzun illər məhz bu qrupların maraqlarının xidmətçisi rolunda çıxış ediblər.

Anti-Azərbaycan qüvvələrinin sözçüsü funksiyasını yerinə yetirən almaniyalı deputat Frank Şvabe də bu qrupun siyahısına daxildir. Adını çəkdiyimiz deputat bütün fəaliyyətini anti-Azərbaycan, erməni lobbisinin maraqlarının müdafiəsi istiqamətində qurub. Bakıya qarşı aparılan əks-təbliğatda xüsusi fəallıq göstərən F.Şvabe mediaya verdiyi açıqlamasında haqqında deyilənləri, bir növ öz sözləri ilə təsdiq etdi. Haqsızlığa bax ki, demokratiyadan dəm vuran AŞPA-nın deputatı işğalçı ilə işğala məruz qalan arasında heç bir fərq qoymur. Təbiidir ki, belə birisinin söylədikləri məntiqsizlikdən başqa bir şey olmayacaq. Ən acınacaqlı hal isə qatı ermənipərəst mövqe nümayiş etdirən Fransaya Almaniyanın qoşulması və ölkəmizə qarşı birlikdə çıxış etmələridir. Məlum olduğu kimi Fransa Emmanuel Makronun timsalında xarici və daxili siyasətdə ağır uğursuzluğa düçar olub, bataqlığın içindədir. Görünür ki, almaniyalı deputat qonşusunu xilas etməyə, onu bataqlıqdan çıxarmağa çalışır. Amma çətin ki, F.Şvabe Fransanı xilas edə bilsin. Çünki onun özünün də haqsızlıq bataqlığında batmaq təhlükəsi var.

AŞPA qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiqləməməsi ölkəmizə uzun illərdir göstərilən ikili, qərəzli yanaşmanın davamıdır. Azərbaycan xalqına və dünya ictimaiyyətinə AŞPA və bu kimi təsisatların məkrli siyasəti çoxdan məlumdur. Təşkilatın fəaliyyəti, demək olar ki, Fransa başda olmaqla bir neçə dövlətin məkrli maraqları üzərində qurulub və onların əlində siyasi təzyiq alətinə çevrilib.

Artıq bir çox dövlətlər, hətta düşmən Ermənistan da etiraf etməyə başlayıb ki, Qarabağ problemi həll olunub. Belə olan halda heç bir nüfuzu olmayan Avropa Şurasının çıxaracağı qərar kağız parçasından başqa bir şey deyildi. Qərəzli və ikili mövqedən çıxış edən təşkilata Azərbaycanın ehtiyacı yoxdur. Əksinə, Avropanın Azərbaycana ehtiyacı var. AŞPA-nın məlum qərarından sonra Azərbaycan nümayəndə heyətinin bu qurumda fəaliyyətini dayandırması təşkilatın özünə ağır zərbədir. Belə qərəzli, iküzlü addımı ilə AŞPA özünü dünyada gözdən salır, başqa ölkələrin ona bəslədikləri inamı itirir.

Ərazi bütövlüyünü, suverenliyini təmin edən, separatçı qüvvələri zərərsizləşdirən, ümumilikdə regionun hərtərəfli inkişafına geniş imkanlar açan güclü Azərbaycanı hədəf almaq, onun sülh səylərinə süni manelər yaratmaq AŞPA-nın məkrli və hiyləgər planlarından xəbər verir. Aydın görünür ki, Azərbaycanın gündən-günə inkişaf etməsi, artan iqtisadi qüdrəti, tam müstəqil siyasət həyata keçirməsi dünyanın bəzi dövlətlərini, o cümlədən Fransanı çox narahat edir. Məhz Parisin diqtəsinə baş əyən AŞPA Azərbaycan əleyhinə məntiqsiz və əsassız qərarlar qəbul edir. Müxtəlif çirkin vasitələrlə ölkəmizin haqq işinə kölgə salmağa çalışır. Amma qərəz və böhtan dolu qərarlarla AŞPA məqsədinə nail ola bilməyəcək. Çünki Azərbaycanın işi haqq işidir. Haqlı olanlar isə həmişə qalib gəlirlər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Ermənistanın növbəti saxtakarlığı

### Ölkəmizə verilən mina sahələrinə dair yeni formulyarlarda da məlumatlar qeyri-dəqiqdir

Ermənistan 30 il ərzində işğal altında saxladığı torpaqlarımızda 1 milyondan çox mina basdırıb. 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan xalqını hədəf alan terror siyasətini davam etdirərək ərazilərimizi minalamaqda davam edib. Beynəlxalq ictimaiyyətin gözü qarşısında insanlıq cinayətləri törədən təcavüzkar Hayastanın dəqiq mina xəritələrini ölkəmizə təhvil verməməsi nəticəsində bu günə qədər vətəndaşlarımız mina terrorunun qurbanına çevrilir, həlak, yaxud şikəst olurlar.




### Etibarsız və natamam

Bu günlərdə Ermənistanın təqdim etdiyi növbəti mina sahələrinə dair formulyarlarda məlumatların da əvvəlkilər kimi qeyri-dəqiq, etibarsız və natamam əks olunduğu məlum olub. Belə ki, Ermənistan tərəfi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud olan mina sahələrinə dair 8 ədəd formulyarı Azərbaycan tərəfinə təqdim edib. Təqdim olunan məlumatlar əsasən Kəlbəcər rayonu Murovdağ silsiləsini əhatə edən minalanmış ərazilərə dair qeydlərdən ibarətdir.

Bununla əlaqədar Azərbaycan Minatəmizləmə Agentliyindən (ANAMA) bildirilib ki, normativ texniki qaydalara əsasən, mina sahələrinin formulyarlarında istinad nöqtələri, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə üsullarına dair məlumatlar qeyd olunur. Lakin əvvəl olduğu kimi son təqdim edilən formulyarlarda da məlumatlar qeyri-dəqiq, etibarsız və natamamdır. Təhlil və emal işləri aparıldıqdan sonra qeyd edilən məlumatların real mina sahələri ilə uzlaşmadığı, istinad nöqtələrinin koordinatlarının yanlış və yararsız olduğu müəyyən edilib.

Ümumilikdə mina sahələrinə dair Ermənistan tərəfindən təqdim edilən formulyarlar keçmiş təmas xətti boyu ərazilərin bir qismini əhatə edir. Lakin keçmiş təmas xəttinin Xocavənd, Tərtər və Goranboy rayonları ərazisindən keçən hissəsi, habelə 2020-ci ilin noyabr ayında geri çəkilən zaman Ermənistan hərbi birləşmələri tərəfindən minalanmış ərazilər barədə məlumatlar hələ də təqdim edilməyib.

Ermənistan tərəfindən Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında basdırılan mina sahələrinə dair 2021-ci ildə verilmiş məlumatların dəqiqliyi 25 faiz təşkil edib.

Məlumatda o da qeyd olunur ki, baş verən mina hadisələrinin statistikasına nəzər salsaq, təkcə keçmiş təmas xətti boyu ərazilərin deyil, eyni zamanda yaşayış məntəqələrinin, əkin sahələrinin, çay kənarlarının, meşə massivlərinin, məzarlıqların minalarla yüksək səviyyədə çirkləndiyinin şahidi oluruq. İkinci Qarabağ müharibəsindən sonra 345 nəfər mina qurbanından 247 nəfəri keçmiş təmas xəttindən kənarda baş verən mina hadisələri nəticəsində həlak olub və ya müxtəlif dərəcədə bədən xəsarətləri alıb.

### Terrorçu xislət

Ermənistan mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanmasını həyata keçirərək beynəlxalq hüququn normalarını ciddi şəkildə pozub.

Dəqiq mina xəritələrinin verilməməsi həm də sürətli Böyük qayıdışa əngəl olan başlıca maneədir. Çünki belə geniş ərazilərin minalardan təmizlənməsi xeyli zaman və resurs tələb edir. Hazırda da təcavüzkar ölkə insanlıq əleyhinə cinayətlərini davam etdirərək, dəqiq mina xəritələrini Azərbaycana verməkdən riyakarlıqla yayınır.

O da erməni riyakarlığına bir başqa sübutdur ki, xeyli müddət idi ki, İrəvan torpaqlarımızın minalamasına dair faktları inkar edir, həyasızlıqla onlarda mina xəritələrinin olmadığını iddia edirdi. Amma Azərbaycan tərəfinin bu istiqamətdə apardığı işlər, Ermənistanın mina cinayətləri ilə bağlı dəlilləri Beynəlxalq Ədalət Məhkəməsinə təqdim etməsi və sair məsələlər nəticəsində İrəvan mina xəritələrinə malik olmasını boynuna aldı. Ancaq bu dəfə də təcavüzkarlar Azərbaycan ərazilərində basdırdıqları minaların dəqiq xəritələrini verməməklə öz terrorçu xislətlərini ortaya qoydular.

Göründüyü kimi, beynəlxalq cəzasızlıq mühitindən yararlanan Ermənistan bu bədnam əməli ilə insanlarımıza qarşı qətliamını davam etdirmək kimi murdar niyyət güdür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***












# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR

# İlham Əliyevin xeyir-duası ilə "Qobu Park"dan Şərqi Zəngəzura...

**2020-ci il mayın 28-i - Müstəqillik Günündə Prezident İlham Əliyev "Qobu Park-3" yaşayış kompleksində məcburi köçkünlərə mənzillərinin açarlarını təqdim etmiş, eyni zamanda ilk dəfə olaraq qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazidə yaradılan istehsal müəssisələrinin açılışını edərək xeyli sayda insana daimi iş yeri sevinci yaşatmışdı.**




"O gün bütün keçmiş məcburi köçkünlər kimi mənim də sevincimin hədd-hüdudu yox idi. Həm rahat, geniş, hər cür şəraiti olan mənzilə, həm də elə bu kompleksin içərisində çörək qazanacağım daimi iş yerinə sahib olmuşdum. Amma o zaman heç xəyalıma belə gətirməmişdim ki, cəmi 5 aydan sonra cənab Prezident İlham Əliyev məcburi köçkünlərə həyatımızın ən böyük xoşbəxtliyini yaşadacaq, 30 illik yurd həsrətimizə birdəfəlik son qoyacaq... Hər zaman bizə göstərdiyi diqqətə və qayğıya, illərdir arzusunda olduğumuz Zəfərə görə dövlət başçımız İlham Əliyevə nə qədər minnətdarlıq etsək də azdır..."

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə "Qobu Park-3" yaşayış kompleksində fəaliyyətə başlayan "Gill Med" Qapalı Səhmdar Cəmiyyətində həmsöhbət olduğumuz Sücaət Hətəmova səsləndirir bu fikirləri...

Cəbrayılın Arazmaşanlı kəndindən olan 61 yaşlı Sücaət xanım sözügedən müəssisə açılanda burada dərzi kimi fəaliyyətə başlayıb, daha sonra isə baş usta olub. O bildirir ki, yaşadığı ərazidə peşəsi üzrə işdə çalışması onun üçün böyük şans olub: "Amma tezliklə Cəbrayıla dönəcəyim günü də səbirsizliklə gözləyirəm. Burada olduğu kimi, dövlətimiz dədə-baba yurdlarımızda da yeni yaşama başlamağımız üçün hər cür şərait qurub-yaradır..."

## Biznesin sosial yönümü

Ötən 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin olunması istiqamətində mühüm işlər həyata keçirilib. 2020-ci ilin sentyabrına qədər isə ölkəmizdə əlamətdar günlərdə, bayramlarda dövlət başçısının iştirakı ilə bu vətəndaşlarımız üçün sosial, ictimai əhəmiyyət kəsb edən obyektlərin istifadəyə verilməsi də xoş ənənəyə çevrilmişdi. Hazırda isə Qarabağı və Şərqi Zəngəzurda yaşayış məntəqələri salınır, yeni infrastruktur qurulur, qayıdışı həyata keçirilən keçmiş məcburi köçkünlərin işlə təmin olunmaları üçün lazımi imkanlar yaradılır.

2020-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdiyi "Gill Med" QSC də KOBİA-nın və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı və dəstəyi çərçivəsində məcburi köçkünlərin məşğulluğunun biznes layihələr vasitəsilə təmin olunması məqsədilə fəaliyyətə başlayıb. Layihə yalnız sosial əhəmiyyəti ilə seçilmir, eyni zamanda biznesyönümlüdür. Belə ki, bu müəssisədə istehsal olunan məhsullar rəqabətqabiliyyətlidir və idxalı əvəz etmək potensialına malikdir. Müəssisənin ən müasir avadanlıqlarla təchiz edilməsi yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsulların istehsal olunmasını təmin edir. Üç il əvvəl tibbi tekstil, steril cərrahi setlər və uniformaların istehsalı məqsədilə işə başlayan müəssisə bu gün bazarda 80-dən çox məhsul çeşidi ilə tanınır.

"Gill Med" bizneslə yanaşı, sosialyönümlü layihə olduğundan burada çalışan işçi heyətin 95 faizi "Qobu Park-3"ün sakinlərindən formalaşdırılıb və onların əksəriyyəti qadınlardır. Hazırda müəssisədə 100-dən çox işçi çalışır.





Xüsusi vurğulanası məqamdır ki, 2022-ci ildə işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın başlanğıcı olan Zəngilan rayonunun Ağalı kəndində KOBİA-nın dəstəyi ilə ilk istehsal müəssisəsi olan "Gill Med" tikiş fabriki fəaliyyətə başlayıb. Həmin ilin may ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndində "Gill Med" tikiş fabrikinin istehsal prosesi ilə tanış olub. Dövlət-özəl sektor tərəfdaşlığı əsasında yaradılmış bu tikiş fabrikində hazırda 30 nəfər işçi heyəti çalışaraq tibbi təyinatlı tekstil məhsulları, o cümlədən tibbi maska, baxil və uniforma istehsal edirlər.

"Gill Med"in bir başqa qürurlu ünvanı isə Cəbrayılın Cocuq Mərcanlı kəndidir. Altı ay əvvəl burada açılan yeni tibbi ləvazimatların istehsalı müəssisəsində 12 nəfər çalışır.




## Hədəf ixracdır

"Fəaliyyətə başladığımız üç ildən çox müddətdə demək olar ki, biznes hədəflərimizi və planlarımızı 4-5 dəfə üstələmişik. Bu da sözsüz ki, dövlət dəstəyi ilə investisiya qoyuluşu, sərmayənin təqibi, satış bazarına çıxış və digər vacib məsələlərin üst-üstə düşməsi ilə birbaşa bağlıdır", - deyən müəssisənin rəhbəri Rüstəm Məmmədov söyləyir ki, onlar üç istiqamətdə fəaliyyət göstərirlər: tibbi steril geyimlər, qeyri-tibbi steril geyimlər istehsal edirlər və naxış xidməti həyata keçirirlər.




O bildirir ki, Ağalıda, Cocuq Mərcanlıdakı müəssisələrdə böyük həvəslə çalışan əməkdaşlar mühüm irəliləyişlər əldə ediblər: "Məsələn, biz maskanın istehsalı üçün Türkiyədən mütəxəssislər gətirirdik. Amma bu işdə heç bir təcrübəyə malik olmayan ağalılı evdar qadınlar qısa zamanda bu işi öyrənərək maska aparatını özləri işlətməyə başladılar".

Müəssisənin 2024-cü ildə ən böyük hədəfi xaricə məhsul ixracıdır və artıq bu istiqamətdə iş aparılır, Türkiyəyə baxil ixracının həyata keçirilməsi üçün çalışırlar.

Burada "Dərzi və kəsim", "Sterilizə setlərin istehsalı", "Baxil istehsalı", "Qablaşdırma" və sair kimi bölmələr var.

"Dərzi" bölməsində göy uniformalı, ağ başlıqlı xanımlar müasir tikiş cihazlarının arxasında əyləşərək həvəslə ağ, yaşıl, göy rəngli tibbi dəstlər tikirdilər. Baş usta ilə söhbətimiz zamanı o işçilərini tərifləyərək söylədi ki, burada çalışan xanımların hər biri işini yaxşı bilən ustadır və tapşırıqları bir göz qırpımında yerinə yetirirlər.

## "İş yerim evimizə yaxın olduğu üçün çox əlverişlidir"

Müəssisədə kəsim işini həyata keçirən Füzuli rayonunun Horadiz qəsəbəsindən olan 27 yaşlı Nicat Əhmədov deyir ki, tekstildə ən böyük məsuliyyət kəsimdədir. Parçada hansı ölçü verilirsə, ona uyğun cizim aparıb parçanı kəsmək lazımdır. Azacıq yanlışlıq bütün işləri korlaya bilər: "Ona görə də çalışıram işimin öhdəsindən məsuliyyətlə və layiqincə gəlim".

"Sterilizə setlərin istehsalı bölməsi"nə isə kənar adamların girişi qadağandır. Burada çalışan xanımların hamısı xüsusi geyimdə, başıörtülü vəziyyətdə çalışırlar. Bu bölmə gündə bir neçə dəfə təmizlənir ki, adi bir sap belə istehsal olunan mallara qarışmasın. Bu bölmədə əməliyyat üçün, məsələn, "ümumcərrahi", "göz" və sair əməliyyatlar üçün setlər yığılır. Daha sonra isə həmin mallar qablaşdırılaraq "steril otağa" göndərilir. Sözügedən otaqda mallar sterilizə olunur. Sonra paketlərə yığılır və bir sutka keçəndən sonra istifadə üçün müəssisələrə göndərilir.

Steril şöbənin rəhbəri Ağdam rayonunun Qaradağlı kəndindən olan 34 yaşlı Fatimə Ləléşova bir ildən artıqdır burada çalışır. O xüsusi vurğulayır ki, bu müəssisənin evlərinə yaxın olması çox əlverişlidir: "İşim həm çox məsuliyyətli, həm də maraqlıdır. Bütün gücümlə çalışıram ki, öhdəsindən gələm".

Cəbrayıl rayonu Şahvəli kəndindən olan 43 yaşlı Lamiyə Kərimova isə 3 ildir ki, bu müəssisədə çalışır. Xüsusi maşınla mallara naxış, loqo vurur. O da işini həvəslə gördüyünü qeyd edir.

Bu müəssisə həm də baxil, müayinə masa örtüsü və polietilen istehsalı ilə də məşğuldur. İstehsal yerində 10 nəfərə yaxın keçmiş məcburi köçkün işlə təmin olunub.

## "Prezident İlham Əliyev bizə dünyaları bəxş edib"

Biz "Gill Med"in "Xarıbülbül" xalçaçılıq müəssisəsinə baş çəkəndə isə sıra-sıra düzülmüş dəzgahların arxasında əyləşmiş xanımlar həvəslə toxuduqları xalçalara növbəti rəngli ilmələrini vururdular. Öyrəndik ki, xalçaçılar hazırda Şirvan bölgəsinə məxsus göllərdən ibarət "Zeyvə" xalçası toxuyurlar və iki aya bitirəcəklər. Nəzarətçi xalçaçı texnoloq Cahan Qədirova məlumat verdi ki, xalçaçılıq müəssisəsi fəaliyyətə Qarabağ xalçaları - "Malıbəyli", "Qasımuşağı", "Çələbi", "Nəlbəki" kimi xalçaları toxumaqla başlayıb.

Həmsöhbətimiz Ağdam rayonundan olan Sevil Qəmbərova dedi ki, 40 ildən çox xalçaçılıq stajı var. Vaxtilə Ağdamda xalça fabrikində əvvəl toxucu, sonra briqadir olub, Bakıda da bir neçə xalçaçılıq sexində işləyib. "Qobu Park-3"ə köçdükdən sonra isə "Xarıbülbül"də çalışmağa başlayıb.

Bu da Allahın bir möcüzəsi idi ki, Sevil xanım 2020-ci ilin noyabrında xalça üzərində Ağdam Cümə məscidini toxuduğu zaman doğma rayonunun işğaldan azad olunması xəbərini eşidir. Və o an yaşlı qadının yaşadığı xoşbəxtlik hissindən sevinc göz yaşları toxuduğu ilmələrə qarışaraq Ağdam Cümə məscidinin xalça üzərindəki təsvirinin üzərinə yağış kimi yağmağa başlayır...

"Biz keçmiş məcburi köçkünlər hər zaman Prezident İlham Əliyevin diqqət və qayğısını öz üzərimizdə hiss etmişik. Dövlətimiz bizə ev də verib, işlə də təmin edib. Amma Qalib Prezidentimiz İlham Əliyev torpaqlarımızı azad etməklə bizə dünyaları bəxş edib. Bu gün dədə-baba yurdlarımıza qayıdırıq. Mən də səbirsizliklə Ağdama gedəcəyim günü gözləyirəm".

## Qarabağ və Şərqi Zəngəzurda görüşənədək...

Xocalının Meşəli kəndindən olan 48 yaşlı toxucu Xoşbəxt Kazımovanın nənəsi və qayınatası kəndləri işğal olunan zaman şəhid olub. Çox məşəqqətli günlərdən keçdiklərini söyləyən Xoşbəxt xanım, bu müəssisədə çalışmasının maddi baxımdan ailələrinə xeyli kömək olduğunu bildirir: "Yarandığı gündən burada işə başladım, xalça toxumağı da "Xarıbülbül"də öyrəndim. Sağ olsun dövlət başçımız İlham Əliyev ki, bu yaşayış kompleksində bizə həm də işləmək üçün imkan yaradıb. Biz işləyərək ailəmizin, uşaqlarımızın dolanışığını təmin edə bilirik".

Xoşbəxt xanım danışır ki, Xocalının azad olunma xəbərini eşidəndə indi sözlərlə təsvir edə bilməyəcəyi hisslər yaşayıb: "Həm ağlayır, həm sevinirdim. Bütün uşaqlığım, gəncliyim orada keçib. Ən sevincli, ən kədərli günlərim də ora ilə bağlıdır. Amma qara günlər arxada qalıb. İndi Xocalının işıqlı zamanları yetişib. Ən böyük arzum odur ki, vaxtilə bizim yaşadığımız faciələri, zülmləri bir daha körpələrimiz, uşaqlarımız, gənclərimiz yaşamasın..."

"Qobu Park-3" yaşayış kompleksində fəaliyyətə başlayan sosisalyönümlü biznes layihəsi olan "Gill Med" müəssisəsində qısamüddətlik də olsa iş prosesi ilə yaxından tanış olduq. Tibbi tikiş istehsalı ilə məşğul olan, xalça toxuyan xeyli sayda keçmiş məcburi köçkünlə peşələri barədə söhbət etdik, ötən günləri ilə bağlı xatirələrinə maraqla qulaq asdıq, ən ümdəsi isə onların yurdlarına dönəcəklərinin sevinclərini bölüşdük...

Və peşəkar, güləruz, xoşsöhbət "Gill Med" ailəsinin üzvləri ilə tezliklə Qarabağ və Şərqi Zəngəzurda görüşmək diləyi ilə sağollaşıb ayrıldıq...

***Yasəmən MUSAYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***






# Naxçıvan MR Həmkarlar İttifaqları Şurasının rəsmi saytının təqdimatı olub

**Təqdimat mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kollektivi təbrik edərək, Naxçıvan Həmkarlar İttifaqları Şurasının 2023-cü ili uğurla başa vurduğunu bildirib, nailiyyətlərin davamlı olmasını diləyib.**




Qeyd edilib ki, "Heydər Əliyev İli" çərçivəsində ötən il ölkəmizdə olduqca əlamətdar və faydalı tədbirlər keçirilib. Qeyri-hökumət təşkilatlarının bu istiqamətdə fəaliyyəti də yüksək qiymətləndirilməlidir. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası da ötən il Naxçıvanda keçirilən bir sıra tədbirlərin, xüsusilə sosial layihələrin təşkilində fəal iştirakı ilə seçilib. Həmçinin aparılan struktur dəyişiklikləri və kadr islahatları şuranın fəaliyyət imkanlarını daha da genişləndirib. Bu gün rəsmi saytın istifadəyə verilməsi də Həmkarlar İttifaqları Şurasının daha bir uğurudur.

Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev çıxışında qeyd edib ki, sayt müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi, həmçinin ictimai fəaliyyəti gücləndirmək və media ilə əlaqələrin daha dinamik şəkildə qurulmasını təmin etmək məqsədilə yaradılıb. Şura bundan sonra da muxtar respublikanın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdə və sosial layihələrdə fəal iştirak edəcək.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Rövşən Hüseynov yeni saytın istifadəyə verilməsi münasibətilə təbriklərini çatdırıb, əməyi olan hər kəsə təşəkkür edib.

Sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının rəsmi veb-saytının təqdimatı olub.

Şuranın mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı Xoşqədəm Rəhimli məlumat verib ki, rəsmi sayt kodlama üsulu ilə ən təkmil və müasir formada hazırlanıb, bütün təhlükəsizlik tədbirləri görülüb. "nmrhis.az" domen adında fəaliyyətə başlayan sayt sadə dizaynı, istifadəçi rahatlığı və texniki imkanları baxımından müasir standartlara tam cavab verir.

# Oğuz sakinindən maraqlı təşəbbüs

**Oğuzun Xaçmazqışlaq kəndinin məhəllə və döngələrində Azərbaycanın tanınmış ədəbiyyat və incəsənət xadimlərinin, Milli qəhrəmanların lövhələrinin quraşdırılması insanlar tərəfindən böyük maraqla qarşılanıb.**










Bu maarifləndirici və vətənpərvər ideyanı həyata keçirən şəxs elə həmin kəndin sakini, təqaüdçü Əbülfət Əsgərovdur.

Xaçmazqışlaq kəndi altı məhəllədən ibarətdir. AZƏRTAC xəbər verir ki, həmin məhəllələrə yerli sakinlər tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti və incəsənətində, eləcə də Qarabağ müharibəsində göstərdiyi şücaətlərə görə fərqlənən insanların adları verilib, burada onların lövhələri quraşdırılıb. Məsələn, kəndin girişində olan ilk məhəllə sakinlər tərəfindən bəstəkar Qara Qarayevin adı ilə tanınır. Milli qəhrəmanlar Polad Həşimov və Mübariz İbrahimov, şairlər Səməd Vurğun və Molla Pənah Vaqifin də adlarına məhəllələr var.

Kəndi addım-adım, məhəllə-məhəllə gəzirik. Məktəbdən evə dönən şagirdlərlə Molla Pənah Vaqifin adını daşıyan məhəllənin girişində qarşılaşırıq. Fürsətdən istifadə edib, məktəblilərə tanıdıcı lövhələrlə bağlı suallar ünvanlayırıq. Məlum olur ki, onlar artıq xeyli müddətdir yaşadıqları məhəllənin adını daşıyan şəxsiyyətlərlə bağlı məlumatlar toplayır və yeri gələndə dərsdə, ya da elə məhəllədə həmin şəxsiyyətlərlə bağlı intellektual oyunlar təşkil edirlər.

XI sinif şagirdi Hikmət Salehli Molla Pənah Vaqif, Səbinə Atakişili isə Nizami Gəncəvi məhəlləsində yaşayırlar. Dərsə bir yerdə gedib-gəlsələr də, hər gün təmsil etdikləri məhəllənin adının verildiyi şəxsiyyət haqqında maraqlı nəsə öyrənməyə, bir-birinə suallar verməyə çalışırlar.

Kənd sakini Eyvaz Süleymanov Nizami Gəncəvi məhəlləsində yaşayır. Dahi şəxsiyyətin tanıdıcı lövhəsi onun evinə yaxın məsafədə yerləşir. Deyir ki, bu ideyanın həyata keçirilməsi gənc nəsil üçün çox önəmlidir. Belə ki, kəndə qonaq gələndə onun hansı məhəlləyə gedəcəyini uşaqdan-böyüyə hamı ilk anda təyin edir. Digər tərəfdən, yeniyetmə və gənclər ədiblərimizi, qəhrəmanlarımızı tanımış olurlar.

Maarifləndirici və vətənpərvər layihə barədə yetərincə məlumat toplayandan sonra onun ideya müəllifi Əbülfət Əsgərovla görüşürük. İxtisasca iqtisadçı, hazırda isə təqaüddə olan Əbülfət müəllim deyir ki, layihəni reallaşdırmaq onun çoxdankı arzusu olub və bu barədə çox fikirləşəndən sonra qərar verib: "Düşündüm və qərara aldım ki, kənddə məhəllələrə adlar verək. Məsələn, qonaq gələndə bilər ki, hansı məhəllədəki evə getmək lazımdır və oranı çox rahat tapar. Fikirləşdim ki, tanınmış şəxsiyyətlərimizin adlarının verilməsi daha yaxşı olar. İlkin olaraq Qara Qarayevi seçdim. Ona görə ki, Qara Qarayev musiqiçilər arasında bir akademikdir, dünyada tanınır. Kəndin girəcəyinə Qara Qarayev adını ona görə verdik ki, hansı kənddə musiqi varsa, orada əmin-amanlıq var, sülh var".

Müsahibimiz Səməd Vurğunun bu kənddə qonaq olduğunu, uzun illər Xaçmazqışlaqdakı dostları ilə əlaqələr saxladığını bildirir və bu baxımdan həmin məhəllənin girişində onun tanıdıcı lövhəsinin quraşdırıldığını söyləyir.

Digər şəxsiyyətlərin də Vətən, dövlət qarşısında xidmətlərini bir-bir sadalayan həmsöhbətimiz, həm də dərin zəka və analitik biliyə malik olduğunu ortaya qoyur.

Əbülfət müəllim bizə kəndin girəcəyində şəhidlərin xatirəsinə ucaldılan abidə kompleksi barədə də məlumat verdi. Bildirdi ki, kompleksin qarşısında qoşa bulaq inşa olunub. Bu abidəni ucaltmaqda məqsəd gəncləri vətənpərvər ruhda böyütməklə yanaşı, həm də nişanlanan, yeni ailə həyatı quran gənclərin həmin bulaqdan su içib əhd-peyman bağlamaları, bir-birinə sədaqətli olmalarıdır. Artıq bir müddətdir, kənddə ailə həyatı quran gənclər bu məkana gələrək şəhidləri anır, həm də qoşa bulaqdan su içərək gözəl ənənəni yaşadırlar.



## ◆ Neftçala qışlağından reportaj

**Neftçala şəhərindən çıxıb üzü cənuba doğru gedirik. Bu yerləri tanımadığımı güman edən yol yoldaşım keçib getdiyimiz kəndlərin adlarını sadalayır. "Həsənabad kəndində bir neçə il bundan əvvəl olmuşam. Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun ata-anası ilə görüşüb haqqında yazı hazırlamışam", - deyirəm.**

Bir neçə binadan ibarət olan yerə çatanda həmsöhbətim deyir ki, qabaqlar bura "26-lar" qəsəbəsi adlanırdı, sovet hökuməti süqut edəndən sonra dağılıb getdi: "Yod Zavodu, neft müəssisələri, rusların yaşadığı çoxlu evlər var idi gördüyünüz bu yerdə. Yaşayış evlərinin yaxınlığında olduğu üçün Yod Zavodunu 10-15 il əvvəl Fövqəladə Hallar Nazirliyi söküb dağıtdı, zavodu kənar yerə - Xəzərin sahilinə köçürdülər. İllər keçdikcə ruslar da buradan köçüb getdilər. "26-lar" adı da onların ardınca cəhənnəmə vasil oldu".

Buruqların arası ilə bir neçə kilometr getdikdən sonra qarşıda göz işlədikcə uzanan geniş bir düzənlik görünür. Bir neçə gün öncə yağan qar tam əriməmişdi, adda-budda yerlərdə hələ də qalırdı. Sükan arxasında oturub diqqətlə sulu-palçıqlı yola baxan Əliməmməd Yəhyayevdən qarın yağmasının onlar üçün bir çətinlik, problem yaradıb-yaratmadığını soruşuram: "Nə çətinlik, əksinə, hər bir kənd təsərrüfatı işçisi, istər heyvandar olsun, istərsə əkinçi, sevinir. Bu qar Allahın göndərdiyi bərəkətdir. Çoxdan idi yanvar ayında Muğana qar yağmırdı. Bu il, maşallah olsun, iki dəfə yağıb. Özü də yaxşı yağıb ha! Bu qar özünü yazda göstərəcək. Doyunca su içən dəmyə torpaq taxılın, otun inkişafına səbəb olacaq. Torpaqdan hələlik seçilməyən otlar Novruz bayramından bir neçə gün sonra hər gün, deyərdim, hər saat baş qaldırır. O zaman gördüyünüz bu düzlər yaşıl xalıya bənzəyir. Qoyunlar yeyib ətə-cana gəlir, quzular analarından doyunca süd əmib atılıb-düşürlər", - deyir.

- Bəs indi bu qarlı-şaxtalı günlərdə qoyunlar nə yeyirlər" - deyə soruşuram.

Müsahibim fikirləşmədən:

- Yaxşı heyvandar, təsərrüfatçı qışın çətin günlərini qabaqcadan görməli, yay aylarında yoncasını, bəlimini, arpasını tədarük etməli, tövləsində, pəyəsində, çobanın, habelə özünün qaldığı evində səliqə-sahman yaratmalıdır. Bunu mən çoxillik təcrübəmə görə deyirəm. Yayda dədə-baba yurdumuz Lerikə gedirik. Heyvanları yaylağa aparırıq. Amma vaxtaşırı olaraq buraya da baş çəkirik ki, yataqdakı ev-eşiyə, təsərrüfata ziyan toxunmasın. Əslinə qalsa, ömrümüzün çoxu burada keçir. Lerikdən olan bəzi adamlar elə yayı da burada qalırlar. Neftçala camaatı ilə qaynayıb-qarışmışıq. Qohum olanlarımız da çoxdur. Mən özüm oğlumun birinə Xıllı qəsəbəsindən olan dostumun qızını almışam.

Maşın geniş düzlə irəliləyir. Uzaqdan fermerlərin evləri görünür. Ölməz şairimiz Səməd Vurğunun "Muğan" poemasından sürücüsünə xitabən söylədiyi şeir yadıma düşür:

*Maşını sür görək, Anatoli, sür.*
*Bu yaxın komada dincələk bir az.*
*Qoyun sürüləri nə çox görünür!*
*Bir dələmə tapıb içsək, pis olmaz.*

*Çıxır qarşımıza qoca bir çoban,*
*Çiyni yapıncılı, boyu çinartək.*
*Azacıq çal düşmüş qaşlar altından*
*Qırğı baxışları gülümsəyərək.*

*... -Kimsən, haralısan? Danış, ay çoban.*
*-Dağıstan əhliyəm, ləzgiyəm, qardaş!*
*Qışda yerimizdir qədimdən Muğan,*
*Biz ona həmdəmik, o bizə sirdaş.*

*- Yaxşı, nə verəcək sənə bu qışlaq?*
*Yoxsa, bir qoyunun iki olacaq?*
*Çoban gülümsəyir bilmirəm nədən,*
*Verir cavabını fikirləşmədən:*

*- Muğan Muğan olsa, biri üç eylər,*
*Muğan tufan olsa, üçü heç eylər.*

Yaxınlaşdıqca sıralanmış evlər diqqətimi cəlb edir. Onların bir çoxunun bağ-bağçası da var. Bir neçə il əvvəl qoyun yataqlarına gələn yola çınqıl da döşənib. Sıralanan elektrik dirəkləri burada işıq olduğundan xəbər verir. Bunları görüb Əliməmməd kişiyə deyirəm:

- Buralarda əməlli-başlı kənd salınıb ki...

- Keçən əsrin 30-cu illərindən bu yerlər Lerik rayonuna qışlaq otlaq sahəsi kimi təhkim edilib. Lerikdəki qoyunçuluq təsərrüfatlarının böyük bir hissəsi qışı burada, qalanı Biləsuvar rayonunun ərazisində keçirir. Sovetlər zamanında indi gördüyünüz bu yerlərdə Lerikin 18 min hektar qış otlaq sahəsi olub. Bunun 1000 hektarı Veri kəndindəki sovxoza məxsus idi. Veri ərazi nümayəndəliyi Lerikin bir neçə kəndini özündə birləşdirir. Onlardan biri də bizim Akinəheyran kəndidir. "Kinə" talış dilində "qız", "xanım" mənasını verir. Atam rəhmətlik Hüseyn kişi uzun müddət bu sovxozda çoban işləyib. Payızda köç-külfət buraya gəlməyimiz, yazda qoyun qırxıldıqdan sonra Veriyə qayıtmağımız uşaqlıq illərimin ən şirin xatirələridir. Doğum şəhadətnaməmdə anadan olduğum yer Lerikin Akinəheyran kəndi yazılsa da, əslində, 1960-cı ildə burada dünyaya göz açmışam. Qoyun-quzu sürüsünü otarmağım, digər işlərdə atama yaxından kömək etməyim mənim ilk əmək kitabçamdır. O günləri, çətinliyi görməsəydim, bəlkə də, həyatda öz yerimi tapa bilməzdim.

Əliməmməd kişi ilə birlikdə qoyun yatağına gedirik. Çox çəkmir, sürülərdən təxminən 700-800 metr kənarda görünən qoyun damlarının, xeyli aralıda tikilmiş yaşayış evinin yanına çatırıq. Evə qalxmazdan əvvəl o bizi həyətdə öz təsərrüfatı ilə tanış edir, yonca, bəlim tayalarını göstərir. Quzuların saxlanıldığı küzə (qamışdan olan alçaq dam) baxırıq. Bildirir ki, həyətdə toyuğu, ördəyi var, ətə, südə, yağa, yumurtaya pul vermirlər. Sonra da həyətdəki iri dəmir çəni göstərərək deyir: "Bu çən də bizim su mənbəyimizdir. 6 ton su tutur. İçməli suyun bir maşınını 35 manata gətizdiririk. Çəndən kiçik elektrik nasosu ilə bu su evə ötürülür. Mətbəxdə, hamamda ondan istifadə edirik. Qoyunları, mal-qaranı isə Kür çayından çəkilən kanalla gələn su ilə suvarırıq. Rayonun Suvarma Sistemləri İdarəsinin işçiləri də sağ olsunlar, bizi həmişə nəzərə alırlar. Buna görə idarənin rəisi Elçin Əsədovun adını xüsusilə qeyd etmək istəyirəm". Qəfil mövzunun səmtini dəyişir: "Hə, bəsdir, həyətdə danışdıq. İndi isə gəl mənim ev şəraitimlə tanış ol, bir stəkan çayımı iç".

Döşəməsi yerdən təxminən 5-6 mişar daşı hündürlükdə olan evin eyvanına qalxırıq. Odun sobası buranı əməlli-başlı isidib. Oradan yerinə xalça döşənmiş iri bir otağa keçirik. Böyük masanın ətrafında söhbətimiz davam edir.

# "Muğan Muğan olsa..."

## Fermer Əliməmməd kişi: "Belə getsə, bu qış Muğan biri üç edəcək"





Əliməmməd Yəhyayev əvvəlcə "Niva"sını qoyun sürüsünün yanına sürür. Maşından düşürük. Çoban yanımıza gəlir. Hər biri pələngi xatırladan köpəklər dörd tərəfdən bizi əhatəyə alır. Ə.Yəhyayev mənə baxaraq, "Qorxma, məni tanıyırlar", - deyir. Çobanla tanış oluruq. Öyrənirik ki, Yusif Həsənov da Lerikdəndir. Uzun illərdir fermer Əliməmməd kişinin təsərrüfatında işləyir. Hal-əhval tutub işlərinin necə getdiyi ilə maraqlanırıq.

- Hər şey qaydasındadır. Yanvar ayında yağan qar işlərimizin daha da yaxşı olacağından xəbər verir. Düzdür, indi acı aylardır. Qoyunu hərlədirik ki, gəzsin, qarın-yağışın isladaraq yumşaltdığı səksöyüldən, yovşan otundan yesin. Axşamçağı yatağa qayıdanda yoncasını, arpasını veririk. Sağ olsun Əliməmməd dayı, kifayət qədər qış tədarükü görüb. Nə qədər yağıb qarlasa da, qorxumuz yoxdur. Çətini Novruz bayramına kimidir. Yazda buralar yamyaşıl olur.

- Bəs özünüzün şəraitiniz necədir?

- Lap yaxşı. Ayrıca çoban evi var, orada qalıram. Suyu, işığı, odun sobası var. Çobana bundan artıq nə lazımdır.

Çobanla sağollaşıb yenidən maşına oturuQ. Digər sürünün yanına gedirik. Ə.Yəhyayev ora çatanda maşının sürətini azaldıb dövrə vuraraq dayanır. Bildirir ki, bunlar təzə doğan qoyunlardır, çox uzağa aparmırıq ki, yorulmasınlar. Sonra gülümsəyərək əlavə edir: "Balaları axı axşamçağı onlardan süd istəyəcəklər".

Əliməmməd kişi keçdiyi həyat yolundan, işindən, ailəsindən, övladlarından danışır:

- Vallah, əslinə qalsa, deməyə bir o qədər də sözüm qalmayıb. Yol boyu çoxunu söylədim. Onu əlavə edə bilərəm ki, Lerikdə orta məktəbi bitirib Lənkəran Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşam. Oranı qurtarandan sonra bir müddət Veri sovxozunda ferma müdiri oldum. Sonra sovet hakimiyyəti devrildi. Atam sovxozda çoban, mən də ferma müdiri olduğumuz üçün payımıza müəyyən qədər heyvan düşdü. Sovxozdan torpaq payımızı da aldıq. 230 hektar qış otlaq sahəsində 630 baş doğar qoyun, 170 baş quzum var. 50 baş inək saxlayıram. Süni mayalanma yolu ilə 10 baş buzov almışam. Hər buzova görə 100 manat subsidiya veriblər. Mal-qaranı qış dövründən salamat çıxarmaq üçün 1500 bağlama yonca, 2 min bağlama bəlim kipi, 15 ton arpa, 2 ton kəpək, 15 ton şəkər çuğunduru tədarük etmişəm. Bunlardan əlavə, 9 arı ailəsi varımdır. "Niva" minik, KamAZ yük maşınımız işimizə yarayır. Çörəyə gəldikdə isə Lerikdəki pay torpağımızda buğda əkib ruzimizi götürürük. Üç oğlum, iki qızım var. Qızlarımı köçürmüşəm, oğlanlarımı evləndirmişəm. Hər birinin öz ailəsi, evi-eşiyi var. 11 nəvə babasıyam. Böyük nəvəm 8-ci sinifdə oxuyur. Oğlanlarımdan Nəbi Bakıda, Natiq dədə-baba yurdunda - Lerikin Akinəheyran kəndində yaşayır. Böyük oğlum Nail isə mənimlə birlikdə olur. Yaratdığımız MMC onun adınadır. Təsərrüfatın icraçı rəhbəri mən özüməm. Övladlarımdan narazı deyiləm. İşləyib ailələrini dolandırırlar. Bir ata kimi mənim də nəzərim həmişə onların üstündədir. Çatışmayan işləri olsa, köməyimi əsirgəmirəm. Türklər demiş, qarım Rəfiqə xanım da çox zəhmətkeşdir. O da gözünü açıb qoyun-quzu görüb. Atası Hacıməmməd kişi ömrü boyu heyvandarlıqla məşğul olub. 82 yaşının olmasına baxmayaraq, qayınatam, maşallah, qıvraqdır. Bizdən bir az aralı - Xəzər dənizinə yaxın yerləşir onun yatağı.

Söhbətin bu yerində Nail çay gətirir. Əliməmməd kişi oğluna deyir: "A bala, yeməyə gör nə var? Anana səhər dedim axı, bəlkə, qonağımız oldu". Nail cəld addımlarla gedib bir azdan əlində gətirdiyi çörəyi, pendiri süfrəyə qoyub yenidən qayıdır. Bu dəfə iri buludda ət soyutması, qatıq gətirir. Əliməmməd kişi: "Hə, günorta yeməyinin vaxtından xeyli keçib, mədəni boş qoymaq olmaz. Xüsusən də qışın soyuqlu günlərində. Necə deyərlər, kasıbın olanından. Keçi ətidir, ziyanı-filanı yoxdur".

Elə bu vaxt işıqlar da yanır. Əliməmməd kişi oğluna televizoru açmağı xahiş edir. Mən də yeri gəlmişkən öz marağımı gizlətməyib işığın verilməsi vəziyyətini soruşuram. Əliməmməd kişinin cavabı uzun olur:

- Qışın günüdür. Küləkli, qarlı havalarda hər yerdə olduğu kimi, burada da bəzən kəsilir. Amma uzun müddətə yox. İşıqçılar baş vermiş qəzanı tezliklə aradan qaldırırlar. Bu televizor olmasa, çölün düzündə kor və kar kimi olarıq. Dünyadan xəbərimiz olmaz. Dünya isə çalxalanır. Allah axırını xeyrə calasın. Fransa, Almaniya və digər Avropa ölkələri dinc dayanmırlar. Qarabağda qazanılan qələbəni qəbul edə bilmir, Ermənistanı müdafiə edirlər. Ancaq xalqımız, ordumuz yumruq kimi bir olub Prezident, Ali Baş Komandan İlham Əliyevin arxasında möhkəm dayanıb. Bu birlik 30 ildən sonra hamımıza sonsuz sevinc yaşatdı. Belə bir zəfər Azərbaycanın tarixində heç vaxt olmayıb. Ermənilər xaricdə olan havadarlarının ətəyindən möhkəm yapışaraq yenidən müharibə törətmək istəyirlər. Hər cür hiyləyə, məkrə əl atırlar. Lakin xeyri yoxdur. Artıq 90-cı illərin ölkəsi deyilik. İndi güclü-qüdrətli ordumuz var və gün keçdikcə o daha da qüvvətlənir. İlham Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində keçən ilin sentyabrında Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və digər yerlər də erməni separatçılarından tamamilə təmizləndi. Bildiyimiz kimi, indi oralarda böyük tikinti-quruculuq işləri görülür. Açıq danışacam. Öz içimizdən olan bəzi-bəzi ünsürlər İlham Əliyevin gördüyü işin qədir-qiymətini aşağı salmağa çalışır, ona dodaq büzürlər. Ancaq dərk etmirlər ki, İlham Əliyevin siyasi səriştəsi nəticəsində bu qələbə qazanıldı. Eybi yox, vaxt gələcək ki, onlar da haqq yoluna gəlib peşman olacaqlar. Bunları nəzərə alıb fevralın 7-də ailə üzvlərimlə birlikdə İlham Əliyevə səs verdik. Yeri gəlmişkən, bir məsələ haqqında da öz fikrimi bildirmək istəyirəm. Dövlətimiz, şəxsən Prezident İlham Əliyev kənd təsərrüfatının inkişaf etdirilməsi, fermerlərin maddi və mənəvi marağının artırılması üçün çox işlər görüb. Süni mayalanma yolu ilə aldığımız hər buzova subsidiya verilir, bütün vergilərdən azadıq, indi kəndlinin texnika sarıdan müşkül işi yoxdur. Bu siyahını daha da uzatmaq olar. Lakin problemlər də var. Mən qoyun saxlayıram. Yazda onun yununu qırxıb bilmirəm nə edim. Yuna heç kim yiyə durmur. Halbuki o, qiymətli xammaldır. Bir şey dəyərindən ucuz qiymətləndiriləndə deyirlər ki, şor qiymətinədir. İndi şor da yundan bahadır. Lerikdə əvvəllər xalçaçılıq olub. Əlaqədar təşkilatlar bu məsələ ilə bağlı bizim rayonda da iş görə bilərlər. Xalça sexi açsalar, çox yaxşı olar. Bunun üçün istənilən qədər işçi qüvvəsi və yun var. Bundan sonra inanıram ki, Azərbaycanda turizmin inkişafı sürətlənəcək. Cənub bölgəsinə gələn qonaqlar Lerikdə olarkən burada toxunan xalçaları suvenir kimi alıb öz ölkələrinə apara bilərlər.

Saata baxıram, 16-nı göstərir. "Çox sağ olun, süfrəniz və söhbətiniz üçün. Qış günü qısa olur. Odur ki, icazə versəydiniz, yola düşərdik", - deyirəm.

Həyətə düşürük. Ə.Yəhyayev sükan arxasına keçir. Gəldiyimiz yolla geri qayıdırıq. Yenə gözlərim önündə 3-4 saat öncə gördüyüm düzlər canlanır, yadıma S.Vurğunun "Muğan" poemasındakı həmin şeir parçası düşür. Şair böyük təvazökarlıqla ürəyindən süzülüb gələn misraların bəlkə də yaddaşlarda qalmayacağını, aşıqların sazında çalınmayacağını güman edirdi. Lakin o, qoca çobanın dilindən dediyi "Muğan Muğan olsa, biri üç eylər, Muğan tufan olsa, üçü heç eylər" müdrik kəlamın yadigar qalacağını, nəsildən nəslə keçərək yaşayacağına əmin idi. Və bu əminlik sonradan özünü doğrultdu. Deyilənlərə görə, keçən əsrin ortalarında Muğana elə güclü qar yağır, qış o qədər sərt keçir ki, Dağıstandan qışlağa gələn çobanlar təkcə çomaqlarını götürüb geri qayıtmağa macal tapa bilirlər.

Əliməmməd kişi deyir ki, bu qış Muğan üçün əlverişli keçir. Deməli, sağlıq olsa, bir qoyun əkiz bala verib üç baş olacaq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

## Azərbaycanın səmasını qorumağa qadir olan Hərbi Hava Qüvvələri

Dünyanın bütün ölkə ordularının tərkibində Hərbi Hava Qüvvələri də mövcuddur. Çünki bu, böyük əhəmiyyət kəsb edən xüsusi bir qoşun növüdür. Ona görə də dünya ordularını döyüşdə misilsiz önəm daşıyan Hərbi Hava Qüvvələrsiz təsəvvür etmək mümkün deyil. Bu qoşun növü müharibədə üstünlük qazanmaq, döyüşlərdə dönüş yaratmaq, düşmənə qalib gəlmək üçün əvəzsiz bir qüvvədir.



Piyadalar hücuma keçməzdən əvvəl Hərbi Hava Qüvvələri işğalçıların havadakı və yerdəki hədəflərini dəqiq atəş zərbələri ilə zərərsizləşdirməklə qələbəni təmin edir. Hərbi Hava Qüvvələrinin ən başlıca vəzifəsi isə ölkənin hava məkanını düşmən hücumlarından qorumaqdır. Hərbi Hava Qüvvələri yeganə qoşun növüdür ki, onun şəxsi heyəti həm dinc, həm də müharibə dövründə döyüş tapşırığını yerinə yetirir. Gecə-gündüz ölkəsinin səmasına ayıq-sayıq keşik çəkir.

Həmişə zəfərləri ilə öyündüyümüz Azərbaycan Ordusunun da tərkibində səmamızı düşmənlərdən ayıq-sayıq qoruyan Hərbi Hava Qüvvələri var. Bu qoşun növündə xidmət edən zabit və əsgərlər həm Birinci, həm İkinci Qarabağ müharibəsində, həm də Aprel döyüşlərində böyük qəhrəmanlıqlar göstəriblər. Onlar əməliyyatlar zamanı dəqiq atəş zərbələri ilə erməni işğalçılarının havadakı və yerdəki hədəflərini məhv ediblər.

Azərbaycan Ordusunun Hərbi Hava Qüvvələri (HHQ) 14 fevral 1992-ci ildə yaradılıb. Həmin tarix Azərbaycanda Hərbi Hava Qüvvələri Günü kimi təntənə ilə qeyd olunur. 32 il ərzində Hərbi Hava Qüvvələri böyük inkişaf və şərəfli döyüş yolu keçib. Ötən müddət ərzində bu qoşun növünün yeni hərbi hissə və birləşmələri yaradılıb, ən müasir texnologiya və silahlarla təmin olunub.

Ölkəmizdə hərbi təyyarəçiliyin tarixi ötən əsrin əvvəllərinə gedib çıxır. Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbovdur. O, Birinci Dünya müharibəsində böyük qəhrəmanlıq göstərib. Almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak edib. Təəssüflər olsun ki, döyüş tapşırığını yerinə yetirərkən həlak olub. Birinci və İkinci Qarabağ müharibələrində və Aprel döyüşlərində pilotlarımız Fərrux ağa Qayıbovun döyüş yolunu şərəflə davam etdirdilər.

Hərbi Hava Qüvvələrinin pilotları, əsasən, Heydər Əliyev adına Hərbi İnstitutda hazırlanır. Ali təhsillərini başa vurduqdan sonra təyyarəçilərimiz Türkiyədə və başqa ölkələrdə müvafiq ixtisasartırma kurslarında oxuyur və təlimlərdə iştirak edirlər. Daim bilik və bacarıqlarını artırırlar. 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbində ilk milli hərbi təyyarəçilərimizin buraxılışı olub.

Yarandığı ilk günlərdən Hərbi Hava Qüvvələrinin yenidən qurulması üçün dövlət tərəfindən uğurlara ünvanlanmış islahatlar həyata keçirilməyə başlanıb. İlk addım olaraq ölkə üçün mühüm əhəmiyyət daşıyan bu qurumun strukturu milliləşdirilib. Atəşkəs elan olunduqdan, silahlar susduqdan sonra Azərbaycan Ordusunun başqa strukturlarında olduğu kimi, Hərbi Hava Qüvvələrində də köklü islahatlara start verilib. 2005-ci ildən Azərbaycanda müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ-nin dirçəldilməsinə, inkişaf etdirilməsinə yönləndirilib. Azərbaycan və NATO arasında imzalanmış Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində ölkə ərazisindəki hərbi aerodrom modernləşdirilib. Eyni zamanda bu aerodromlarda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb, texniki təminat binaları yenidən tikilib, köhnə binalar təmir edilib. Aerodromun texniki təminatı, paraşüt-desant xidməti və əyləc paraşütlərinin yığılması binalarının inşasına başlanılıb.

Birinci Qarabağ müharibəsində olduğu kimi, Aprel döyüşlərində də Hərbi Hava Qüvvələrinin pilotları böyük igidlik və qəhrəmanlıqlar göstərərək düşmənə sarsıdıcı zərbələr endirdilər. Quru qoşunlarının irəliləməsi üçün əlverişli şərait yaratdılar. Təəssüflər olsun ki, əməliyyat zamanı döyüş tapşırığını yerinə yetirən Mi-24 helikopterin üç pilotu - Təbriz Musazadə, Əbu Bəkir İsmayılov və Urfan Vəlizadə qəhrəmancasına şəhid oldular.

27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Azərbaycan Ordusunun zabit və əsgərləri Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmri ilə düşmən təxribatının qarşısını almaq üçün döyüşə atıldılar. Sürətli və hərtərəfli düşünülmüş əks-hücum əməliyyatı ilə erməni işğalçıları illərdən bəri möhkəmləndikləri mövqelərdən geri oturduldu. 44 gün davam edən Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı. Qarabağın, eləcə də başqa bölgələrimizin işğaldan azad olunması ilə yekunlaşan müharibədə Hərbi Hava Qüvvələrinin təyyarəçiləri ölkəmizin ərazi bütövlüyünün qorunmasında böyük şücaət və qəhrəmanlıq nümunələri göstərdilər.

Hərbi Hava Qüvvələri pilotlarının təcrübə və peşəkarlıqlarının artırılması istiqamətində bu gün də çox mühüm addımlar atılır. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq hər iki ölkənin quru qoşunları ilə yanaşı, Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilir. "TurAz Qartalı" birgə taktiki-uçuş təlimləri və "Mustafa Kamal Atatürk - 2023" və başqa təlimlərdə iştirak edən təyyarəçilərimizin təcrübə və səriştəsi getdikcə artır. Hazırda Azərbaycan Hərbi Hava Qüvvələrinin təyyarəçiləri MDB məkanında ən çox uçuş keçirmiş pilotlar hesab olunur. Bu, hər bir azərbaycanlı üçün çox qürurverici və sevindirici xəbərdir.

Hərbi Hava Qüvvələrində başlanan islahatlar uğurla davam etdirilir. Bu gün ən müasir təyyarə və helikopterlərlə, müasir texnologiya ilə arsenalını zənginləşdirən Hərbi Hava Qüvvələri Azərbaycan səmasını tam gücü ilə qorumağa hazır və qadirdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

## Cəsurların qəhrəmanlığı heç vaxt unudulmur



Şəhidlərin şərəfli döyüş yolu gələcək nəsillər üçün bir örnəkdir. Yurdumuzun azadlığı uğrunda canından keçmiş kapitan Həmid Cəfərli də 44 günlük Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıqlar göstərib. Cəsur zabit yaddaşlarda da elə bu cür - vətənpərvər, qorxmaz bir hərbçi kimi qalıb.

Kapitan Həmid Kərim oğlu Cəfərli 1990-cı il avqustun 1-də Bakı şəhərində dünyaya göz açıb. 1996-cı ildə Xətai rayonundakı 88 nömrəli orta məktəbin 1-ci sinfinə gedib. Səkkizinci sinfi bitirdikdən sonra hərbçi olmaq arzusu ilə 2004-cü ildə C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Təhsil illərində çalışqanlığı ilə seçilib. 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2011-ci ildə qoşun kəşfiyyatı ixtisası üzrə hərbi ali təhsilini başa vurub. 2011-2012-ci illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit ixtisasartırma kursunu bitirib. Elə həmin il "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Sonrakı illər xidməti borcunu müxtəlif hərbi hissə və birləşmələrdə yerinə yetirib. Təcrübə və səriştəsini nəzərə alan komandanlıq 2019-cu ildə onu bölük komandiri təyin edib.

27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində başlanan Vətən müharibəsinin ön sıralarında vuruşub. Cəbrayıl rayonunun yaşayış məntəqələrinin düşməndən azad edilməsində böyük hünər və qəhrəmanlıq göstərib. Qəsbkarlardan azad etdikləri Nüzgar kəndinə üçrəngli Zəfər bayrağını da kapitan Həmid Cəfərli özü sancıb. Sonra komandanlıq onların bölüyünü Füzuli rayonu istiqamətində gedən döyüşlərə cəlb edib. Bölüyə Pirəhmədli kəndini erməni işğalçılarından azad etmək tapşırılıb. Təəssüflər olsun ki, 5 oktyabr 2020-ci ildə - Vətən müharibəsinin 8-ci günü kapitan Cəfərli Pirəhmədli kəndi ətrafında gedən əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Kapitan Həmid Cəfərli Vətən müharibəsində göstərdiyi cəsarət və igidliyə görə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Yaxınları şəhid kapitanı kövrək hisslərlə xatırladılar. Həmid Cəfərli haqqında kitab yazmış Hicran Hüseynova dedi ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğullarımızın qəhrəmanlığını tarixləşdirmək və gələcək nəsillərə çatdırmaq ziyalıların mənəvi borcudur. Çalışmışam ki, kitabda Vətənə layiqli övlad olan kapitan Həmid Cəfərlinin həyat və döyüş yolunu bütün dolğunluğu ilə oxuculara çatdırım. Çatdırım ki, qoy gələcək nəsillər igidliyi, qəhrəmanlığı onun kimi cəsur oğullardan öyrənsinlər.

"Vətən müharibəsi qəhrəmanı" ordenli, polkovnik Nizami Mövlanov, Birinci Qarabağ müharibəsinin veteranı Elmar Hüseynov, zabit yoldaşları Murad Şirinov, Mahir İbrahimov, kursant yoldaşı Rüfət Cəfərli, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, şəhidin riyaziyyat müəllimi olmuş Şölə Qasımova və başqaları Həmid Cəfərli haqqında xatirələrini bizimlə bölüşdülər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Hərbi mətbuat

## Silahlı Qüvvələrimizin keçdiyi şərəfli yol qürurla işıqlandırılır

1992-ci ilin fevral ayında Azərbaycanın jurnalistika tarixinin səhifəsinə yeni "Xalq Ordusu" qəzetinin adı yazıldı. Sonrakı illər isə "Azərbaycan Ordusu" adı ilə fəaliyyətini davam etdirdi.




Həmin illərdə ordumuz hələ hərbi nəzəriyyələr əsasında formalaşmamışdı. Vahid komandanlıq olmadığından ərazilərimizi bir-biri ilə zəif əlaqəsi olan özünümüdafiə qüvvələri qoruyurdu. Belə bir vaxtda yaranmış hərbi mətbuatın da müəyyən çətinlikləri ortaya çıxırdı. Ölkədə təcrübəsinə istinad ediləsi hərbi mətbuat bazası yox dərəcəsində idi. Bu bazanı kövrək addımlarını atmaqla başlayan "Azərbaycan Ordusu" qəzeti özü yaratmalıydı.

Günlər keçdikcə qəzet yavaş-yavaş formalaşırdı. Həm hadisələrə operativ müdaxilə baxımından, həm də hərbi jurnalistika baxımından özünü büruzə verirdi. Qəzetin səhifələrində daha çox ön xətdən verilən materiallar üstünlük təşkil etsə də, arxa cəbhə də unudulmurdu.

1993-cü ilin əvvəllərində Azərbaycanda ciddi siyasi qarşıdurma yaranmışdı. Bu qarşıdurma ordu quruculuğuna da, döyüşlərə də mənfi təsir göstərirdi. Belə gərgin bir vaxtda böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Bundan sonra başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da əsaslı dönüş yarandı, vahid komandanlıq formalaşdı. Ordu quruculuğu illərin sınağından çıxmış hərb elminin tələbləri əsasında aparıldı.

Bu sahədə həyata keçirilən uğurlu islahatlar "Azərbaycan Ordusu" qəzetinin fəaliyyətində də ciddi dönüş yaratdı. Qəzetin əməkdaşları tez-tez bölgələrə, ön xəttə ezamiyyətə gedir, səngərlərdə yurdumuza keşik çəkən əsgər və zabitlərdən müsahibələr alırdılar. Müxbirlər ezamiyyətdən geri döndükdən sonra yurdumuzun keşiyində dayanan hərbçilərlə olan söhbətləri müxtəlif janrlı yazılara çevirərək qəzetdə dərc etdirirdilər. Bu yazılar şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, vətənpərvərlik hisslərinin artırılmasına müsbət təsir göstərirdi.

Azərbaycanda ordu quruculuğu daim dövlətin diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ulu Öndərin siyasi kursunu ordu quruculuğu istiqamətində də uğurla davam etdirir. Bu proses "Azərbaycan Ordusu"nun səhifəsində bütün dolğunluğu ilə öz əksini tapır.

İstər Azərbaycanda, istərsə də hərbi əməkdaşlıq etdiyimiz ölkələrdə keçirilən qarşılıqlı beynəlxalq təlimlərdə "Azərbaycan Ordusu" qəzetinin əməkdaşları da iştirak edirlər. Bu tədbirlərdən müxtəlif janrlarda məqalələr hazırlayır, keçirilən təlimin mahiyyətini açır, Azərbaycan hərbçilərinin peşəkarlığını, fədakarlığını yarışlarda qələbə qazanılmasında onların əzmkarlığını geniş işıqlandırır.

Hərb tariximizə Aprel döyüşləri kimi yazılmış 4 gün davam edən savaş da "Azərbaycan Ordusu" qəzetinin səhifələrində bütün dolğunluğu ilə əks olunub.

"Azərbaycan Ordusu" müharibə taleyi yaşayan qəzet kimi həmişə savaşan, döyüşən hərbçilərin yanındadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Vətən müharibəsinin davam etdiyi günlərdə xalqa olan bütün tarixi müraciətlərini qələbə ovqatı ilə hərbçilərə çatdırırdı.

"Azərbaycan Ordusu" otuz ildən çoxdur ki, müqəddəs yolu ilə inamla addımlayır. Həftədə iki dəfə oxucuları ilə görüşə gəlir. Qəzet bu gün orduda aparılan islahatlardan, Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində, "Qisas" əməliyyatında, 19-20 sentyabr antiterror tədbirlərində iştirak etmiş, müxtəlif orden və medallara layiq görülmüş zabit və əsgərlərin qəhrəmanlığından yazır. "Azərbaycan Ordusu" qəzetinin əməkdaşları onun rəhbərliyinin verdiyi tapşırıqlara uyğun olaraq Silahlı Qüvvələrimizin keçdiyi şərəfli tarixi yollarından yazır. Şəhid ailələrinə qayğı da daim qəzetin diqqət mərkəzindədir.

*M.VAHİD,*
*"Azərbaycan"*

## Hərbi vəzifəlilərin növbəti təlim toplanışı başlayıb

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlilərin iştirakı ilə keçirilən növbəti təlim toplanışı başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, toplanış məntəqəsinin qərargahında müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçən ehtiyatdan çağırılan hərbi vəzifəlilər hərbi geyim, həmçinin digər təminat növləri ilə təmin olunublar.

Toplanışda əsas məqsəd onların döyüş vərdişlərini, hərbi ixtisas və təcrübələrini təkmilləşdirməklə yanaşı, ordumuzun arsenalında olan müasir silah və hərbi texnika ilə yaxından tanış etmək, istismar qaydalarını öyrətməkdir.

## Qaliblər mükafatlandırılıblar

Balakən rayonu Yeni Şərif kənd tam orta məktəbində bu təhsil ocağının adını daşıyan Birinci Qarabağ müharibəsi şəhidi Rauf Hədisovun ildönümünə həsr edilmiş tədbir və "Şəhid Rauf Hədisov adına təqaüd proqramı" qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə Şəki-Zaqatala Regional Təhsil İdarəsinin rəhbər şəxsləri, Balakən rayon təhsil sektorunun əməkdaşları, kənd bələdiyyəsinin nümayəndələri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, məktəbin kollektivi və qonaqlar iştirak ediblər.

Regional Təhsil İdarəsindən bildirilib ki, tədbir iştirakçıları əvvəlcə şəhid Vüsal Omarovun övladları Yağmur və Duyğunun, həmçinin digər şagirdlərin vətənpərvərlik mövzusunda çəkdikləri rəsmlərdən ibarət sərgiyə baxıblar.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.



● Ölməzliyə qovuşanlar

## 18 yaşlı igidin döyüş yolu

Mərahim Aslan oğlu Abdullayev 2020-ci ilin sentyabrında başlayan və Zəfər ilə başa çatan 44 günlük Vətən müharibəsində Şəmkirin Keçili kəndindən şəhadətə yüksələn altı şəhiddən biri, yaşca ən kiçiyidir.



O, 2002-ci il martın 27-də Şəmkir rayonunun Keçili kəndində dünyaya göz açıb. Atası Aslan fərdi təsərrüfatçı, anası Susanna evdar qadındır. Orxan və İbrahim adlı özündən böyük iki qardaşı var. Şəhidimizin təhsil aldığı orta məktəbin müəllimi Fənarə Qəhrəmanova onu belə xatırlayır: "Mərahim nizam-intizamlı olması ilə yoldaşlarından fərqlənirdi. İdmana meyilli, vətənpərvər uşaq idi, həmişə yaşıdlarına əsgərliyə gedəcəyindən həvəslə danışar və xidmətdən sonra hərbçi kimi Milli Ordu sıralarında qalıb ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması uğrunda mübarizədə iştirak etmək istədiyini bildirərdi".

Mərahim Abdullayevlər ailəsinin sonbeşiyi olub. Sakit davranışı, mehribanlığı ilə yanaşı, dəli-doluluğu da var idi. Əldə-ayaqda olan uşaq kimi, həmişə hamının köməyinə çatar, ətrafındakılara yardımçı olmağı özünə borc bilərdi. Qardaşı İbrahim deyir: "Nə vaxt televizoru açsaydı, hərbi verilişləri axtarar, onlara baxardı. Bir dəfə dedi ki, mən hərbi xidmətə gedəcəyəm, vəhşi ermənilərlə son nəfəsimə kimi vuruşacağam, şəhid olacağam. Buna görə onunla mübahisə edərdim. Kim istəyər ki, qardaşı torpaq altında yatsın?!"

Mərahimin 18 yaşı tamam olanda kənddə bəzi həmyaşıdlarını hərbi xidmətə çağırsalar da, ona heç nə deyilməmişdi. Buna görə də o, Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon idarəsinə gedib və tələb edib ki, onu da hərbi xidmətə yollamaq üçün çağırışçı elan etsinlər. Beləliklə, istədiyinə nail olub. Mərahim əsgər kimi Beyləqan rayonu ərazisindəki "N" saylı hərbi hissədə xidməti borcunu yerinə yetirib. Minaatan batareyada baş nişançı olub, intizamı, bacarığı ilə seçilib. Hərbi xidmətinin ilk 5 ayından sonra Vətən müharibəsi başlayıb və o, ön cəbhəyə könüllü olaraq yollanıb.

Mərahim Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Düşmən mərmisinə tuş gəlmiş neçə-neçə yaralı əsgərimizin, şəhidimizin arxaya gətirilməsində fədakarlıq göstərib. Təəssüf ki, bu cəsur döyüşçü 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən gərgin mübarizədə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub...

Mərahim hər dəfə evlə danışanda "oktyabrda gələcəyəm" deyirmiş. Lakin qayıdan üçrəngli bayrağa sarılmış nəşi olub. Şəhid olmazdan bir gün əvvəl son dəfə valideynləri ilə danışıb. Deyib ki, Ali Baş Komandanın səyi nəticəsində ordumuzun uğurları böyükdür, düşmənin axırına çıxırıq, az qalıb. Qələbə qazanacağıq!

Dediyi kimi də oldu. Azərbaycan bu müharibədə tarixdə əvəzi olmayan qələbə qazandı. Bu qələbənin əldə edilməsində əməyi olan Mərahim Abdullayev şəhadətindən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

İndi Keçili kəndində uşaqdan böyüyə hamı Mərahimin döyüş yolu, qəhrəmanlığı ilə fəxr edir. Ad və anım günlərində, eləcə də milli bayramlarda həmyaşıdları, onu yaxından tanıyanlar, döyüşçü yoldaşları, məktəblilər, ictimaiyyətin və rayon hərbi komissarlığının nümayəndələri 18 yaşlı qəhrəman şəhidi ehtiramla yad edir, məzarı üstünə gül-çiçək qoyur, ruhuna dualar oxuyurlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Şəkərin "zəhəri"

**Bioloji, psixoloji və sosial səbəblərdən bəzi qidalardan normadan artıq istifadənin müxtəlif asılılıqlar yaratdığı məlumdur. Onlardan biri də şəkər asılılığıdır. Əksər insanlar gündəlik rasionlarında emal olunmuş şəkərdən hazırlanmış qidalara üstünlük verirlər.**



Mütəxəssislər gündəlik şəkərdən alınan kalori həcminin 10 faizdən az olmasını tövsiyə edirlər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) böyüklərə və uşaqlara gündəlik sərbəst şəkər qəbulunu təxminən 25 qrama (6 çay qaşığı) qədər azaltmağı tövsiyə edir. Çünki normadan artıq şəkər istehlakı insulin dirənci, artıq çəki, şəkərli diabet, yüksək qan təzyiqi və bir çox xroniki xəstəliklərin yaranmasına səbəb olur. Bura təkcə qənd, şəkər tozu, mürəbbə, şərbət, şirniyyatların tərkibindəki şəkər deyil, həm də meyvə və tərəvəzlərin, balın tərkibində təbii halda olan şəkərin, eləcə də şirinləşdirilmiş içkilərin, qablaşdırılmış qidaların tərkibindəki şəkərin miqdarı da aid edilir.

Bəs şəkər asılılığı niyə artıb? Tərkibində bol miqdarda şəkər olan qida məhsullarının orqanizm üçün faydaları və zərərləri nələrdir? Ümumiyyətlə, şəkərin insan sağlamlığında rolu nədən ibarətdir?

### Şirin qidalardan sonra özümüzü yaxşı hiss ediriksə...

Kliniki Tibbi Mərkəzin həkim-endokrinoloqu Həcər Kazımovanın sözlərinə görə, şəkər asılılığı və onun səbəb olduğu xəstəliklərlə müraciət edənlərin sayı ötən illərə nisbətən artıb: "Bunun birinci səbəbi şəkərli qidaların əlçatanlığıdır. 20 il öncəyə nisbətən şəkərli məmulatların, konfetlərin əldə edilməsi dəfələrlə asanlaşıb. Əgər əvvəllər tort yalnız ad günlərində, şəkərbura və paxlava ancaq Novruz bayramında yeyilirdisə, şirniyyat qonaq gələndə süfrəyə qoyulurdusa, indi vəziyyət bunun tam əksidir".

H.Kazımova deyir ki, əgər şəkər istifadə etmədikdə insan aqressivləşirsə, əsəblərini cilovlaya bilmirsə, şirniyyatı qəbul etdikdən sonra özünü rahat hiss edirsə, demək, artıq bu insanda şəkər asılılığı var: "Gündəlik rasionumuza daxil olan karbohidrat miqdarı var. Bu tələbat ödənmədikdə orqanizmdə şəkərə ehtiyac yaranır. İnsan yorğun olduqda, enerji sərf etdikdə orqanizm ilk növbədə tez həzm olunan karbohidrat tələb edir. Bunların içində də birinci yerdə şəkər məmulatları gəlir. Şəkər dildə olan dad reseptorlarına təsir edərək, beyində "xoşbəxtlik hormonu" sayılan endorfin ifrazına gətirib çıxarır ki, bu da şirniyyata tələbatı artırır. Qarşısı zamanında alınmasa, bu, şəkərli diabetə, ürək-damar xəstəliklərinə, hətta onkoloji xəstəliklərə qədər gətirib çıxara bilər".

### Yuxusuzluq, daimi yorğunluq, aclıq hissi...

H.Kazımova bildirir ki, sutkalıq 7-8 saatlıq yuxu rejiminə riayət edilməsinə baxmayaraq, insan yuxululuq hissindən şikayət edirsə, bu, şəkər asılılığının əlaməti kimi qəbul edilir: "Mütəmadi şəkər istifadəsi qanda şəkərin miqdarının sürətlə yüksəlib, daha sonra düşməsinə, yəni şəkərin oynamasına səbəb olur. Bu da daimi yorğunluğa gətirib çıxarır. Proteindən fərqli olaraq, karbohidratın bir növü olan şəkər tez həzm olunur, qana sürətlə sovurulur. Bu zaman avtomatik olaraq qanda şəkərin miqdarı yüksəlir, lakin elə yüksəldiyi kimi də tez düşür. Aclıq hiss edilir, tez həzm olunacaq qidaya tələbat olur. İnsana əsmə, bayılma hissləri gəlir. Ona görə də ən tez əldə edə bildiyi şəkərdən istifadə edir. Bu hal tez-tez təkrarlandıqca orqanizmdə insulin ifrazı artır, insulin dirənci kimi problemlər meydana çıxır".

İnsulin dirəncinin şəkərli diabetdən fərqli olaraq, genetik olmadığını bildirən mütəxəssis qeyd edir ki, o, qeyri-sağlam qidalanma, passiv həyat tərzi və artıq çəki fonunda yaranmış tibbi problemdir: "İnsulin dirənci insulinin orqanizmdə normadan artıq ifraz olunması və hüceyrələrin ona qarşı həssaslığının itməsi nəticəsində yaranır. Bu zaman mədəaltı vəzi normadan artıq insulin ifraz edir. İnsanlar daha çox şəkər qəbul etsələr də, nəticədə bu, onları daha az qane etməyə başlayır. İnsulin dirənci son illərdə olduqca geniş yayılıb. Cəmiyyətin əksəriyyəti 10-15 il əvvəl onun nə olduğunu belə bilmirdi. İndi isə müraciət edən xəstələr onun əlamətlərini hiss edərək insulin dirəncini yoxlatdırmaq üçün müraciət edirlər".

### Uşaqlar arasında insulin dirənci geniş yayılıb

Problemin ən üzücü tərəfi isə insulin dirəncinin uşaqlar arasında geniş yayılmasıdır. Endokrinoloqun sözlərinə görə, buna səbəb fiziki aktivliyin azalması, uşaqların əyləncəsinin kompüter, telefonlardan ibarət olması, şəkərli məmulatlardan, hazır qidalardan və "fast food"lardan çox istifadə edilməsidir.

Həkim şəkər asılılığının genetikasında şəkərli diabet xəstəliyi olan şəxslər üçün daha təhlükəli olduğunu qeyd edir: "Şəkərli diabetin bir neçə növü var. Onun ən çox yayılmış növü tip 2-dir. O, bədənin hüceyrələri insulinə davamlı olduqda baş verir və insulinin qeyri-adekvat istifadəsinə səbəb olur. Diabet xəstələri daim həkim nəzarətində olmalıdırlar".

Mütəxəssis onu da bildirir ki, maddələr mübadiləsini zəiflədən və xəstəliklərə təkan verən şəkərli qidalardan nə qədər az istifadə etsək, sağlamlığımızı bir o qədər qorumuş olarıq. Şəkər asılılığının qarşısını almaq üçün sağlam həyat tərzi və qida rasionumuzda şəkərdən minimal istifadə tövsiyə edilir. Mümkün olduğu təqdirdə isə emal edilmiş şəkərdən tamamilə imtina edilməlidir.

*Ü.XASPOLADOVA, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Paşinyan korrupsiyaya göz yumur

## Baş nazirin komandası dövlət büdcəsini müxtəlif yollarla talayaraq xaricdə daşınmaz əmlaka yatırır



Aparılan araşdırmalar Hayastanda korrupsiya xarakterli cinayətlərin tüğyan etdyini göstərir. Hökumətin isə bu sahədə problemin aradan qaldırılması istiqamətində heç bir addım atmaması nəticə etibarilə bu qəbildən olan cinayətlərin sayının sürətlə artmasına rəvac verir. Erməni ekspertlər də etiraf edirlər ki, hazırda ölkədə ən ciddi problemlər korrupsiyanın genişlənməsi, hökumətin fəaliyyətində şəffaflığın olmamasıdır.

Hayastan əhalisi korrupsiyanın daha çox məhkəmə sistemində, səhiyyə sahəsində və dövlət məmurları arasında yayıldığını bildirir. Bunu keçirilən sorğular da təsdiq edir və problemin çözümü üçün hökumət faktiki olaraq heç bir addım atmır.

Nəticə isə ondan ibarətdir ki, hüquq-mühafizə orqanlarında, orduda, dövlət satınalma, səhiyyə və təhsil sistemlərində özünü açıq şəkildə büruzə verən korrupsiya halları genişlənir, daha çox dövlət əmlakı talanır. Hayastanın yüksək siyasi rəhbərliyində olan şəxslərin irimiqyaslı korrupsiya əməlləri bu problemin həlli üçün siyasi iradənin yoxluğunu da ortaya qoyur.

Hazırda irimiqyaslı mənimsəmə və kriminal əməllərinə görə Hayastan parlamentinin sədri Alen Simonyan məmurlar siyahısında ilk yerdə dayanır. Bu günlərdə Simonyanın qohumu, "Synergy" işi üzrə şübhəli bilinərək saxlanılan Ani Gevorkyan həbsdən azad olunacaq. Yerli medianın məlumatına görə, Ani Gevorkyanın parlamentin "Vətəndaş müqaviləsi" fraksiyasının deputatlarının imzaladığı zəmanət əsasında azadlığa buraxılması barədə siyasi qərar qəbul edilib. Qeyd edilib ki, imzaların toplanması baş nazir Nikol Paşinyanın razılığı ilə həyata keçirilib ki, bu da Simonyan ailəsinin gəlini ilə bağlı qərar qəbul etməyi asanlaşdırıb.

Xatırladaq ki, yanvarın 31-də Hayastanda İqtisadiyyat Nazirliyinin bir sıra vəzifəli şəxslərinə və özəl sektor nümayəndələrinə qarşı cinayət işi açılıb. Müstəntiqlərin fikrincə, "Dövlət investisiya proqramları üçün bankın yaradılması" tenderi çərçivəsində məmurlar şirkətlərdən birinin rəhbəri ilə gizli iş quraraq vəzifə səlahiyyətlərindən sui-istifdə ediblər. Onlar şirkət rəhbərinin rəqibinin tenderdə iştirakına süni maneələr yaradıblar. Nəticədə tenderdə işi üç dəfə baha (392 milyon dram) görəcək şirkətin təqdim etdiyi ərizə qalib gəlib.

Gevorkyan isə Alen Simonyanın qardaşı Karlenin həyat yoldaşıdır. O, fevralın 1-də Ermənistanın iqtisadiyyat nazirinin keçmiş müavini Ani İspiryan və Energetika Nazirliyi dövlət investisiyaları siyasəti departamentinin rəhbəri Liliya Sirakanyan saxlanılandan sonra İstintaq Komitəsinə aparılıb. Ümumilikdə Hayastanın İqtisadiyyat Nazirliyində əməliyyat-axtarış tədbirlərindən sonra bu iş üzrə 7 nəfərin saxlanıldığı deyilir.

Qeyd edək ki, hazırda iş üzrə 5 nəfər həbs edilib. Bunlar sözügedən şirkətə bağlı şəxslər- direktor Aşot Ovannisyan, biznesin inkişafı üzrə meneceri Lili Mkryan, şirkətin keçmiş əməkdaşı, parlamentin spikerinin qardaşı arvadı, Energetika Nazirliyinin dövlət investisiya siyasəti departamentinin rəhbəri Lili Sirakanyan və nazirliyin kənd təsərrüfatı proqramlarının həyata keçirilməsi şöbəsinin müdiri Taron Martirosyandır. İqtisadiyyat nazirinin müavini Ani İspiryan isə ev dustaqlığına buraxılıb.

Ümumiyyətlə, Paşinyan komandasının üzvlərinin böyük əksəriyyəti dövlət büdcəsini müxtəlif yollarla mənimsəyərək xaricdə daşınmaz əmlaka yatırırlar. Elə baş nazirin özünün də belə əmlaklara sahib olması inkar edilmir, sadəcə onlar dövlət başçısına yaxın şəxslərin adına rəsmiləşdirilir. Bu səbəbdən də digər məmurlar çəkinmədən xaricdə daşınmaz əmlaka milyonlar yatırırlar. Çünki nəticə etibarı ilə məmurlar hamısı korrupsiya sisteminin üzvləridir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Ermənistan silahlı qüvvələrinin mövqelərindən Zəngilan istiqamətində ordumuzun mövqelərinə atəş açılıb, bir hərbçi yaralanıb

Fevralın 12-də saat 13:37 radələrində Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb.




DSX-dən AZƏRTAC-a bildiriblər ki, təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Pərviz Ağakişi oğlu Xəlilzadə yaralanıb. Hərbi qulluqçu helikopterlə ixtisaslaşmış tibb müəssisəsinə təxliyə edilib. Baş vermiş hadisə, o cümlədən qarşı tərəfdən atəşin açılması anı videomüşahidə kameraları vasitəsilə qeydiyyata alınıb.

Hazırda əməliyyat şəraiti sabitdir və bölmələrimizin nəzarəti altındadır. Ermənistan tərəfinin bu növbəti təxribatına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması ilə bağlı cinayət işi başlanılıb

Dövlət Sərhəd Xidmətinin (DSX) N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Pərviz Ağakişi oğlu Xəlilzadənin düşmən tərəfindən odlu silahdan açılmış atəş nəticəsində yaralanması barədə Qubadlı Hərbi Prokurorluğuna məlumat daxil olub.

Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş məlumat əsasında Qubadlı Hərbi Prokurorluğunun işçiləri tərəfindən izahatlar alınıb, Hərbi Prokurorluğun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin əməkdaşları ilə birlikdə müvafiq zəruri tədbirlər görülüb, hadisə yerinə baxış keçirilib və digər hərəkətlər icra edilib.

Fakt üzrə Qubadlı Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 29,120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilərək icraya yönəldilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir, qanunvericiliyin və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.

Allahdan hərbçimizə şəfa diləyirik.

# Bəzi yanğın təhlükəsizliyi qaydaları ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edib

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrinin icrası, o cümlədən ölkədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə səlahiyyətləri daxilində zəruri tədbirlərin görülməsini davam etdirir.

Bu çərçivədə, respublika ərazisində baş verən yanğınların nazirliyin Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən aparılmış statistik təhlili göstərir ki, yanğınların böyük əksəriyyəti yaşayış sektorunun payına düşür. Yaşayış sektorunda baş verən yanğınların isə təqribən 50 faizi elektrik avadanlıqlarının, 15 faizi qaz cihazlarının (qurğularının) quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması səbəbindən baş verir. Bununla yanaşı, odla ehtiyatsızlıq, uşaqların nəzarətsiz qalması və s. kimi səbəblər də yanğınların baş verməsində əsas faktorlardandır.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, aşağıda göstərilən mühüm yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasının zəruriliyini bir daha xatırladır:

- elektrik və qaz şəbəkəsinin quraşdırılmasını yalnız mütəxəssislərə həvalə edin və bu məqsədlə keyfiyyətli məhsullardan istifadə edin!
- standartlara uyğun olmayan qaz cihazlarından istifadə yanğın və partlayış təhlükəsi yaratdığından, onların istismarına yol verməyin!
- elektrik xətləri və uzadıcılarını həddindən artıq yükləməyin!
- elektrik avadanlıqları və qaz cihazlarını işlək vəziyyətdə qoyub mənzili tərk etməyin!
- mənzil daxilində, eyvan və pilləkən qəfəslərində tezalışan yanar maddə saxlamayın!
- mənzilə daxil olarkən qaz qoxusu hiss etdikdə işığı yandırmayın, qapı-pəncərələri açın, mənzilə qazın girişini bağlayın və mütəxəssis çağırın!
- uşaqları nəzarətsiz qoymayın, onların elektrik və qaz cihazlarından istifadəsinə yol verməyin!
- tam söndürülməmiş kibrit və siqaret kötüyünü zibil qutusuna və ya eyvandan atmayın!

Göstərilən sadə, lakin çox vacib təhlükəsizlik qaydalarına əməl etməklə, həyat və sağlamlığa, əmlaka mümkün zərərlərin qarşısı alınmış olacaq!

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng vurun!

## ALLAH RƏHMƏT ELƏSİN!

Kamil Qafarov Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3975
Sifariş 339

Qiyməti 60 qəpik